# UNECEKSPERT

#1 (08) 2020



## SOSİALYÖNÜMLÜ

bazar iqtisadiyyatı inkişaf yolunun məqsədi insanların həyat şəraitinin, maddi rifahının yüksəldilməsi prinsiplərinə xidmət etməsi kimi xarakterizə oluna bilər. Klassik mənada bu sistemdə nə dövlət, nə də xüsusi biznes qurumları bazar iqtisadiyyatı üzərində tam nəzarətə malik olmuşlar.

## SÜRƏTLİ TƏRƏQQİYƏ

can atan hər bir dövlət sosialyönümlü iqtisadiyyatın formalaşdırılması, ədalət prinsiplərinə söykənən sosial quruluşun təmin olunması, iqtisadi gəlirlərin və maddi nemətlərin mütənasib qaydada bölüşdürülməsi istiqamətində sistemli tədbirlər həyata keçirir.

## Azərbaycanın SOSİALYÖNÜMLÜ BAZAR İQTİSADİYYATI: əsas inkişaf meyilləri

## Əhalinin qida təhlükəsizliyi: Azərbaycan nümunəsində

## REGİONLARIN TARAZLI VƏ DAVAMLI İNKİŞAFI NECƏ TƏMİN EDİLMƏLİDİR?




Minimum əməkhaqqının artırılması əhalinin rifahına necə təsir göstərəcək?

# NİYƏ UNEC?

**İNKİŞAF ETMƏKDƏ OLAN AVROPA VƏ MƏRKƏZİ ASİYA UNİVERSİTETLƏRİNİN REYTİNQİNDƏ İQTİSAD YÖNÜMLÜ 4-CÜ UNİVERSİTET OLMAQLA REGİONUN ƏN YAXŞI 200 UNİVERSİTETİNDƏN BİRİ**

Regionda iqtisad elmini dərindən öyrədən fundamental tədris mərkəzidir;

Tədris prosesi və kadr hazırlığı Amerika və Avropa təhsil sisteminə uyğundur;

İxtisaslar bakalavr, magistr və doktorantura təhsil pillələri üzrə

Azərbaycan, ingilis, rus və türk dillərində tədris edilir;

Auditoriyada mərkəz nöqtəsi tələbədir;

Tələbə universiteti iki və daha çox ixtisasla (dual major) bitirə bilər;

Tələbələrin müxtəlif mübadilə proqramlarında iştirak etmək imkanı vardır;

Universitetdə 9 fakültə və 31 kafedra fəaliyyət göstərir;

394 professor və dosent çalışır.



## NİYƏ TÜRK DÜNYASI İŞLƏTMƏ FAKÜLTƏSİ (TUDİFAK)?

Fakültədə təhsil tam türk dilində aparılır;

İxtisaslar: İşlətmə, Beynəlxalq münasibətlər,Turizm və Otelçilik;

Dərs proqramları İstanbul Universiteti nümunəsində hazırlanmışdır;

Fakültə dekanı Türkiyə Universitetlərinin müəllimləri arasından seçilir və fakültənin akademik heyəti təhsillərini Türkiyədə almış azərbaycanlı və türkiyəli müəllimlər təşkil etməkdədir;

Türk Dünyası İşlətmə fakültəsinin diplomunun Türkiyə (YÖK) “denkliyi” ekvalentliyi vardır.

# UNEC BUSINESS SCHOOL

## NİYƏ UNEC, BEYNƏLXALQ İQTİSADİYYAT MƏKTƏBİ (İSE)?

Tam ingilis dilində təhsil;

İxtisaslar: Dünya iqtisadiyyatı, Maliyyə, Mühasibat, Biznesin idarə edilməsi, İqtisadiyyat;

Fakültənin keçid balı – 601;

Fransa, Almaniya, Niderland, Türkiyə, Koreya, Litva universitetləri ilə mübadilə proqramları;

Qərb universitetlərinin məzunları olan müəllimlər;

London Universitetinin beynəlxalq dərəcə proqramında və Montpellier Universiteti ilə ikili diplom proqramında iştirak imkanı;

Harmon İSE tələbə yaradıcılıq klubu ilə birlikdə maraqlı tələbə həyatı.

## NİYƏ UNEC, MBA PROQRAMI?

MBA Proqramı sizi biznes mütəxəssisi kimi formalaşdırır;

Proqram üzrə bütün fənlərə aid mini kitabxana və praktik məsələlər (case study) toplusu təşkil olunmuşdur;

MBA Proqramında çalışan 100-dən artıq professor-müəllim heyətinin əksəriyyəti ABŞ, Kanada, İngiltərə, Almaniya, İtaliya, İsveç, Fransa, Türkiyə, Rusiya və digər ölkələrin ən qabaqcıl universitetlərini bitirmiş iqtisad üzrə fəlsəfə doktorları və magistrlər təşkil edir;

Fənlər dünyanın ən qabaqcıl ali təhsil ocaqlarının proqramlarına uyğun müəyyənləşdirilmişdir;

UNEC Biznes Məktəbi EFMD-nin Qlobal şəbəkəsinin üzvüdür;

UNEC-UBIS (University of Business and International Studies);

İkili Magistr Dərəcə Proqramına qoşulma imkanı

Almaniyanın Yena Fridrix Şiller Universiteti ilə mübadilə proqramı;

İxtisaslar: Beynəlxalq biznes, Biznesin idarə edilməsi, İnsan resurslarının idarə edilməsi, Maliyyə, Marketinq, Menecment, Mühasibat uçotu, Qiymətli kağızlar.

# MÜNDƏRİCAT



**52** Mənzil siyasəti ilə bağlı yeni prioritetlər



**28** **ÖZÜNÜMƏŞĞULLUQ PROQRAMI SOSİAL İNKİŞAFA HANSI TÖHFƏLƏR VERİR?**



**14** **İNSAN KAPİTALI ÖLKƏ İQTİSADİYYATININ ƏSAS DRAYVERİNƏ ÇEVRİLİR.**

| | |
|---|---|
| 06 | **AZƏRBAYCANIN SOSİALYÖNÜMLÜ BAZAR İQTİSADİYYATI:** əsas inkişaf meyilləri |
| 10 | **SOSİALYÖNÜMLÜ BAZAR İQTİSADİYYATI** – ölkədə davamlı inkişafın əsas modeli kimi |
| 14 | **İNSAN KAPİTALI** ölkə iqtisadiyyatının əsas drayverinə çevrilir. |
| 19 | **İCBARİ TİBBİ SIĞORTA:** perspektivlər və prioritetlər |
| 22 | **ÖLKƏ BÜDCƏSİNİN** sosialyönümlü maddələri |
| 24 | **REGİONLARIN TARAZLI VƏ DAVAMLI İNKİŞAFI** necə təmin edilməldir? |
| 26 | **SOSİALYÖNÜMLÜ BAZAR İQTİSADİYYATI** və ekoloji tarazlıq: problemlər və həllər |
| 28 | **ÖZÜNÜMƏŞĞULLUQ PROQRAMI** sosial inkişafa hansı töhfələr verir? |
| 36 | **ƏLİLLİYİ OLAN ŞƏXSLƏRİN MƏŞĞULLUĞU** təmin edilməsində əsas istiqamətlər |
| 38 | **LAYİQLİ ƏMƏK NƏDİR?** Ölkədə necə təmin edilir? |
| 44 | **SOSİAL MÜAVİNƏTLƏR** haqqında |
| 48 | **ŞƏHİD AİLƏLƏRİNİN** sosial müdafiəsi necə təmin edilir? |
| 50 | **ƏMƏKHAQQI SİSTEMİNDƏ** son islahatlar |
| 52 | **MƏNZİL SİYASƏTİ** ilə bağlı yeni prioritetlər |
| 54 | **ƏHALİNİN QİDA TƏHLÜKƏSİZLİYİ:** Azərbaycan nümunəsində |
| 56 | **SOSİAL MÜDAFİƏ FONDU VƏ İŞSİZLİKDƏN SIĞORTA FONDU:** cari vəziyyət |



**16** **ORTA TƏBƏQƏNİN İQTİSADİYYATI**



**40** **ŞƏHİD AİLƏLƏRİNİN** sosial müdafiəsi necə təmin edilir?



**40** **PEŞƏ TƏHSİLİNDƏ YENİLİKLƏR**

# SEÇİLMİŞ MƏQALƏLƏR




56
SOSİAL MÜDAFİƏ FONDU VƏ İŞSİZLİKDƏN SIĞORTA FONDU: CARİ VƏZİYYƏT

SOSİAL İSLAHATLAR PAKETİ VƏ HƏSSAS ƏHALİ QRUPLARI



42 **MİNİMUM ƏMƏKHAQQININ ARTIRILMASI** əhalinin rifahına necə təsir göstərəcək?



33
ÖZÜNÜMƏŞĞULLUQ VƏ SOSİAL BİZNES
Sosial dövlət anlayışında təməl faktorlardan biri də məşğulluğun təmin olunmasıdır.



46
PENSİYA TƏMİNATI SİSTEMİNDƏ YENİLİKLƏR
Pensiya təminatı sistemi dövlətin həyata keçirdiyi sosial müdafiə siyasətinin ən mühüm istiqamətlərindən biridir.

ƏMƏK BAZARI, MƏŞĞULLUQ VƏ SOSİAL İNKİŞAF



38 **LAYİQLİ ƏMƏK NƏDİR?** Ölkədə necə təmin edilir?



36
ƏLİLLİYİ OLAN ŞƏXSLƏRİN MƏŞĞULLUĞU İSTİQAMƏTİNDƏ NƏ EDİLİR?



30
SOSİAL TƏDQİQAT, TƏHLİL VƏ PROQNOZLAŞDIRMADA YENİLİKLƏR

*və daha 21 Ekspert məqaləsi*



58
SOSİAL XİDMƏT SAHƏSİNDƏ YENİLİKLƏR HANSI TÖHFƏLƏR VERƏCƏK

# AZƏRBAYCANIN *SOSİALYÖNÜMLÜ* BAZAR İQTİSADİYYATI: *ƏSAS İNKİŞAF MEYİLLƏRİ*

i.e.d., prof. Əlican Babayev

> Müasir dövrdə möhkəm özüllər üzərində qurulmuş daxili sabitliyə, cəmiyyətdə əmin-amanlığın və firavanlığın bərqərar edilməsinə, həyat səviyyəsinin yüksəldilməsinə yol açan mühüm məqamlardan biri də sosial sferada həyata keçirilən səmərəli dövlət siyasətidir.

Cəmiyyətin yüksək rifah halının təmini, maddi nemətlərin ədalətlilik prinsipləri əsasında bölüşdürülməsi əksər ölkələr üçün prioritet məsələ olaraq qalır. Sürətli tərəqqiyə can atan hər bir dövlət sosialyönümlü iqtisadiyyatın formalaşdırılması, ədalət prinsiplərinə söykənən sosial quruluşun təmin olunması, iqtisadi gəlirlərin və maddi nemətlərin mütənasib qaydada bölüşdürülməsi istiqamətində sistemli tədbirlər həyata keçirir.

Beynəlxalq Əmək Təşkilatının açıqlamasına görə, sosial müdafiə sistemi aşağıdakıları əhatə edən tədbirlər kompleksi kimi müəyyənləşdirilir: haqqı ödənilən sabit əmək fəaliyyətinin stimullaşdırılması; işçi qüvvəsinin gerçəkləşdirilməsi yolu ilə əldə edilən gəlirlərin sosial risklər nəticəsində itirilməsinin sosial sığorta mexanizmi vasitəsilə (kompensasiya yolu ilə) qarşısının alınması; sosial sığorta sistemində iştirak edən şəxslərin ehtiyacları yarandıqda sosial yardım alətlərindən istifadə olunması; insanların təhsil, səhiyyə və digər əsas hüquq və xidmətlərə çıxışının təmin edilməsi.

Təcrübə göstərir ki, hansısa dövlətdə sınaqdan uğurla çıxmış, müsbət nəticələri təsdiqlənmiş inkişaf modelinin adekvat olaraq digər dövlətin iqtisadi sistemə transformasiyası heç də özünü doğrultmur. Hər bir ölkənin ümumi potensialı - coğrafi-geosiyasi mövqeyi, təbii ehtiyatları, məhsuldar qüvvələrinin inkişaf səviyyəsi, intellektual və insan resursları, mental xüsusiyyətləri mütləq nəzərə alınır, bütün bunların əsasında isə milli inkişaf modeli formalaşır.

Bu reallıqlara nəzərən son illər Azərbaycanın özünəməxsus milli inkişaf modelinin formalaşması ilə bağlı müzakirələr tamamilə obyektiv təsir bağışlayır. Bu inkişaf modeli elə uzaqgörənliklə düşünülmüşdür ki, dövlətin sosialyönümlü siyasəti azad bazar iqtisadiyyatının tələbləri ilə kəskin ziddiyyətlər doğurmur. Milli inkişaf modelini xarakterizə edən əsas xüsusiyyətlərdən biri də möhkəm iqtisadi əsaslar fonunda əhalinin maddi rifah halının davamlı olaraq yüksəlməsi, ölkə vətəndaşlarının etibarlı sosial müdafiəsinin təşkilidir.



## Milli inkişaf modelini xarakterizə edən əsas xüsusiyyətlərdən biri

möhkəm iqtisadi əsaslar fonunda əhalinin maddi rifah halının davamlı olaraq yüksəlməsi, ölkə vətəndaşlarının etibarlı sosial müdafiəsinin təşkilidir.

Milli inkişaf modelini səciyyələndirən xüsusiyyətlər sırasında isə milli iqtisadiyyatın sosialyönümlü olması, insan amilinin ön planda dayanması xüsusi önə çəkilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dəfələrlə bildirmişdir ki, dövlətimizin yürütdüyü siyasətin əsasında insan amili dayanır. Odur ki sosial-iqtisadi hüquqların müdafiəsi sahəsində dövlətin başlıca vəzifəsi davamlı sosial islahatlar həyata keçirmək, iqtisadi inkişaf prosesində hər bir vətəndaşın iştirakını təmin etmək, mövcud potensialdan hər bir fərdin bacarıq və qabiliyyətinə görə ədalətli şəkildə yararlanmasına şərait yaratmaqdır. Başqa sözlə, Azərbaycanda uğurla gerçəkləşdirilən sosial təminat tədbirləri insanların həyati tələbatlarının, ən azı, minimum səviyyədə ödənilməsinə xidmət edir.

Azərbaycanda son illərdə formalaşmış sosialyönümlü inkişaf modelinin unikallığı ondan ibarətdir ki, respublikada yeni mülkiyyət formalarının yaranmasına, sahibkarlığın daha sürətli inkişafına yönəlmiş kompleks tədbirlər sistemi əhalinin sosial baxımdan nisbətən zəif təbəqəsinin maraqlarını inkar etmir. Eyni zamanda müəyyən zərurət qarşısında həyata keçirilən sərt islahatlar dərhal sosialyönümlü tədbirlərlə kompensasiya edilir. Eyni zamanda dövlət vətəndaşların sosial mənafeyini nəzərə alaraq bəzən böyük maliyyə tələb edən investisiya layihələrini maliyyələşdirir.

Xatırlatmaq lazımdır ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra – bir ictimai-iqtisadi formasiyadan digərinə keçid prosesi ilə əlaqədar bazar iqtisadiyyatının hansı modelindən istifadə edilməsi nəzəri və praktiki baxımdan son dərəcə aktual məsələ kimi gündəliyə çıxmışdı. Milli inkişaf strategiyasının nəzəri-praktik əsaslarını formalaşdırılması və praktik şəkildə tətbiqi isə yalnız Ulu öndər Heydər Əliyevin 1993-cü ilin iyununda xalqın təkidli istəyi ilə hakimiyyətə qayıdışından sonra mümkün olmuşdur.

Bazar münasibətləri əsasında formalaşan sosialyönümlü milli iqtisadiyyatın qurulmasını əsas strategiya kimi müəyyən edən Ümummilli liderin həyata keçirdiyi sosial siyasətin iki əsas xarakterik cəhəti xüsusi diqqət cəlb edirdi. Bunlardan birincisi, sosial siyasətin dayanıqlı xarakter daşıması, ölkənin iqtisadi bazisinə əsaslanması, ikincisi, onun mükəmməl və dünya təcrübəsində uğurla sınaqdan çıxmış normativ – hüquqi bazaya söykənməsi idi. Dövlətin sosial siyasətinin konturlarını və vəzifələrini özündə əks etdirən Azərbaycan Respublikası Konstitusiyasının 16-cı maddəsinin 1-ci bəndində göstərilir: "Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsinin qayğısına qalır".

Azərbaycan Respublikasının sosial hüquqlara sadiqliyini Birləşmiş Millətlər Təşkilatının 1966-cı il tarixli "İqtisadi, sosial və mədəni hüquqlar haqqında Pakt"ını, habelə Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt"ını imzalamaqla təsdiqləmişdir. Araşdırmalar göstərir ki, 1996–2003-cü illər ərzində aztəminatlı əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 8 fərman və sərəncamı, Nazirlər Kabinetinin 2 qərarı olmuşdur. Bunların tətbiqi nəticəsində, eləcə də ölkədə əməkhaqlarının artımı hesabına pensiya və müavinətlərin orta aylıq məbləği 1995–2003-cü illər ərzində 8 dəfə artmışdır. Pensiya və müavinətlərin artırılması, əlillərin və şəhid ailələri üçün mənzillərin tikintisi, əlillərin minik avtomobilləri, müxtəlif reabilitasiya vasitələri ilə təminatı, onların tibbi-sosial reabilitasiyası, bərpa-müalicə və protez xidmətinin təkmilləşdirilməsi, bu sahədə xidmət şəbəkəsinin bütün bölgələr üzrə genişləndirilməsi, yeni sosial obyektlərin yaradılması, aktiv məşğulluq tədbirlərinin həyata keçirilməsi, işçi hüquqlarının təkmilləşdirilməsi və etibarlı müdafiəsi tədbirləri məhz Ulu öndərin təşəbbüsü ilə başlayaraq ənənəvi xarakter almışdır.

Azərbaycan iqtisadiyyatının inkişaf konsepsiyasının mühüm tərkib hissəsi olan sosial siyasət son 16 ildə həm forma, həm də məzmun etibarilə daha da zənginləşdiriləık yeni keyfiyyət mərhələsinə daxil olmuşdur. Aztəminatlı vətəndaşların sosial müdafiəsi, istehsalçı və istehlakçının maraqlarının uzlaşdırılması, bir sözlə, sosial-liberalizm xətti cənab İlham Əliyevin prezidentlik dövrünü səciyyələndirən prioritet istiqamətlərdən biri kimi diqqəti çəkir. Bu müddətdə imzalanmış sərəncam və fərmanlarda, dövlət proqramlarında çoxlu sayda yeni iş yerlərinin yaradılması, sosial xidmətlərin həcminin, keyfiyyətinin və ünvanlılığının əhəmiyyətli dərəcədə artırılması, yoxsulluğun, qaçqın düşərgələrinin tamamilə ləğvi kimi vəzifələr daim ön planda olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin qanunvericilik





## Sosial-iqtisadi tərəqqi prosesində qazanılan nailiyyətlərin miqyasının ildən-ilə genişlənir.

Ölkə vətəndaşlarına dövlət qayğısının artırılması və onların sosial müdafiəsini gücləndirilməsi məqsədilə son 15 ildə 50-dək fərman və sərəncam imzalanmışdır.

təşəbbüsü ilə 2009-cu il martın 18-də keçirilmiş ümumxalq referendumu ilə Azərbaycan Respublikası Konstitusiyasının 15-ci maddəsinin II hissəsinə edilmiş əlavəyə görə “Azərbaycan dövləti bazar münasibətləri əsasında “sosialyönümlü” iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir”. Bu əlavə son illərdə Azərbaycan dövlətinin uğurla həyata keçirdiyi sosialyönümlü iqtisadi siyasət strategiyasına konstitusiya təminatı yaratmışdır.

Sosial-iqtisadi tərəqqi prosesində qazanılan nailiyyətlərin miqyasının ildən-ilə genişlənməsi əhalinin bütün təbəqələrinin həyat səviyyəsinin yaxşılaşdırılması ilə bərabər, bu istiqamətdə mümkün zəruri tədbirlərin uğurla reallaşmasına yeni imkanlar açır. 2006-cı ildən icrasına başlanılan ən böyük sosial layihələrdən biri də aztəminatlı vətəndaşlara ünvanlı sosial yardımları nəzərdə tutan xüsusi dövlət proqramıdır. Ünvanlı sosial yardım sisteminin tətbiqi üçün ilkin tədbir kimi qanunvericilik bazası formalaşdırılmış, 2005-ci ildə “Ünvanlı sosial yardım haqqında” Azərbaycan Respublikasının Qanunu hazırlanaraq qüvvəyə minmişdir. Bu proqramla yanaşı, vətəndaşların maddiləşən işgüzar fəallığının artırılması, onların dövlətin birbaşa yardımlarından asılılığını azaldılması məqsədilə son illərdə özünüməşğulluq proqramının icrasına başlanılmış, insanların müxtəlif sahələrdə tarixi məşğulluq ənənələri bərpa edilmiş, ailə biznesi inkişaf etmişdir.

Ümumilikdə, ölkə vətəndaşlarına dövlət qayğısının artırılması və onların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə son 15 ildə 50-dək fərman və sərəncam imzalanmışdır. Buna misal olaraq “Azərbaycan Respublikasının məşğulluq strategiyası (2006–2015-ci illər)”, Azərbaycan Respublikası regionlarının (2009–2013, 2013–2018 və 2019–2023-cü illər) sosial-iqtisadi inkişafı dövlət proqramlarını, “2008–2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı”, “2008–2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı” və digər vacib sənədləri göstərmək olar.

Sosial sferada həyata keçirilən siyasətin mühüm elementlərindən biri də yoxsulluğun azaldılmasına xidmət edən proqramlardır. 2005-ci il may ayının 12-də Bakıda yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramının icrasına dair keçirilən illik konfransda Azərbaycan Prezidenti cənab İlham Əliyev demişdir: "Azərbaycanda heç kim yoxsulluq şəraitində yaşamamalıdır. Yoxsul insan olmamalıdır".

Ölkəmizdə sosial problemlərin, o cümlədən yoxsulluq probleminin həlli məqsədilə 2008-ci il sentyabrın 15-də “2008–2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı” təsdiq edilmişdir. Aparılan uğurlu islahatların nəticəsi olaraq yoxsulluğun səviyyəsi 2003-cü ildəki 44 faizdən 2019-cu ildə 4,9 faizə düşmüşdür.

Bir sıra Avropa ölkələrində qlobal böhranla bağlı büdcə xərclərinin azaldıldığı və ciddi sosial gərginliyin müşahidə edildiyi halda, son illərdə Azərbaycanda sosialyönümlü layihələrin reallaşdırılmasında hansısa ləngiməyə, yaxud çətinliyə rast gəlinməmişdir. Dünya Bankının hesabatına əsasən, milli gəlirin ədalətli bölgüsünə görə Azərbaycan 110 inkişaf edən ölkəni geridə qoyur və bu da iqtisadi inkişafın səmərəliliyini göstərir. Azərbaycan dünyanın 153 ölkəsi arasında ən aşağı yoxsulluğa malik 20 ölkədən biridir.

Cəmiyyətdə sosial ədalət meyarının bərqərar olmasına xidmət edən milli inkişaf modelinin gələcək prioritetləri ölkə başçısının 6 dekabr 2016-cı il tarixdə təsdiqlədiyi Strateji Yol Xəritəsində dolğun əksini tapmışdır. Sənəddə 2025-ci ilədək iqtisadi inkişaf, sosial rifah və işsizliyin ləğvi ilə bağlı nəzərdə tutulan tədbirlər və proqnozlaşdırılan nəticələr xüsusilə maraq doğurur. Qeyd olunur ki, qarşıdakı illərdə makroiqtisadi sabitlik, xüsusilə fiskal dayanıqlılıq, əlverişli biznes mühiti, inkişaf etmiş infrastruktur, xarici bazarlara sərbəst çıxış və xarici investisiyaların cəlb edilməsi nəticəsində Azərbaycan iqtisadiyyatı xarici şoklara daha davamlı olacaq və ölkədə əmək məhsuldarlığı Şərqi Avropa ölkələrinin müvafiq göstəricisinə çatdırılacaqdır. Dünya Bankının təsnifatına əsasən, Azərbaycan 2025-ci ildən “yüksəkgəlirli ölkə” statusu qazanaraq adambaşına düşən gəlir səviyyəsinə görə Şərqi Avropa ölkələrinin səviyyələrinə yaxınlaşacaqdır. Sənəddə həmçinin qeyd olunur ki, 2025-ci ildən sonrakı dövrdə yoxsulluq ünvanlı şəkildə tam aradan qaldırılacaq, keyfiyyətli səhiyyə xidmətlərinə və təhsilə çıxış imkanları genişləndiriləcəkdir.



Təkcə 2019-cu ildə həyata keçirilmiş inqilabi sosial islahatlar paketi Azərbaycanda sosialyönümlü bazar iqtisadiyyatının formalaşdığını tam təsdiqləyir. Son aylarda Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi zamanı şəhid olmuş insanların ailələrinə 11 min manat məbləğində birdəfəlik ödəniş edilmiş, minimum əməkhaqqı, sosial müavinət, pensiya və tələbə təqaüdləri artırılmış, zəlzələdən ciddi zərər çəkmiş vətəndaşlar üçün evlərin inşasına başlanılmış, devalvasiya nəticəsində banklara borcu yaranmış vətəndaşların borcları müəyyən şərtlər civarında kompensasiya edilmişdir.



Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 1 aprel tarixli "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncamı əsasında 14 kateqoriya üzrə sosial müavinətlər, 7 kateqoriya üzrə Prezident təqaüdləri orta hesabla 100 faiz artırılmışdır. Dövlət başçısının 2019-cu il iyunun 18-də imzaladığı sərəncamlar sosialyönümlü islahatların davamlı səciyyə daşıdığını bir daha təsdiqləmişdir. Bu baxımdan minimum əməkhaqqının məbləğinin il ərzində ikinci dəfə 40 faizə yaxın artırılaraq 250 manata çatdırılması xüsusi vurğulanmalıdır. Minimum əməkhaqqının sentyabr ayından başlayaraq artımının 950 minədək vətəndaşı əhatə edəcəyi gözlənilir ki, onlardan da 600 min nəfəri dövlət sektorunda, 350 min nəfəri özəl sektorda işləyənlərdir.

İmzalanmış sərəncamlar əsasında minimum aylıq əməkhaqqının 180 manatdan 250 manata çatdırılması; dövlət qulluqçularının aylıq vəzifə maaşlarının 50 faiz artırılması; pensiyaların minimum məbləğinin 160 manatdan 200 manata qaldırılması; hərbi və hüquq mühafizə orqanlarının xüsusi rütbəli əməkdaşlarının və mülki işçilərinin əməkhaqlarının 40 faiz artırılması; dövlət ümumi təhsil və peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin vahid aylıq vəzifə maaşlarının orta hesabla 20 faiz artırılması təmin edilmişdir. Ümumilikdə, yeni sərəncamlar 1 milyon 350 minədək vətəndaşın əməkhaqqında ciddi artımlara səbəb olmuşdur.

Bütün bunlar təsdiqləyir ki, Azərbaycan dövlətinin sosialyönümlü siyasətinin əsasını yüksək maddi rifah, insan ləyaqətinin müdafiəsi, ədalətin təmini, fərdlərin maddi statusunda kəskin fərqliliyə yol verməmək kimi ümdə məqsədlər təşkil edir. Bu məqsədlərin reallaşdırılması müasir dövrdə bütün sosialyönümlü dövlətlərdə ictimai həyatın humanistləşdirilməsinin, cəmiyyətdə vətəndaş həmrəyliyinin gücləndirilməsinin, bütün sosial qrup və fərdlərin mənəvi-intellektual və mədəni yüksəlişinin təmin edilməsinin labüd yolu kimi nəzərdən keçirilir. Ölkəmizdə əhali gəlirlərinin dinamik artımı həm də hökuməti qarşıya qoyduğu daha bir mühüm hədəfə yaxınlaşdırmaqla həyat keyfiyyətinin Avropa Sosial Xartiyasının tələblərinə uyğunlaşdırmağa imkan verir.

## Dünya Bankının hesabatına əsasən,

Milli gəlirin ədalətli bölgüsünə görə Azərbaycan 110 inkişaf edən ölkəni geridə qoyur və bu da iqtisadi inkişafın səmərəliliyini göstərir. Azərbaycan dünyanın 153 ölkəsi arasında ən aşağı yoxsulluğa malik 20 ölkədən biridir.

i.e.d., prof. Məhiş Əhmədov

# SOSİALYÖNÜMLÜ

## BAZAR İQTİSADİYYATI - ÖLKƏDƏ DAVAMLI İNKİŞAFIN ƏSAS MODELİ KİMİ



■ ÖLKƏDƏ TAM MƏŞĞULLUĞUN TƏMİN EDİLMƏSİ

■ ÖLKƏDƏ ƏLVERİŞLİ RƏQABƏT MÜHİTİ TƏMİN OLUNUR

Məlumdur ki, sosialyönümlü bazar təsərrüfatı və ya iqtisadiyyat anlayışı nəzəri və praktiki baxımdan ilk dəfə alman alimi Volter Oyken tərəfindən əsaslandırılmışdır. Sosialyönümlü bazar iqtisadiyyatı inkişaf yolunun əsas məqsədi insanların həyat şəraitinin, maddi rifahının yüksəldilməsi prinsiplərinə xidmət etməsi kimi xarakterizə oluna bilər. Klassik mənada sosialyönümlü bazar təsərrüfatı sistemində nə dövlət, nə də xüsusi biznes qurumları bazar iqtisadiyyatı üzərində tam nəzarətə malik olmuşlar. Sosialyönümlü bazar iqtisadiyyatı qarışıq tipli iqtisadi sistem olmaqla burada resursların bölgüsünün həcmi və strukturu birbaşa şəxsi istehlakçıların, resurs göndərənlərin, habelə xüsusi firmaların özlərinin qəbul etdikləri qərarlar əsasında həyata keçirilir.

Ümumi halda sosialyönümlü bazar iqtisadiyyatının başlıca xarakterik cəhətləri aşağıdakı kimi müəyyənləşdirə bilər: ölkədə tam məşğulluğun təmin edilməsi; dövlət sosial yardımları, təqaüdlər, ödənişlər, sosial təqaüdlər, tibbi sığorta, işsizliyə, habelə aztəminatlı ailələrə və əlilliyə görə müavinətlərin və s. vasitəsilə sosial ədaləti və bütünlükdə sosial tərəqqini təmin etmək üçün müvafiq iqtisadi siyasəti formalaşdırır və reallaşdırır; ölkədə əlverişli rəqabət mühiti təmin olunur və haqsız rəqabətə qarşı mübarizə aparılır; iqtisadi artımı stimullaşdırmaq məqsədilə müvafiq iqtisadi inkişaf strategiyasının prioritetləri müəyyənləşdirilərək reallaşdırılır; milli valyutanın dönərliliyi, sərbəst mübadiləsi, likvidliyi təmin olunur.

Qeyd etmək lazımdır ki, son 15 il ərzində Azərbaycanda sosial-iqtisadi inkişaf sahəsində əldə olunan uğurlu nəticələr, yaradılmış iqtisadi, sosial, maliyyə potensialı, insan kapitalı, infrastruktur, institusional baza, habelə əhalinin sosial rifahının yaxşılaşması, məşğulluğun təmin olunması, yoxsulluğun azalması ölkəmizə inklüziv cəmiyyətin formalaşması, iqtisadi inkişafla – əhalinin rifahı arasında ahəngdarlığın təmin edilməsi, gəlir və istehlakın qeyri-bərabərliyin aradan qaldırılmasına, bütünlükdə hərtərəfli insan inkişafına əsaslanan inklüziv inkişaf modelinə keçməyi əməli bir problem kimi qarşıya qoymağa və onu mərhələ-mərhələ reallaşdırmasına imkan verir.

Dünya təcrübəsində və mövcud iqtisadi ədəbiyyatlarda inklüziv inkişaf anlayışına, göstəricilərinə, indikatorlarına, onların təmin olunması imkanlarına, yollarına və reallaşma mexanizminə dair vahid bir yanaşma yoxdur. Bununla belə, "Avropa 2020" strategiyasını hazırlayan komissiyanın rəyində göstərilir ki, inklüziv inkişaf ölkənin əmək potensialından dolğun istifadə, tam məşğulluğun təmin edilməsi, yoxsulluğun və onun nəticələrinin azaldılması, müxtəlif sosial qruplar arasındakı gəlirlərin səviyyəsindəki fərqlərin minimuma endirilməsi, bütünlükdə sosial inkişafa nail olunmasını, ölkə regionlarının arasındakı mövcud disproporsiyaların aradan qaldırılmasını və s. nəzərdə tutur. İnklüziv inkişaf sadəcə olaraq ÜDM-in artımı ilə deyil, eyni zamanda insan kapitalının hərtərəfli inkişafını, cəmiyyətdə gəlirləri yaradan insanların ümummilli gəlirlərində payının artırılmasını, onların ölkənin iqtisadi həyatında fəal iştirakını, təhsil və tibbi xidmətin aztəminatlı əhali qrupları üçün əlçatan olmasını, məhsul və xidmət vahidinə çəkilən xərclərin aşağı salınması, habelə təbii resurslardan səmərəli istifadəsini, ətraf mühitin qorunması problemlərini də özünə daxil etməlidir.

İnklüziv inkişafın göstəriciləri, indikatorları, meyarlarının sistemli təhlili göstərir ki, ümumən, inklüziv iqtisadi artım konsepsiyası, əslində, davamlı inkişaf modelinin tərkib hissəsi kimi çıxış edir. Son illərdə beynəlxalq aləmdə davamlı inkişafın sosial və humanitar aspektləri gücləndirilmişdir. İnküziv inkişafın

Azərbaycan Respublikasının Konstitusiyasının “İqtisadi inkişaf və dövlət” bölməsinin 15-ci maddəsində göstərilir: “Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət edir. Azərbaycan dövləti bazar münasibətləri əsasında sosialyönümlü iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir”.



ÖLKƏDƏ HAQSIZ RƏQABƏTƏ QARŞI MÜBARİZƏ APARILIR

ÖLKƏ ƏHALİSİNİN QAZLA TƏMİNATI 95%-Ə ÇATMIŞDIR

// STATİSTİKA

90% 7% 3%

SON 15 İL ƏRZİNDƏ

Azərbaycanda **ümumi daxili məhsul** 3,3 dəfə, **qeyri-neft sektoru** 2,8 dəfə, **qeyri-neft ixracı** isə 4,1 dəfə artmış, **sənaye potensialı** 2,6 dəfə, **kənd təsərrüfatı istehsalı** 1,7 dəfə artmış, **maaşlar** 7 dəfə, **pensiyalar** 9 dəfə artıb, **işsizlik** 5%-ə, **yoxsulluğun səviyyəsi** isə 5,1% enmişdir, **valyuta ehtiyatlarımız** 26 dəfə artaraq 55 milyard dollara çatmışdır.

davamlı inkişaf modelinin əsası olması özünü eyni zamanda BMT-nin 2015-ci ilin sentyabr sammitində qəbul olunan davamlı inkişafın məqsədlərində bir daha göstərir ki, ölkəmizdə davamlı inkişaf məqsədlərinin icrasını təmin etmək üçün problemə institusional və iqtisadi baxımdan kompleks yanaşmanın zəruriliyi xüsusi vurğulanmışdır və ölkəmizdə həmin məqsədlərin səmərəli reallaşmasını təmin etmək məqsədilə Azərbaycanda Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılmışdır.

Bu gün milli iqtisadiyyatımız iqtisadi inkişafın elə bir mərhələsinə daxil olmuşdur ki, artıq özü öz inkişafını, rəqabətqabiliyyətliliyini yüksəltmək, təhlükəsizliyini təmin etmək, ən başlıcası isə qarşıda duran sosial problemləri həll etmək imkanlarına malikdir.

Son on beş il ərzində Azərbaycan iqtisadiyyatı inkişaf sürətinə görə dünya ölkələri arasında kifayət qədər yüksək yer tutmuşdur. Belə ki, bu illər ərzində Azərbaycanda ümumi daxili məhsul 3,3 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, qeyri-neft ixracı isə 4,1 dəfə artmış, sənaye potensialı 2,6 dəfə, kənd təsərrüfatı istehsalı 1,7 dəfə artmış, maaşlar 7 dəfə, pensiyalar 9 dəfə artıb, işsizlik 5%-ə, yoxsulluğun səviyyəsi isə 5,1% enmişdir, valyuta ehtiyatlarımız 26 dəfə artaraq 55 milyard dollara çatmışdır, ölkə iqtisadiyyatına 270 milyard dollar sərmayə qoyulmuş, ölkə əhalisinin 1,5 milyon nəfər artımına qarşı 2 milyon yeni iş yeri yaradılmışdır.

2003–2018-ci illərdə ölkəmizdə 3200-dən çox məktəb, 640 tibb müəssisəsi yenidən tikilib və ya əsaslı təmir edilmişdir. 44 olimpiya mərkəzi yaradılıb, 15 min kilometr avtomobil yolları tikilmişdir. Ölkə əhalisinin qazla təminatı 95%-ə çatmış, əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması sahəsində mühüm irəliləyişlər baş vermişdir.

Təhlil onu da göstərir ki, son onillikdə sosial-iqtisadi inkişafın bütün istiqamətlər üzrə əldə olunan nəticələr sayəsində 2018-ci ildə ölkəmizdə makroiqtisadi sabitlik daha da möhkəmlənmiş, milli valyutanın sabitliyi qorunub saxlanılmış, inflyasiyanın cilovlanması nəticəsində ötən ilin müvafiq dövrü ilə müqayisədə 10% azaldılmış, dövlət büdcəsindən sosialyönümlü xərclər 2018-ci ilə nisbətən 2019-cu ildə 27,6% artaraq 32,7%-ə çatdırılmışdır.

Azərbaycanda inklüziv iqtisadi artımın təmin edilməsində dövlət tərəfindən reallaşdırılan investisiyanın təşviqi proqramları xüsusi əhəmiyyətə malikdir. Qeyd etmək kifayətdir ki, 1 yanvar 2019-cu ilə kimi ölkəmizdə 107 layihə reallaşdırılır, cari ildə isə 332 layihənin reallaşdırılması nəzərdə tutulmuşdur. Bütün bu layihələrin reallaşdırılması ölkəmizdə 12 min yeni iş yerinin yaradılmasına səbəb olacaqdır. İnklüziv iqtisadi artımın təmin edilməsində ölkəmizdə uğurla reallaşdırılan özünüməşğulluq proqramının da rolu diqqəti cəlb edir. Bu proqram 2019-cu ildə 7000 nəfər əhalini əhatə etməklə onların işlə təminatı səviyyəsi yaxşılaşdıracaqdır. Məlumdur ki, ölkədə inklüziv iqtisadi artımın təmin edilməsində kiçik və orta sahibkarlığın inkişafı mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə "Ailə biznesinə asan dəstək" "ABAD" mərkəzlərinin yaradılması ölkəmizdə məşğulluğun səviyyəsinin yüksəldilməsinə öz töhfəsini verəcəkdir.

Təhlil göstərir ki, müasir dövrdə Azərbaycan iqtisadiyyatı, əslində, kəmiyyət dəyişikliklərindən keyfiyyət dəyişikliklərinə, səmərəliliyə əsaslanan iqtisadiyyata keçid mərhələsindədir. Belə ki, iqtisadi artımda intensiv amillərin, xüsusən elmtutumlu, habelə



ixtisaslı əməktutumlu sahələrin üstün inkişafı hesabına iqtisadi artımda intellektual kapitalın payı artmağa doğru meyil edir, qeyri-neft sektorunun ÜDM-də xüsusi çəkisi artır, idxal və ixracın strukturu təkmilləşir, milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyi tədricən yüksəlir, bütünlükdə yeni sənaye parkları, məhəllələrinin yaranması əsasında iqtisadiyyatın modernləşməsi prosesi müşahidə olunur. Ölkəmizin post neft erası dövrünə daxil olması şəraitində inklüziv iqtisadi artımın təmin edilməsinin çox mühüm istiqaməti qeyri-neft sektorunun inkişafı və diversifikasiyası ilə bağlıdır. Son illərdə bu istiqamətdə həyata keçirilən sistemli tədbirlər və dövlət proqramları nəticəsində qeyri-neft sektorunun ÜDM-də payı 65%-ə çatmışdır.






Məlumdur ki, effektiv iqtisadi inkişaf strategiyasının işlənib-hazırlanması və qəbul olunması milli iqtisadiyyatın inklüziv inkişafının təmin edilməsinin ilkin şərtidir. Çünki son nəticədə reallaşdırılması nəzərdə tutulan inkişaf konsepsiyasının uğuru həlledici dərəcədə ölkədə mövcud olan tənzimləmə sisteminin nə dərəcədə səmərəli və optimal olmasından asılı olur. Beləliklə, iqtisadi inkişaf strategiyası işlənibhazırlanarkən ölkənin mövcud maliyyə və iqtisadi potensialı və multiplikator effektinin nəzərə alınması da ən vacib şərtlərdən biri hesab edilməlidir. Sosial-iqtisadi inkişafın xarakteri və dinamikasına qanunvericiliyin təsirinin obyektiv qiymətləndirilməsinin mühüm əhəmiyyətini nəzərə alaraq Azərbaycan dövləti daima öz fəaliyyətində sosial-iqtisadi inkişafla bağlı qəbul olunan bütün normativ-hüquqi aktların kifayət qədər güclü, intellektual yükə malik olmasına çalışır.



Onu da xüsusi vurğulamaq istərdik ki, son illərdə inklüziv-iqtisadi artımla bağlı Azərbaycan dövləti tərəfindən qəbul olunmuş bütün sosial proqramlar, layihələr, qarşıya qoyulan məqsədlər və həyata keçirilməsi nəzərdə tutulan tədbirlər vaxtında və keyfiyyətlə yerinə yetirilmişdir. Məhz onun nəticəsidir ki, 2017–2018-ci illər üçün hazırlanmış DAVOS iqtisadi forumunun hesabatında Azərbaycan inklüziv inkişaf göstəricisinə görə inkişaf etməkdə olan 80 ölkə arasında 3-cü yerə layiq görülmüşdür.

Bütün bunlar son nəticədə Azərbaycanda inklüziv inkişafa, başqa sözlə, təbiət – cəmiyyət, iqtisadi, sosial inkişafın ahəngdarlığına güclü təkan verməklə yaxın perspektivdə ölkəmizin davamlı inkişaf modelinə keçid üçün bütün zəruri imkan və şəraiti yaradır.

# İNSAN KAPİTALI

## ölkə iqtisadiyyatının əsas drayverinə çevrilir

**İnsan kapitalı insanın,** geniş mənada, təkrar istehsalı və ona çəkilən xərclərin müqabilində ölkənin inkişafındakı təsiri ilə qiymətləndirilir.

**i.e.d., prof.**
Əli Əlirzayev





İnsan kapitalı müasir şəraitdə dünya iqtisadiyyatının və sosial tərəqqinin, iqtisadi təhlükəsizliyini çox təsirli amil olmaqla hər bir şəraitdə özünün formalaşması mənbələri və milli-mənəvi dəyərləri prizmasından çoxşaxəli aspektlər kəsb edir. İnsan kapitalının mahiyyəti hər bir ölkədə onun əhalisi, iqtisadi idarəetmə metodları və insanın məcmu bacarıqlarının iqtisadi dövriyyəyə cəlbedilmə intensivliyi və onun səmərəsinin yüksəldilməsində rolunun qiymətləndirilməsi ilə ölçülür.

İnsan kapitalı insanın, geniş mənada, təkrar istehsalı və ona çəkilən xərclərin müqabilində ölkənin inkişafındakı təsiri ilə qiymətləndirilir. İnsan kapitalı çoxşaxəli və istifadə motivindən asılı olan nəticələrə malik olmaqla onun formalaşması və dinamikasında çox kriteriali məqsədlər yolu ilə ölkədə alternativ resurslar və innovativ tədbirlər məcmu ilə təkmilləşir.

Ölkə iqtisadiyyatının hərtərəfli inkişafı insan kapitalı ilə və onun idarə edilməsində perspektiv proqramların, innovativ texnologiyaların tətbiqi ilə tənzimlənir. İnsan kapitalı geniş spektrə malik olmaqla potensial resursların kapitala çevrilməsi üçün aparılan siyasətin tarazlığı, dinamizmi milli dayaqlara söykənməklə dünya təcrübəsinə əsaslanan islahatlar yolu ilə mümkündür. Fikrimizcə, insan kapitalının qiymətləndirilməsi keyfiyyət baxımından iqtisadi və sosial strukturun dəyişməsinə, yeni sahələrin genişlənməsinə, ixracat potensialının artırmaqla inteqrasiya amili kimi güclənməsinə və ölkənin təhlükəsizliyi baxımından hədəflərə nail olmağa əsas verir. İnsan kapitalı vahid və çoxfunksiyalı sistem olaraq cari qiymətləndirmənin hədəflərə çatdırılması üçün birbaşa təsir gücünə malik olan maliyyə, maddi, mənəvi, stimullar və ədalətli bölgü mexanizmləri ilə tənzimlənir.

Fikrimizcə, aşağıdakı istiqamətlərdə insan kapitalını tədqiq etmək və mülahizələr söyləmək vacibdir:

- təbii artım və ömür səviyyəsinin yüksəldilməsi;



**İnsan kapitalı geniş spektrə malik olmaqla** potensial resursların kapitala çevrilməsi üçün aparılan siyasətin tarazlığı, dinamizmi milli dayaqlara söykənməklə dünya təcrübəsinə əsaslanan islahatlar yolu ilə mümkündür.

- insan inkişafı indeksinin yüksəldilməsinə təsir edən təhsil, sağlamlıq və həyat səviyyəsinin yüksəldilməsi;
- ədalətli bölgü sisteminin tətbiqi və stimullar sistemində şəffaflıq və ədalətli təkrar istehsal mexanizmlərinin tətbiqi;
- dövlətin sosial müdafiə sistemində dayanıqlıq, ədalətlilik, qütbləşmə və əmək prosesində cəmiyyətə verdiyi fayda nəzərə almaqla ehtiyacların ödənilməsində minimal və orta səviyyələrin arasında əlaqənin qanunla tənzimlənilməsi;
- insan kapitalının əsas mənbəyi olan sosial-iqtisadi qruplar üzrə xüsusi dövlət nəzarətinin tətbiqi, subsidiyalar, kreditlər verilməsi və özünüməşğulluq şəraiti yaradılması;
- insan kapitalının əsas mənbəyi olan və bütün əhali üçün faydalı olan analıq kapitalının mühafizəsi, bərpası və təkrar istehsalı üçün dövlət siyasətinin formalaşması;
- xüsusi sosial qruplar, tələbələr, gənclər, uşaqlar və o cümlədən fiziki cəhətdən zəif olan uşaqlar üçün perspektiv resurslar və fondların yaradılması;
- dövlətin insan kapitalının təkrar istehsalı və faydalı istifadəsi üçün qanunlar və idarəetmə mexanizmlərinin təkmilləşməsi.

İnsan kapitalının uzunmüddətli proqnozu iqtisadi və sosial tədbirlərin reallığı və səmərəliliyi ilə yanaşı, insan kapitalının xərclərinin artımı və səmərəli istifadəsi ilə formalaşır.

İnsan kapitalı istehlak davranışı və istehlakın idarə edilməsi ilə təkmilləşir. Belə ki, istehlak strukturunda xidmət istehlakı, mənəvi nemətlərin xüsusi çəkisi, təhsil xərcləri və sosial müdafiə təminatı insan kapitalının təkmilləşməsi strategiyasını insan kapitalının investisiya tutumunu artırır.

İnvestisiyaların insan kapitalına yönəldilməsi uzunmüddətli strategiyanın əsas istiqamətidir. İnsan kapitalının səmərəsi uzunmüddətli iqtisadi və sosial siyasətin sosialyönümlülüyü ilə və sosial müdafiə sisteminin təkmilləşməsi ilə mümkündür.



**İnsan inkişafı indeksinin** yüksəldilməsinə təsir edən təhsil, sağlamlıq və həyat səviyyəsinin yüksəldilməsi



# ORTA TƏBƏQƏNİN

i.f.d., dos. Elşən Bağırzadə

## ORTA TƏBƏQƏ

Tədqiqatlarda orta təbəqənin müəyyən edilməsi məqsədilə, əsasən, mütləq və ya nisbi gəlir səviyyəsi kriteriyalarından istifadə edilir və bu zaman da gəlir səviyyəsi aralıqlarının təyin edilməsində çox fərqli yanaşmalar ortaya qoyulur. Bu yanaşmaların ən geniş yayılmışları aşağıdakılardır:

- Adambaşına düşən gəlirin 75-125%-i arasında gəlirə sahib olanlar;
- Adambaşına düşən gəlirin 75-200%-i arasında gəliri olanlar;
- Ən zəngin 20% əhali qrupu ilə ən yoxsul 20% əhali qrupuna aid olmayanlar;
- Adambaşına orta günlük gəliri/istehlakı 10-100 ABŞ dolları (SGP) arasında olan ev təsərrüfatlarında yaşayanlar;
- Adambaşına orta günlük gəliri/istehlakı 10-50 ABŞ dolları (SGP) arasında olan ev təsərrüfatlarının üzvləri;
- Adambaşına orta günlük gəliri/istehlakı 11-110 ABŞ dolları (SGP) arasında olanlar;
- Ev təsərrüfatlarında 3-cü və 6-cı gəlir desilləri arasında gəlirə sahib olanlar.

Əslində, belə bir vəziyyətin yaranması kifayət qədər də normal haldır. Çünki, hər şeydən öncə, gəlir səviyyəsinə görə orta təbəqə müəyyənləşdirilərkən seçilən gəlir səviyyəsi aralıqlarının bir çox hallarda zaman və məkan etibarilə fərqləndirilməsi zərurəti ortaya çıxa bilər. Belə ki, gəlir səviyyəsi aralıqlarının inflyasiya amili, ölkələrin inkişaf və daxili qiymət səviyyələrindəki müxtəlifliklər və digər bu kimi amillər nəzərə alınaraq fərqləndirilməsi mümkündür. Ancaq eyni zaman və məkanı əhatə edən müxtəlif tədqiqatlarda fərqli gəlir səviyyəsi kriteriyalarından istifadə edilməsi halları da geniş yayılmışdır ki, bu da orta təbəqə anlayışına vahid tərif verilməsini daha da çətinləşdirir.

XIX əsrdə cəmiyyətin sinfi strukturunu təhlil edən marksist tədqiqatçılar orta təbəqə dedikdə kapitalist, kəndli və fəhlə sinfinə aid olmayanları nəzərdə tuturdular. Marksistlərin "kiçik burjuaziya" adlandırdıqları bu təbəqəyə öz əməyinə əsaslanan və böyük istehsal vasitələrinə malik olmadıqlarından burjuaziya sinfinə daxil olmayan kiçik tacirlər və sənətkarlar kimi əhali qrupları aid edilirdi. Kapitalizmin sonrakı inkişaf mərhələlərində bu əhali qruplarına yeniləri də əlavə olundu və hazırda orta təbəqə çoxlu sayda əhali qrupunu özündə birləşdirən sahibkar və maaşla işləyən orta təbəqələrdən ibarətdir. Sahibkar orta təbəqəyə əsasən kiçik tacirlər, sənətkarlar, emalatçılar, fermerlər və məişət xidmətçiləri və sərbəst işləyən peşəkarlar (diş həkimləri, vəkillər, rəssamlar, əczaçılar, müğənnilər, memarlar və s.) aid edilir. Maaşla işləyən orta təbəqəyə isə, əsasən, məmurlar, hakimlər, zabitlər və "ağ yaxalılar" (bilik işçiləri, menecerlər, ofis işçiləri və s.) daxildir. Təcrübə göstərir ki, ölkələrin inkişaf səviyyəsi yüksəldikcə, tədricən maaşla işləyən orta təbəqənin nisbi payı daha da artır. Belə ki, bilik iqtisadiyyatı və ya bilik cəmiyyəti, xüsusilə "ağ yaxalılar" deyilən əhali qrupunun sürətlə artmasına səbəb olur və bunları da bəzi tədqiqatçılar "yeni orta təbəqə" adlandırır.

Orta təbəqənin hansı iqtisadi imkanları var? Ədəbiyyatlarda bu suala verilən cavablarda oxşarlıq çoxdur. Bu istiqamətdə ən geniş yayılmış yanaşmaya görə, evə və avtomobilə sahib olmaq, səhiyyə və pensiya təminatı olmaq, yeni məişət avadanlıqlarını ala bilmək, restoranlarda yemək yeyə bilmək, uşaqlarını oxuda bilmək və ailəvi tətilə çıxa bilmək orta təbəqə ailələrin sahib olduğu başlıca iqtisadi imkanlarıdır. Bu imkanları isə, adətən, ailənin hər iki başçısı eyni zamanda çalışaraq təmin edir.

Bəs iqtisadçılar orta təbəqənin tədqiqinə nə üçün maraq göstərirlər? Şübhəsiz ki, bu maraq geniş əhali qrupunu, müxtəlif iqtisadi imkanları özündə birləşdirən orta təbəqənin iqtisadiyyatda oynadığı əhəmiyyətli və özünəməxsus roldan irəli gəlir. Bu rolu isə aşağıdakı istiqamətlər üzrə açıqlamaq mümkündür:

1. Orta təbəqədə nə yoxsulluğun ümidsizliyi, nə də zənginliyin ifrat rahatlığı olmadığından bu təbəqə iqtisadi baxımdan çox dinamik olur və iqtisadiyyatın da dinamikliyini təmin edir. Onlar, adətən, çalışqandır və cəmiyyətin dəyişiklik agentləri kimi yeniliklərə və təkmilləşmələrə açıq olmaları ilə seçilirlər;
2. Orta təbəqə zənginlər və yoxsullarla müqayisədə ömürboyu təhsilə çox sıx bağlı olan təbəqədir və bu baxımdan da iqtisadiyyatın insan kapitalının başlıca mənbəyini təşkil edir. Orta təbəqə ailələrin övladları həyatlarını sürdürmələrinin və cəmiyyətdə layiqli yer tutmalarının əsas vasitəsi kimi, adətən, təhsili gördüklərindən daim təhsil səviyyələrini artırmağa çalışırlar;





# İQTİSADİYYATI

## ORTA TƏBƏQƏDƏ İQTİSADİ BAXIMDAN ÇOX DİNAMİK OLUR VƏ İQTİSADİYYATIN DA DİNAMİKLİYİNİ TƏMİN EDİR.

3. Kiçik sahibkarlıq subyektlərini özündə birləşdirən orta təbəqə iqtisadiyyatın çevikliyini təmin edən başlıca qüvvə hesab edilir. Təcrübə göstərir ki, istər dünya iqtisadiyyatında, istərsə də ölkə iqtisadiyyatında baş verən proseslərə kiçik sahibkarlıq subyektləri daha çevik reaksiya verirlər;

4. Orta təbəqə məcmu tələbin başlıca formalaşma mənbəyi olduğundan iqtisadi artımın davamlılığının təmin edilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Araşdırmalar göstərir ki, orta təbəqə üzrə tələbin gəlir elastikliyi, adətən, 1-dən yüksəkdir və bu təbəqənin, xüsusilə ev, avtomobil, məişət avadanlıqları kimi dayanıqlı mallara olan tələbi iqtisadi aktivliyin qorunub saxlanmasına böyük töhfə verir. Zəngin təbəqənin satınalma gücü yüksək olsa da, orta təbəqə qədər genişmiqyaslı, o cümlədən də inşaat, avtomobil, təhsil, səhiyyə kimi açar sektorları əhatə edən böyük həcmdə tələb yarada bilmir. Yoxsul təbəqənin tələbi isə, əsasən, zəruri istehlak mallarının istehsal olunduğu sektorlara təsir göstərir;

5. Orta təbəqə daha keyfiyyətli və daha çeşidli mal və xidmətlərə üstünlük verməklə markalaşmış, yüksək əlavə dəyər yaradan sektorların inkişafına səbəb olur. Təhsilli orta təbəqənin peşəkarlıq və keyfiyyətlə bağlı yüksək tələbləri firmaları müvafiq istehsal və marketinq investisiyalarına sövq edir;

6. Orta təbəqə məcmu tələbin başlıca mənbəyi olmaqla yanaşı, məcmu yığımın da başlıca mənbəyidir. Bu ailələr ev, avtomobil, övladlarının təhsili, səhiyyə və pensiya təminatı üçün mümkün ölçüdə yığıma üstünlük verir və bu yığımları da, əsasən, qiymətli kağızlarda, banklarda, sığorta şirkətlərində və pensiya fondlarında saxlayaraq iqtisadiyyatın investisiya imkanlarını genişləndirirlər;

7. Orta təbəqə vergitutma bazasının əsasını təşkil etməklə dövlətin vergi gəlirlərinin dayanıqlılığının təmin edilməsi baxımından böyük əhəmiyyət daşıyır. Bu təbəqə həm çoxsaylı sahibkarlıq subyektləri, həm də maaşla işləyən əhali qrupları vasitəsilə, demək olar ki, bütün növ vergilərin başlıca ödəyicisi qismində çıxış edir;

8. Nəhayət, orta təbəqə inklüziv iqtisadi artım üçün əhəmiyyətli olan demokratik institutları dəstəkləyən başlıca əhali qrupudur. Bu təbəqənin mənsubları, təhsilli vətəndaş və başlıca vergi ödəyicisi kimi dövlət xidmətlərinə yüksək keyfiyyət tələbləri irəli sürür, korrupsiyaya qarşı dözümsüzdür və iqtisadi demokratiyanın güclənməsinə səy göstərir.

Orta təbəqə kapitalizmin məhsuludur. Bu baxımdan, Azərbaycanda da orta təbəqənin tarixi bu torpaqlarda kapitalizmin tarixi ilə üst-üstə düşür. Belə ki, Azərbaycanda kapitalist münasibətlərinin formalaşmağa başladığı XIX əsrin II yarısından etibarən orta təbəqəni əsasən kiçik tacir, sənətkar və emalatçılar, naşirlər, yazarlar, müəllimlər, ruhanilər, məmurlar, hərbçilər kimi əhali qruplarının timsalında görmək mümkündür. Bu təbəqənin formalaşması və inkişafı Azərbaycan Xalq Cümhuriyyətinin süqut etdiyi 1920-ci ilə qədər davam etmişdir.

**Bilik iqtisadiyyatı əhalinin “yeni orta təbəqə” qrupunun sürətlə artmasına səbəb olur.**

1920-1991-ci illər arasındakı sosialist Azərbaycanında orta təbəqədən danışmaq çətindir, çünki rəsmi ideologiya cəmiyyətdə bu təbəqənin mövcudluğunu istisna edirdi. 1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra isə bazar iqtisadiyyatı yolunu seçmiş və bununla da ölkədə orta təbəqənin yenidən formalaşması imkanı yaranmışdır.

Bu gün Azərbaycanda orta təbəqəyə həsr edilmiş əhatəli tədqiqatların mövcudluğundan danışmaq çətindir. Bu mövzuda aparılmış mövcud azsaylı tədqiqatların çoxu da iqtisadi deyil, daha çox sosioloji və politoloji yanaşmalara əsaslanır. Ancaq buna baxmayaraq, Dünya Bankı tərəfindən aparılan bir iqtisadi tədqiqat bu baxımdan diqqəti cəlb edir. 2015-ci ildə nəşr edilən “Azərbaycan Sistemli Ölkə Diaqnostikası” adlı bu tədqiqatda Azərbaycan Dövlət Statistika Komitəsinin (AzSTAT) Ev Təsərrüfatları Büdcələrinin Seçmə Tədqiqatının nəticələrinə əsaslanaraq 2007-2012-ci illər arası dövr üçün ölkədə orta təbəqənin vəziyyəti təhlil edilmişdir. Tədqiqatda orta təbəqə anlayışı, adambaşına günlük istehlakı satınalma gücü pariteti ilə 10 ABŞ dollarının üstündə olan ailələr kimi qəbul edilmiş və 2012-ci il üçün Azərbaycanda əhalinin 29%-nin orta təbəqəyə aid olduğu

göstərilmişdir. Tədqiqatın ölkədə orta təbəqə ilə bağlı əldə etdiyi digər nəticələr isə aşağıdakılardır:

- 2007-2012-ci illər arasında Azərbaycanda ümumi əhali sayında orta təbəqə əhalinin payı təxminən 7 dəfə artaraq 4,26%-dən 29,0%-ə yüksəlmişdir;
- Orta təbəqənin 43%-i böyük şəhərlərdə, 36%-i kəndlərdə, 21%-i isə kiçik şəhərlərdə və qəsəbələrdə yaşayır;
- Orta təbəqənin 36%-i xidmətlər, 23%-i dövlət idarəetməsi, təhsil və səhiyyə, 15%-i inşaat, 9%-i aqrar, 7%-i emal sənayesi, 7%-i isə kommunal və dağ-mədən sektorlarında çalışır;
- Əhalinin 6%-i yoxsul, 29%-i orta təbəqə, 65%-i isə həssas təbəqədir. Həssas təbəqə yoxsulluq səviyyəsindən çıxsa da, orta sinif səviyyəsinə daxil ola bilmir, çünki hələ də iqtisadi şoklara və yenidən yoxsulluq səviyyəsinə qayıtmağa həssasdır;
- İqtisadiyyatın mövcud dinamikaları, böyüməkdə olan orta təbəqənin istəklərini tam şəkildə dəstəkləyə bilmir. Çünki böyüməkdə olan orta təbəqə, yetərli qiymət və keyfiyyət səviyyəsinə cavab verən təhsil və səhiyyəyə; daha yaxşı və özünütəminat xarakterli kənd təsərrüfatından kənarda daha geniş iş imkanlarına; su, sanitariya və enerjini də əhatə edən etibarlı və münasib qiymətli xidmətlərə və rəylərin daha çox nəzərə alınmasına tələbi artırır.

Dünya Bankının apardığı bu tədqiqat Azərbaycanda orta təbəqənin vəziyyəti haqqında müəyyən məlumat versə də, post-neft dövrünü əhatə etməməsi və tətbiq etdiyi metodikanın zəngin təbəqəni nəzərə ala bilməməsi, hazırda ondan istifadə imkanlarını kifayət qədər məhdudlaşdırır.

Bəs Azərbaycanda orta təbəqənin hazırkı vəziyyətini necə qiymətləndirmək olar? AzSTAT-ın verdiyi rəqəmlərə müraciət etsək, ilk növbədə, ölkədə, əsasən, orta təbəqənin vəziyyətini əks etdirən bir sıra dayanıqlı malların istehlakı və ya satışı ilə bağlı göstəricilərin 2000-ci illərin əvvəlindən bu tərəfə ciddi şəkildə artığını görmək mümkündür. Məsələn, ölkədə hər 1000 nəfərə düşən minik avtomobillərinin sayı 2003-cü ildə 48 idisə, 2018-ci ildə bu rəqəm 119-a çatmışdır. Hər 100 ailəyə düşən şəxsi avtomobillərin sayı 2003-cü ildə 22 idisə, 2018-ci ildə bu rəqəm 53-ə yüksəlmişdir. Eyni zamanda kompüteri olan ev təsərrüfatlarının bütün ev təsərrüfatlarında xüsusi çəkisi 2005-ci ildə 7,3% idisə, 2010-cu ildə 30,3%, 2015-ci ildə 62,4%, 2018-ci ildə isə 64,1% olmuşdur. Bu nümunələri çoxaltmaq mümkündür və gəlinən nəticə odur ki, 2000-ci illərin əvvəlindən bu tərəfə ölkədə orta təbəqənin miqyası genişlənmişdir. Bu nəticə, yuxarıda təqdim edilən Dünya Bankının tədqiqat nəticələrini də dəstəkləyir.



## STATİSTİKA

2007-2012-ci ild arasında Azərbaycanda ümumi əhali sayında orta təbəqə əhalinin payı təxminən 7 dəfə artaraq, 4,26%-dən 29,0%-ə yüksəlmişdir;

- Orta təbəqənin 43%-i böyük şəhərlərdə, 36%-i kəndlərdə, 21%-i isə kiçik şəhərlərdə və qəsəbələrdə yaşayır;

- Orta təbəqənin 36%-i xidmətlər, 23%-i dövlət idarəetməsi, təhsil və səhiyyə, 15%-i inşaat, 9%-i aqrar, 7%-i emal sənayesi, 7%-i isə kommunal və dağ-mədən sektorlarında çalışır;

Digər tərəfdən, AzSTAT-ın həyata keçirdiyi Ev Təsərrüfatları Büdcələrinin Seçmə Tədqiqatının nəticələrindən istifadə etməklə ölkədə orta təbəqənin miqyası haqqında da müəyyən nəticəyə gəlmək mümkündür. Belə ki, orta təbəqəni "ev təsərrüfatlarında 3-cü və 6-cı gəlir desilləri arasında gəlirə sahib olanlar" kimi qəbul etsək, onda həmin tədqiqatın 2018-ci il nəticələrinə görə bu təbəqə ayda adambaşına 224,9-263,6 manat arası gəliri olan şəxsləri əhatə edəcəkdir. Bu isə 2018-ci ildə ölkədə ev təsərrüfatlarının təxminən 24%-nin, əhalinin isə təxminən 26%-nin orta təbəqəyə aid olması deməkdir.

Hesablamalarımızı bir qədər də dərinləşdirərək, orta təbəqəni onun ədəbiyyatlarda qəbul edilmiş iqtisadi imkanlarına görə müəyyən etməyə çalışdıqda Azərbaycanda orta təbəqə üçün daha yüksək gəlir aralığı təyin etməli oluruq. Çünki hesablamalarımız göstərir ki, hazırda ölkədə 5 nəfərlik tipik bir ailənin orta təbəqədə qala bilməsi üçün (avtomobilindən istifadə etmək, uşaqlarını oxutmaq, restoranlarda yemək yeyə bilmək, ailəvi tətilə gedə bilmək, səhiyyə xidmətlərindən istifadə edə bilmək və s.) aylıq 1500-2500 manat arası, başqa sözlə, aylıq adambaşına 300-500 manat arası gəliri olmalıdır. AzSTAT-ın Ev Təsərrüfatları Büdcələrinin Seçmə Tədqiqatının nəticələri isə 2018-ci ildə ölkədə bu kateqoriyalı əhalinin payının təxminən 24% olduğunu ortaya qoyur.

Şübhəsiz ki, yuxarıda təqdim etdiyimiz hesablamalar ilkin xarakter daşıyır və AzSTAT-ın verdiyi məlumatların təhlilinə əsaslanır. Bu baxımdan hesab edirik ki, ölkədə orta təbəqənin miqyasının daha dəqiq müəyyən edilməsi üçün əhatəli və müstəqil empirik tədqiqatlara böyük ehtiyac vardır.

Beləliklə, yuxarıdakı təhlillər göstərir ki, Azərbaycan müstəqillik illərində iqtisadi inkişaf baxımından mühüm rola malik orta təbəqənin formalaşması istiqamətində əhəmiyyətli nəticələr əldə etmişdir. Eyni zamanda rəsmi statistikaya əsaslanan müxtəlif hesablamaların nəticələri, ölkədə orta təbəqə əhalinin payının hələ 30%-i keçmədiyini göstərir. Bu isə OECD ölkələrindəki müvafiq 2/3-lik payla müqayisədə aşağı rəqəmdir və ölkədə orta təbəqənin inkişafı istiqamətində həyata keçirilən tədbirlərin qarşıdakı illərdə daha da genişləndirilməsinin zəruriliyini ortaya qoyur.

# İCBARİ TİBBİ SIĞORTA

- PERSPEKTİVLƏR
- PRİORİTETLƏR

müəllim, Mirsahib Eminov

Səhiyyə sistemi və onun maliyyələşməsi məsələsi həm dünyada, həm də Azərbaycanda çox aktual bir məsələdir. Dünyada aktual olmasının əsas səbəbi illər etibarilə ÜDM həcmində səhiyyə xərclərinin durmadan artan payıdır. Bunu bir neçə amillə izah etmək mümkündür. Əvvəla, 1960-cı illərdə planetdə doğum zamanı gözlənilən orta ömür müddəti təxminən 51 yaş idi, hal-hazırda planet üzrə həmin göstərici təxminən 73 yaşdır.

60 il ərzində planet əhalisinin orta ömür müddəti 20 yaşa yaxın artmışdır. Digər tərəfdən isə gözlənilən ömür müddətinin son 50 illik müddətdə artması əhali quruluşunu dəyişmişdir. Bu dəyişiklik isə dünya üzrə əhalinin getdikcə yaşlanmağa başladığını göstərir.

Xüsusilə 2000-ci illərin əvvəllərində 60 və daha yuxarı yaş əhali qrupunun toplam əhali strukturunda payı 18,7% ikən, 2025-ci ildə 25,3% olacağı gözlənilir.









Əhalinin getdikcə yaşlanması doğum faizlərinin aşağı düşməsi və orta ömür müddətinin uzanması ilə əlaqədardır. Buradan belə bir nəticə çıxır ki, yaşlı əhalinin nisbi payının artması səhiyyə xdimətlərinə olan tələbi artıracaq və bu da səhiyyə xərclərinin yüksəlməsinə səbəb olacaqdır. Eyni zamanda 60-cı illərdə ABŞ-da səhiyyə xərcləri ÜDM-in tərkib hissəsində təxminən 4%-ə yaxın pay tuturdusa, hal hazırda bu göstərici 18%-ə yaxınlaşır. Bu da onu göstərir ki, 60 il ərzində ABŞ ÜDM-də səhiyyə xərcləri 4 dəfədən çox artmışdır. Bu artım tendensiya davamlı olaraq baş verir. Azərbaycanda səhiyyə xərcləri dünya ortalamasından geridə olsa da, illər etibarilə artmış və hal-hazırda ÜDM-in təxminən 8%-ni əhatə edir.

Səhiyyə xərclərinin artmasına təkan verən digər bir məsələ isə texnoloji yeniliklərdir. 2008-ci ildə iqtisadiyyat sahəsi üzrə Nobel mükafatı laureatı Paul Krugman bunu maraqlı bir tendensiya ilə izah edir: "digər sahələrdə proqres, inkişaf, innovativ yeniliklər həmin sahələrdə xərcləri azaltmağa imkan verir, amma səhiyyə sahəsində baş verən texniki yeniliklər, innovasiyanın bu sahəyə tətbiqi həmin sahədə xərcləri durmadan artırır və bu xərclər artmaqda davam edir, qarşısını almaq mümkün deyil". O zaman biz elə bir maliyyələşmə sistemi tapmalıyıq ki, sistemin xərclərini azaltmağı yox, xərclərin artımını qarşılamağı bacarsın və xidmət təklif edən və bu xidmətlərdən istifadə edən insanlar üçün problem yaratmasın.

Azərbaycanda mövzunun aktuallığı nədən ibarətdir? 1999-cu ildə İcbari Tibbi Sığorta haqqında Azərbaycan Respublikasının Qanunu qəbul edilsə də, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi 2007-ci ildə yaradılmış, 2017-ci ildən etibarən isə Mingəçevir, Yevlax və Ağdaşda (2018) pilot layihə olaraq tətbiqinə başlanılmışdır.

Hal-hazırda mövcud sistem bu cürdür: Səhiyyə Nazirliyi həm xidmət təklif edən, həm də sistemi maliyyələşdirən orqan kimi çıxış edir (dövlət xəstəxanalarında). Baş verəcək dəyişikliklərdən sonra xidmət təklifini verən qurum TƏBİB (Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi), maliyyələşdirən qurum isə İTSDA (İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi) olacaq. Normalda bu qurumlar bir-birindən ayrı olmalıdır. Lakin başlanğıc səviyyədə TƏBİB Agentliyin nəzdində yaradılacaq, növbəti illərdə isə qurumlar bir-birindən ayrılacaq.

Azərbaycanda tətbiq olanacaq sistem özəlliklərinə görə Bismark sisteminə bənzəyir, lakin bəzi fərqli və özünəməxsus xüsusiyyətlərlə səciyyələnir. Belə ki, Azərbaycanda təqdim olunan xidmətlər 2 yerə bölünəcək:

## 1. TƏCİLİ TİBBİ YADIM XİDMƏTİ -

Bu xidmətin təxmini hesablanması 29 manatdır və sırf dövlət büdcəsindən ödəniləcək, bütün vətəndaşlar istisnasız olaraq ondan yararlanacaq. Bu xüsusiyyətinə görə, Azərbaycan tibbi sığorta sistemi sanki, Beveridge modelinə bənzəyir. Bütün şəxslərlə yanaşı, Azərbaycan ərazisində yaşayıb vətəndaşlığı olmayan, yaxud ikili vətəndaşlığı olanlar belə yararlana bilər. Təcili tibbi yardım deyilərkən burada, sadəcə, təcili tibbi yardım avtomobilinin gəlməsi və yardım göstərilməsi deyil, xəstənin xəstəxanaya çatdırılması, xəstəxanada həyati vacib bütün müdaxilələrin olunması, lazımi dərman preparatları, cərrahi müdaxilələr və s. nəzərdə tutulur və bütün bunlar hamısı 29 manatlıq paketin içinə daxil edilərək maliyyələşdirilməsi dövlət büdcəsi hesabına aparılır.

## 2. ƏLAVƏ TƏMİNATLI HİSSƏ -

Əlavə təminatlı hissədən sırf kim siğortalıdırsa, onlar istifadə edə bilər ki, bura toplamda 1829-dan artıq xidmət daxildir. Orqan transplantasiyasına qədər bir çox xəstəliklər buraya daxildir. Yalnız bəzi xəstəliklər var ki, onlar xüsusi dövlət programı ilə qarşılanır. Bunlar onkoloji xəstəliklər, şəkər xəstəlikləri və s-dir. Çünki bunlarla bağlı xüsusi dövlət proqramları var. Bu xəstəliklər istisna olmaqla digər xəstəliklər əlavə təminatlar hissəsinə daxildir. Əlavə təminatlar hissəsindən yararlanmaq üçün də işçilər və işə götürənlər 2% əlavə qatqı etmək məcburiyyətindədirlər - toplam 4%. Bu digər dövlətlərdə, məsələn, Türkiyədə müvafiq olaraq 12,5%, Rusiyada 5,1%, Almaniyada 4,6%, Xorvatiyada 15%, Estoniyada 13% və Litvada 9%. Gördüyümüz kimi, tətbiq edilən sığorta faizləri digər ölkələrə nisbətən daha aşağıdır. Bunun səbəbi Azərbaycandakı orta aylıq əməkhaqqının digər göstərilən ölkələrdən aşağı olmasıdır.

İcbari tibbi sığortanın tətbiqi ilə ödəniləcək sığorta haqlarına nəzər salmış olsaq,

qanuna görə, 2020-ci ilin yanvar ayının 1-dən etibarən mərhələlərə bölünməklə dövlət büdcəsinin vəsaiti hesabına bütün əhali üzrə təqvim ili üçün adambaşına 90 manat icbari tibbi sığorta haqqı ayrılacaq. Dövlət və neft sektorunda çalışan işəgötürən və işçilərdən aylıq hesablanmış əməyin ödənişi fondunun 8000 manata qədər olan hissəsindən 2%, 8000 manatdan yuxarı olan hissəsindən 0,5% miqdarında icbari tibbi sığorta haqqı tutulacaq. Bu isə o deməkdir ki, misal üçün, vətəndaş aylıq olaraq 8500 manat əməkhaqqı alırsa, 8000 manatın 2%-i, qalan 500 manatın isə 0,5%-i miqdarında icbari tibbi sığorta haqqı hesablanacaq. Qeyri-dövlət və qeyri-neft sektorunda çalışan işəgötürən və işçilərdən isə aylıq hesablanmış əməyin ödənişi fondunun 8000 manata qədər olan hissəsindən 1%, 8000 manatdan yuxarı olan hissəsindən 0,5% miqdarında icbari tibbi sığorta haqqı ödəniləcək. 2021-ci ildən etibarən isə sözügedən sektor üzrə işəgötürən və işçilərdən aylıq hesablanmış əməyin ödənişi fondunun 8000 manata qədər olan hissəsindən 2% miqdarında icbari tibbi sığorta haqqının tutulması müəyyən olunub. Mülki-hüquqi xarakterli müqavilələr əsasında işləri (xidmətləri) yerinə yetirən fiziki şəxslər üzrə aylıq gəlirlərinin 8000 manatadək (8000 manat da daxil olmaqla) olan hissəsinin 2%-i, 8000 manatdan yuxarı olan hissəsinin 1%-i miqdarında icbari tibbi sığorta haqqı müəyyən olunub.

Həmçinin sahibkarlıq fəaliyyətinin və ya digər vergi tutulan əməliyyatlarının müvəqqəti dayandırıldığı hallar istisna olmaqla, Vergi Məcəlləsinə əsasən vergi ödəyicisi kimi vergi uçotuna alınmış fiziki şəxslər (fərdi sahibkarlar, xüsusi notariuslar, vəkillər kollegiyasının üzvləri) üzrə minimum aylıq əməkhaqqının 4%-i miqdarında icbari tibbi sığorta haqqı müəyyənləşdirilib. Bundan əlavə, bəzi güzəştli kateqoriyalar var ki, heç bir ödəniş etmədən bundan yararlana biləcək. Bunlar kimlərdir:

- 18 yaşınadək şəxslər;
- 23 yaşınadək peşə təhsili, orta ixtisas təhsili və ya ali təhsil müəssisələrində əyani təhsil alan şəxslər;
- Pensiyaçılar;
- Sosial müavinət almaq hüququna malik olan şəxslər;
- Ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvləri;
- Ərazi poliklinikalarında və qadın məsləhətxanalarında qeydiyyatdan keçmiş hamilə qadınlar, habelə doğuşdan sonrakı 42 gün müddətində qadınlar;
- Əmək Məcəlləsinə əsasən qismən ödənişli sosial məzuniyyətdə olan qadınlar.

Qeyd edək ki, yuxarıda sadalanan bu güzəştlər yalnız Azərbaycan Respublikasının vətəndaşlarına şamil olunur.

İcbari tibbi sığortanın tətbiqi ilə bağlı İTSDA-nın üzləşdiyi bir sıra problemlər proqnozlaşdırıldığı 2020-ci il yanvar ayının 1-dən etibarən bütün ölkə çərçivəsində deyil mərhələli şəkildə tətbiq olunacaqdır:

## - BİRİNCİ MƏRHƏLƏDƏ.

1 yanvar 2020-ci ildən etibarən icbari tibbi sığorta 23 regionda tətbiq olunacaq. Qeyd olunan regionlara Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən, Xızı, Şamaxı, İsmayıllı, Ağsu, Qobustan, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, Göyçay, Ucar, Zərdab, Kürdəmir, Mingəçevir, Ağdaş və Yevlax daxildir. İlkin mərhələdə icbari tibbi sığortanın xidmətlər zərfi çərçivəsində ölkə əhalisinin 23,82 faizinə tibbi xidmət göstəriləcək. Eyni zamanda 1 yanvar 2020-ci ildə Naxçıvan Muxtar Respublikasının ərazisində icbari tibbi sığorta tətbiq ediləcək. Muxtar Respublikada icbari tibbi sığortanın tətbiqini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi həyata keçirəcək.

## - İKİNCİ MƏRHƏLƏDƏ.

1 aprel tarixindən 21 region – Gəncə, Göygöl, Goranboy, Daşkəsən, Samux, Naftalan, Şəmkir, Qazax, Ağstafa, Gədəbəy, Tovuz, Bərdə, Tərtər, Ağdam, Ağcabədi, Füzuli, Beyləqan, Xocavənd, Xocalı, Laçın, Kəlbəcər sözügedən sistemə qoşulacaq. Belə ki, bu regionlarda yaşayan ölkə əhalisinin 24,60 faizi icbari tibbi sığortanın xidmətlər zərfindən yararlanacaq.

## - ÜÇÜNCÜ MƏRHƏLƏDƏ.

1 iyul tarixindən etibarən 15 regionda - Lənkəran, Masallı, Lerik, Yardımlı, Astara, Cəlilabad, Salyan, Neftçala, Biləsuvar, İmişli, Saatlı, Hacıqabul, Şirvan, Sabirabad və Cəbrayılda icbari tibbi sığorta tətbiq olunacaq. Sözügedən regionlarda ölkə əhalisinin 19,53 faizinə icbari tibbi sığortanın xidmətlər zərfi çərçivəsində tibbi xidmət göstəriləcək.

## - DÖRDÜNCÜ MƏRHƏLƏDƏ.

1 oktyabr tarixindən etibarən Bakı, Sumqayıt, Abşeron, Xankəndi, Qubadlı, Zəngilan və Şuşa əhalisi icbari tibbi sığortanın xidmətlər zərfindən istifadə edəcək. Bu isə ölkə əhalisinin 32,05 faizini təşkil edir.



# DÖVLƏT TƏRƏFİNDƏN

infrastruktur layihələri ilə yanaşı, sosialyönümlü layihələrin də inkişafına xüsusi diqqət yetirilir və dövlət büdcəsindən hər il bu istiqamətdə xərclər ayrılır.

i.f.d., dos. Gəray Musayev

# BÜDCƏNİN SOSİALYÖNÜMLÜLÜYÜNÜN

təmin edilməsi qarşıya məqsəd kimi qoyulmuşdur.

2020-ci il










# ÖLKƏ BÜDCƏSİnin

## SOSİALYÖNÜMLÜ MADDƏLƏRİ

Azərbaycan Respublikası dövlət büdcəsinin məqsədi ölkənin iqtisadi, sosial və digər strateji proqramlarının və problemlərinin həlli, dövlətin funksiyalarının həyata keçirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə vəsaitinin toplanmasını və istifadəsini təmin etməkdir. Dövlətin sosial funksiyalarına aid olan təhsil, səhiyyə, idman, mədəniyyət və turizm sahələrinin inkişaf səviyyəsi ölkələrin iqtisadi cəhətdən rəqabətqabiliyyətliliyinin artırılmasına təsir edən ən mühüm amillərdən biridir. Bu baxımdan, dövlət tərəfindən infrastruktur layihələri ilə yanaşı, sosialyönümlü layihələrin də inkişafına xüsusi diqqət yetirilir və dövlət büdcəsindən hər il bu istiqamətdə xərclər ayrılır.

Dövlət büdcəsinin sosialyönümlü xərcləri büdcə xərclərinin iqtisadi təsnifatına uyğun olaraq əməyin ödənişi, pensiya və müavinətlər, dərman, sarğı ləvazimatları və materiallarının, ərzaq məhsullarının alınmasına ayrılan xərclərinin cəmindən ibarətdir. Sosialyönümlü xərclər eyni zamanda müdafiə olunan xərc maddələri hesab edilir və onlara sekvestr tətbiq olunmur.

2020-ci ildə də ənənəvi olaraq, büdcənin sosialyönümlülüyünün təmin edilməsi qarşıya məqsəd kimi qoyulmuşdur. Belə ki, əməyin ödənişi, təqaüdlər və sosial müavinətlər, o cümlədən əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsinin möhkəmləndirilməsi üzrə maliyyə təminatının yaradılması prioritet xərc istiqamətlərindən olacaqdır.

Hər il olduğu kimi 2020-ci ildə də dövlət büdcəsinin sosialyönümlü xərclərində əhəmiyyətli artımlar təmin ediləcəkdir. Belə ki, 2019-cu ilin mart və sentyabr aylarında əməkhaqqılarının, pensiyaların, sosial müavinətlərin və təqaüdlərin artımını nəzərdə tutan 2 mərhələ üzrə sosial paketlər təsdiq olunmuş və hazırda icrası davam etdirilir. Bu zəmində minimum əmək haqqının təxminən 2 dəfə artırılaraq, 130 manatdan 250 manata, eləcə də minimum pensiyaların 72,0% artırılaraq 116 manatdan 200 manata çatdırılması bu sahədə atılmış mühüm addımlardandır. Artımlar eyni zamanda dövlət büdcəsindən maliyyələşdirilən elm, müdafiə, təhlükəsizlik, hüquq-mühafizə, təhsil, səhiyyə, sosial təminat, mədəniyyət, gənclər və idman, kənd təsərrüfatı, meliorasiya və su təsərrüfatı, ətraf mühitin mühafizəsi, hidrometeorologiya, sənaye, tikinti və faydalı qazıntılar, nəqliyyat və rabitə, iqtisadi fəaliyyət sahələrində, habelə dövlət orqanlarında çalışan işçiləri əhatə etmişdir. Bütövlükdə yuxarıda sadalanan artım istiqamətlərinin maliyyə tutumu 2,3 milyard manata bərabər olmaqla 4,2 milyon nəfəri əhatə edəcəkdir. Sosialyönümlü siyasətin prioritetliyi 2020-ci ildə də saxlanılmaqla, bəzi sahələr üzrə əməkhaqlarının artırılması nəzərdə tutulur.

Nəticə etibarilə 2019-cu ildə tətbiq olunmuş və 2020-ci ilə proqnozlaşdırılan artımlar üçün növbəti ilin dövlət və icmal büdcələrində cəm olaraq 4,0 milyard manatadək əlavə vəsait nəzərdə tutulmuşdur. Bütün bunlar nəzərə alınmaqla 2020-ci il üçün dövlət büdcəsinin sosialyönümlü xərcləri 10373,7 milyon manat məbləğində proqnozlaşdırılmışdır ki, bu da 2019-cu illə müqayisədə 2605,8 milyon manat və ya 33,5% çoxdur. Bu xərclərdən əməyin ödənişinə 6721,3 milyon manat (2019-cu illə müqayisədə 1958,5 milyon manat, yəni 41,1% çox və ya dövlət büdcəsi xərclərinin 25,0%-i həcmində), sosial ödənişlərə isə 3192,3 milyon manat (2019-cu illə müqayisədə 827,8 milyon manat, yəni 35,0% çox və ya dövlət büdcəsi xərclərinin 11,9%-i həcmində), ərzaq məhsullarının alınmasına 378,9 milyon manat (dövlət büdcəsi xərclərinin 1,4%-i həcmində), dərman, sarğı ləvazimatları və materiallarının alınmasına isə 81,2 milyon manat (dövlət büdcəsi xərclərinin 0,3%-i həcmində) ayrılması nəzərdə tutulur. Sosialyönümlü xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 38,5% təşkil edəcəkdir ki, bu da 2019-cu illə müqayisədə 7,7 faiz-bənd çoxdur. Ümumilikdə isə son 5 ildə, yəni 2016-cı illə müqayisədə 2020-ci ildə sosialyönümlü xərclər 1,7 dəfə, büdcə xərclərinin tərkibində isə xüsusi çəkisi 3,4 faiz-bənd artmışdır.





böyük elmi işçi,
SALMAN NƏCƏFOV

## REGİONLARIN TARAZLI VƏ DAVAMLI İNKİŞAFI

# NECƏ TƏMİN EDİLMƏLİDİR?

// ÖLKƏ İQTİSADİYYATININ DAYANIQLIĞINI ŞƏRTLƏNDİRƏN ƏSAS AMİLLƏRDƏN BİRİ REGİONLARIN DAYANIQLI VƏ TARAZLI İNKİŞAFIDIR.

Regionların dayanıqlı inkişafı dedikdə regionlarda sosial-iqtisadi inkişafın və ekoloji tarazlığın təmin edilməsi nəzərdə tutulur. Ölkəmizdə regionların sosial-iqtisadi inkişafı məqsədilə müvafiq dövlət proqramları qəbul edilmiş, regionlarda bir sıra infrastruktur və istehsal obyektləri istifadəyə verilmişdir. Bunun nəticəsində 2010-2018-ci illər ərzində regionların ölkə üzrə məhsul buraxılışında xüsusi çəkisi 23%-dən artaraq 27%-ə çatmışdır. Lakin 2015-ci ildən etibarən məhsul buraxılışında reqionlara nisbətən Bakı daha yüksək temp nümayiş etdirib. Belə ki, 2015-2018-ci illər ərzində məhsul buraxılışında regionların xüsusi çəkisi 30%-dən 27-dək azalmışdır. Əhalinin gəlir səviyyəsinə gəldikdə bu göstərici regionlarda Bakı ilə müqayisədə hələki aşağıdır (diaqram 1).

Bunun səbəbi bəzi regionlarda məhsul buraxılışının artmaması və ya onun artım tempinin aşağı olmasıdır. Belə ki, 2018-ci ildə Bakı istisna olmaqla 10 iqtisadi rayondan 3-də (Gəncə-Qazax, Lənkəran və Yuxarı Qarabağ iqtisadi rayonları) məhsul buraxılışı artmamışdır (diaqram 2), Kəlbəcər-Laçın iqtisadi rayonunda 2,2%, Naxçıvanda isə 1,5% artmışdır. Beləliklə, 2018-ci ildə regionlarda buraxılışın zəif artımı müşahidə olunmuşdur.

Regionların sosial-iqtisadi inkişafını təmin etmək məqsədilə, ilk növbədə, regionlarda investisiya fəallığının daha da artırılmasına nail olunmalıdır. 2018-ci ildə statistikaya əsasən, 3 rayonda (Gəncə-Qazax, Lənkəran və Yuxarı Qarabağ iqtisadi rayonu) investisiya qoyuluşları azalmış (diaqram 3), 2-də isə (Naxçıvan və Aran) 1% civarında artmışdır. Buradan investisiya qoyuluşları ilə regionların iqtisadi artımı arasında korrelyasiya əlaqəsi aydın görünür.

Vəziyyətə təsir göstərən əsas amillərdən biri regionlarda kreditlər üzrə faiz dərəcəsinin yüksək olmasıdır (diaqram 4). Belə ki, Bakıda kreditlər üzrə faiz dərəcəsi 10% olduğu halda, bəzi regionlarda 20%-dən yüksəkdir, bu da regionlarda iqtisadi fəallığa mənfi təsir edir.







## DİAQRAM 1. İQTİSADİ RAYONLAR ÜZRƏ BİR NƏFƏRƏ DÜŞƏN GƏLİR, MANAT, 2017-ci İL




## DİAQRAM 2. MƏHSUL BURAXILIŞININ ARTIM TEMPİ ÜZRƏ İQTİSADİ RAYONLARIN SAYI (Bakı istisna olmaqla)



■ məhsul buraxılışı artan iqtisadi rayonların sayı

## DİAQRAM 3. İNVESTİSİYA QOYULUŞLARININ ARTIM TEMPİ ÜZRƏ İQTİSADİ RAYONLARIN SAYI (Bakı istisna olmaqla)



■ investisiya qoyuluşları artan iqtisadi rayonların sayı

## DİAQRAM 4. ÖLKƏ REGİONLARINDA KREDİTLƏR ÜZRƏ FAİZ DƏRƏCƏSİ, %




Regionlarda iqtisadi fəallığı gücləndirmək üçün, ilk növbədə, kreditlərin real sektor üçün əlçatanlığı təmin olunmalıdır. Bunun üçün kreditlər üzrə faiz dərəcəsinin regionlarda mənfəət normasına qədər azaldılması təmin edilməlidir. Buna nail olmaq üçün Mərkəzi Bank tərəfindən kredit emissiyası həyata keçirilməli, yəni regionlarda real sektora kredit ayıran banklara mənfəət normasından 3-4 faiz bəndi aşağı faizlə kreditlərin verilməsi təmin edilməlidir. Eyni zamanda banklara ayrılan vəsaitlərin valyuta bazarına axınının qarşısının alınması üçün bankların valyuta əməliyyatlarına Toynbi vergisinin tədbiqi zəruridir.

Regionlarda investisiya fəallığı dünya təcrübəsində geniş istifadə olunan sürətli amortizasiya metodları vasitəsilə də artırıla bilər. Hal-hazırda ölkədə maşınlar və avadanlıq üçün amortizasiya norması 20%-dək nəzərdə tutulub. Regionlarda, ilk növbədə, investisiya qoyuluşları azalan regionlarda investisiyaların artırılması üçün yerli əhəmiyyətli sahələrdə amortizasiya normalarının maksimum həddinin artırılması məqsədəuyğundur.

Beləliklə, regionların sosial-iqtisadi inkişafını təmin etmək üçün regionlarda investisiya fəallığı daha da artmalıdır. Buna aşağıdakı tədbirlərlə nail olmaq olar:

- kreditlər üzrə faiz dərəcəsinin regionda mənfəət normasına qədər azaldılması və bu məqsədlə Mərkəzi Bank tərəfindən regionlarda real sektora kredit ayıran banklara mənfəət normasından aşağı faizlə kreditlərin verilməsi;
- banklara ayrılan vəsaitlərin valyuta bazarına axınının qarşısının alınması üçün bankların valyuta əməliyyatlarının vergiyə cəlb olunması;
- regionlarda sürətli amortizasiya metodlarının tədbiqi.

# SOSİALYÖNÜMLÜ

## BAZAR İQTİSADİYYATI VƏ EKOLOJİ TARAZLIQ: PROBLEMLƏR VƏ HƏLLƏR

c.e.n., dos. Rövşən Həsənov

Sosialyönümlü bazar iqtisadiyyatından danışarkən alternativ dəyər haqqında anlayışı dərk etmək vacibdir. Alternativ dəyər eyni təbii ehtiyatın müxtəlif məqsədlərlə istifadəsindən alınan gəlirdir. Praktikada bu qiymətləndirmə üsulunun məqsədi həmin təbii ehtiyatın əvəz edilməsinin tapılmasıdır.

Fərqli səciyyəli təsərrüfat sahəsi: natural təsərrüfat və əmtəə təsərrüfat sahəsi bir-birindən fərqlənir. Bunların hər ikisində maddi nemətlər istehsalı prosesi baş verir. Hər ikisində məhsul insanın bu və ya digər tələbatını ödəmək məqsədilə istehsal olunur. Lakin o, istehlaka müxtəlif formalarda daxil olur. Bu zaman inkişaf etməkdə olan ölkələrdə bazar iqtisadiyyatının ziddiyyətləri ortaya çıxır. Məlum olduğu kimi, əmtəənin dəyəri ona sərf olunan əməklə müəyyən edilir. Bazarda isə məhsulun dəyəri tələb və təkliflə müəyyən edilir. Nəticədə bazar iqtisadiyyatının tənzimlənməsində sosialyönümlü problemlər ortaya çıxır və bu monopoliyanı aktivləşdirir.

Sosialyönümlü bazar iqtisadiyyatının idarəçilik strukturunu pozan əsas arqument nataraz urbanizasiyadır. Belə ki, inkişaf etmiş ölkələrdə urbanizasiya prosesi sənayeləşmə ilə qovuşmuşdur. Yəni sənaye urbanizasiyanı doğurmuşdur. İnkişaf etməkdə olan və ya az inkişaf edən ölkələrdə isə bunun əksinə, sənayeləşmədən daha sürətli urbanizasiya prosesi sezilir. Birinci qrup ölkələrdə, yəni, urbanizasiyanın sənayeləşmənin nəticəsi olduğu ölkələrdə cərəyan edən urbanizasiya prosesi tarazlı, ikinci qrupdakı urbanizasiya isə nataraz urbanizasiya adlanır. Bütün sosial problemlər nataraz urbanizasiyadan doğur. Nataraz urbanizasiya zamanı böyük şəhərlər orta və kiçik şəhərlərə nisbətən daha sürətlə böyüyür və burada regional bərabərsizlik hökm sürür. Əhali artımı ilə sosial problemlər düz mütənasibdir. Şəhər infrastrukturunun səviyyəsi çox aşağı olduqda xidmətlər tam yerinə yetirilə və tələbat tam ödənilə bilmir. Xüsusilə artan əhalinin mənzillə təmin edilə bilməməsi qanunsuz yaşayış evlərinin tikilmə prosesini sürətləndirir.

Nəqliyyat infrastrukturunun yetərsizliyi də böyük problem yaradır. Bu ölkələrdə urbanizasiyanın sənayeləşmədən daha sürətli olması nəticəsində yaranan artıq işçi qüvvəsinin işlə təmin edilə bilinməməsi onların ətraf ərazilərdə yayılmasına səbəb olur ki, bu da iqtisadi rifaha xidmət etmir. Nataraz urbanizasiyanın ortaya çıxardığı iqtisadi problemlər özünü daha çox işsizlik və işsizlərin ictimai sektorda cəmləşməsi, sektorlararası bərabərsizlik, infrastruktur xidmətlərinin keyfiyyətsizliyi, qanunsuz yaşayış məskənlərinin sürətli artımı şəklində büruzə verir. Bu isə qlobal sosial problemlər yaradır. İctimai problemlərə gəldikdə isə ətraf mühitin çirklənməsi, fiziki plansızlıq və plansız məskunlaşma, gəlirlərin ədalətsiz bölüşdürülməsi, ictimai sinifləşmənin artması, mədəni fərqliləşmə və mədəniyyət boşluğu ilə nəticələnir. Yer üzərində əhalinin artması, elmi-texniki tərəqqi, ölkələr arasındakı iqtisadi fərqlənmə ekoloji böhranın dərinləşməsinə gətirib çıxarır: təbii biotalar dağılır, bioloji müxtəliflik azalır, ekosistem deqradasiyaya uğrayır, biosferin tükənən və tükənməyən resurslarının istifadəsi artır. Bu zaman bioloji növ kimi insanın həyat fəaliyyəti onun müəyyən miqdarda qəbul etdiyi qida məhsulundan aldığı enerjidən asılı olub, iş qabiliyyəti və ömrünün uzunluğu ilə səciyyələnir. Sutka ərzində qəbul etdiyi enerjinin miqdarına görə mütəxəssislər insanın 3 həyat fəaliyyəti səviyyəsini ayırır: 3500-2500 kkal - optimal, 2500-1500 kkal-qeyri-kafi (kifayət qədər olmayan), 1500-1000 kkal - böhranlı.

### // İNSANIN HƏYAT FƏALİYYƏTİNİN ENERJİDƏN ASILILIĞI




**Sutka ərzində qəbul etdiyi enerjinin miqdarına görə mütəxəssislər insanın 3 həyat fəaliyyəti səviyyəsini ayırır:**

3500-2500 kkal - optimal, 2500-1500 kkal - qeyri-kafi (kifayət qədər olmayan), 1500-1000 kkal - böhranlı.

Sutka ərzində orta hesabla 1000 kkal-dan az enerji sərf edən insanlar 35-60 il, 1500-2000 kkal qəbul edənlər isə 75-80 il yaşayır.





## KƏND ƏHALİSİNİN ŞƏHƏRLƏRƏ MİQRASİYASINI DAYANDIRMAQ ÜÇÜN KƏND TƏSƏRRÜFATINDA SƏNAYELƏŞMƏ GÜCLƏNDİRİLİR

Sutka ərzində orta hesabla 1000 kkal-dan az enerji sərf edən insanlar 35-60 il, 1500-2000 kkal qəbul edənlər isə 75-80 il yaşayır.

Bazar iqtisadiyyatına əsaslanan siyasət urbanizasiyanın sürətini tələb və təklif qanununa görə tənzimləyir. Bəzi ölkələr kəndlərin inkişafını təmin etməklə torpaq islahatları, kənd təsərrüfatı islahatları aparmaqla kəndlinin kənddə qalmasını təmin edən siyasət tətbiq edir. Kənd əhalisinin şəhərlərə miqrasiyasını dayandırmaq üçün kənd təsərrüfatında sənayeləşmə gücləndirilir, çox işçi qüvvəsi tələb edən sənaye obyektləri kənd ərazilərində yerləşdirilir. İxtisaslaşdırılmış təsərrüfat sahələri yaradaraq maddi maraq prinsipi tətbiq etməklə iqtisadiyyatın tənzimlənməsi önə çəkilməlidir.

İstehsalçı və istehlakçı arasında azad rəqabət şəraitində formalaşan sosialyönümlü bazar iqtisadiyyatının davamlı inkişafını təmin etmək və sosial problemlərin aradan qaldırılması məqsədilə tərəfimizdən tədqiq edilən “kənd təsərrüfatında maddi maraq prinsipinin tədqiqi” haqqında söylənilən fikirlər diqqəti cəlb etməyə bilməz.

Bazar iqtisadiyyatı şəraitində əmtəənin dəyəri ona sərf edilən əməklə düz, məhsulun həcmi ilə tərs mütənasibdir. Əmtəənin dəyəri ona sərf edilən əməklə müəyyən edildiyi üçün çox və səmərəli əmək sərf etməklə bol məhsul əldə edilir, bol məhsul isə bazarda əmtəənin dəyərini aşağı salır. Bu iqtisadi tənzimləmədən irəli gələrək istehsalçılar bazarın tələbinə uyğun olaraq bazara məhsul çıxarır. İnkişaf etmiş ölkələrdə əmtəə istehsalçıları hal-hazırda bazar iqtisadiyyatı şəraitində, inkişaf etməkdə olan ölkələrdəki kimi bazara bacardığı qədər məhsul çıxarmır, əsasən, zəmanətli satışa əmin olduqda onu istehsal edir.

İnkişaf etməkdə olan ölkələrdə sosialyönümlü bazar iqtisadiyyatının tələbinə uyğun olaraq, əhalinin sosial tələblərini ödəmək məqsədilə, dövlət istehsalçıların bacardığı qədər məhsul istehsal etməsinə və bazara çıxarılmasında maraqlıdır.

Dövlət iqtisadiyyatın inkişafı və bazarda monopoliyanın qarşısını almaq, xüsusi təsərrüfat sahələrinin yaradılması və inkişafı məqsədilə ixtisaslaşmış təsərrüfat sahələrinə kredit formasında maliyyə yardımı etməklə məhsulun alıcısı (istehlakçısı) kimi çıxış etməlidir. Məhsul bolluğuna nail olmaq üçün müqavilə əsasında məhsulun miqdarından və keyfiyyətindən asılı olaraq istehlakçı ilə istehsalçı arasında müqavilə bağlanmalıdır. Əmtəənin dəyəri maddi maraq prinsipinə:

- torpaqların məhsuldarlıq qabiliyyətinə görə;
- konkret zaman və məkanda bazarda məhsulun dəyərinə görə;
- məhsulun miqdarına və keyfiyyətinə görə;
- ildə 2-3 dəfə məhsul verən torpaqların hər hektarından məhsuldarlıq qabiliyyətindən 30%-dən çox götürülən məhsulun dəyərinə görə bazar qiymətinə ekvivalent və yaxud 10%-dən çox vəsait ödənilir.
- 60% məhsuldarlıq qabiliyyətinə malik olan torpaqların hər hektarından 20-30%-dən çox götürülən məhsulun dəyərinə görə bazar qiymətinə ekvivalent 20%-dən çox vəsait ödənilir;
- Qeyri-məhsuldar torpaqların hər hektarından 20-30%-dən çox götürülən məhsulun dəyərinə görə bazar qiymətinə ekvivalent 30%-dən çox vəsait ödənilir.

Məhsuldarlıq qabiliyyətinə görə əldə edilən gəlir elə tənzimlənməlidir ki, istehsalçıya dəyən zərərin ən azı 80%-ni ödəmək qabiliyyətinə malik olsun.

Müqavilə şərtləri ilə əldə olunan məhsul dövlət strukturları tərəfindən sosial-yönümlü bazar iqtisadiyyatını tənzimləmək məqsədilə bazar iqtisadiyyatına keçid dövründə yarmarkalar təşkil etməklə, qiymətin tənzimlənməsində və monopoliyaların qarşısını almaqda mühüm rol oynaya bilər. Bu təcrübəni iqtisadiyyatın bütün sahələrinə tətbiq etmək mümkündür.

URBANİZASİYA PROSESİ...//

**Sosialyönümlü bazar iqtisadiyyatının idarəçilik strukturunu pozan əsas arqument nataraz urbanizasiyadır.**

Belə ki, inkişaf etmiş ölkələrdə urbanizasiya prosesi sənayeləşmə ilə qovuşmuşdur. Yəni sənaye urbanizasiyanı doğurmuşdur. İnkişaf etməkdə olan və ya az inkişaf edən ölkələrdə isə bunun əksinə, sənayeləşmədən daha sürətli urbanizasiya prosesi sezilir.



# Özünü məşğulluq

## proqramı sosial inkişafa hansı töhfələr verir?

elmi işçi, Arzu Səfərova



Özünüməşğulluq işsizlərin cəmiyyətin sosial strukturuna daxil edilməsi, onlara xüsusi şəraitdə - özünütəşkil şəraitində işləmək imkanı verir. Eyni zamanda bu cəmiyyətlə insan arasında sosial qarşılıqlı təsir mexanizmidir.

Aztəminatlı ailələrin biznes bacarıqlarını yoxlamaqda fürsət axtaran gənclərin sosial rifahını yüksəltmək məqsədilə sosial siyasət sahəsində özünüməşğulluq tədbirlərinə xüsusi yer ayrılır. Ölkəmizin Birləşmiş Millətlər Təşkilatının üzvü olan dövlətlərin 2015-ci ildə keçirilən Dayanıqlı İnkişaf Sammitində 2016–2030-cu illər üçün təsdiqlənmiş Dayanıqlı İnkişaf Məqsədlərindən birində "İnklüziv və dayanıqlı iqtisadi artımı, hamı üçün məşğulluğu və layiqli əməyi təşviq etmək"dir. Bu və digər məqsədlərə dəstək olaraq, cənab Prezident İlham Əliyevin 7 aprel 2016-cı il tarixli "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Sərəncamına əsasən özünüməşğulluq proqramı həyata keçirilir. Bu proqram çərçivəsində fərdi təsərrüfatların təməlini qoymaq və ya inkişaf etdirmək arzusunda olanlar üçün dövlət vəsaiti hesabına ailəyə birbaşa natura şəklində mal, material və digər əmlakın verilməsi ilə dəstək göstərilir. Bu cür özünüməşğulluq proqramı bir çox ölkələrdə yer alıb, lakın digər ölkələrdən fərqli olaraq bizim respublikamızda ilkin istehsal və ya xidmət avadanlıqları aktiv kimi dövlət tərəfindən verilir.

Sosial inkişaf töhfə dedikdə biz nəyi nəzərdə tuturuq? Onu da qeyd edək ki, sosial inkişaf əhalinin müxtəlif qruplarının və ayrı-ayrı şəxslərin müxtəlif ehtiyaclarını (maddi, intellektual, mənəvi və s.) ödəmək qabiliyyətini artırmaq deməkdir. Sosial inkişaf, məsələn, yoxsulluğun aradan qaldırılması, yeni iş yerlərinin yaradılması, kooperativlərlə əlaqəli məsələlər, bir insanın qocalma prosesi, gənclik, ailə, sosial daxilolma, əlillik, vətəndaş cəmiyyəti v s. kimi məsələləri əhatə edir.

Özünüməşğulluq proqramı sosial inkişafa birbaşa və dolayı töhfələr verə bilər. Birbaşa töhfələr dedikdə ailə büdcəsinin dayanıqlı gəlir mənbələri hesabına formalaşması, mikro və kiçik sahibkarlığın inkişafı, yeni iş yerlərinin yaradılması və işsizlik, yoxsulluq səviyyələrinin azaldılması, iqtisadiyyatda inklü-zivliyin artması məsələləri başa düşülə bilər. Dolayı töhfələr isə kiçik sahibkarların ölkənin iqtisadi təhlükəsizliyinə birbaşa təhdidlər yaradan kölgə iqtisadiyyatından yan keçməsi və vergi daxilolmalarında iştirak etməsi, nəticədə dövlət büdcəsinin artmasıdır. Bütün bunlar büdcədən təhsilə, səhiyyəyə, sosial fondlara və s. sosialyönümlu istiqamətlərə əlavə ayırmaların artması deməkdir. İşsizlikdən sığorta fondunun və digər sosial fondların ünvanlı sosial yardım və işsizliyə görə sosial müavinətlərin verilməsi əvəzinə özünüməşğulluq proqramına ayrılması – vəsaitlərin xərclənməsində səmərəliliyin artırılması deməkdir. Belə ki, 2019-cu il üzrə işsizlikdən sığorta fondunun büdcə xərclərinin 57%-i özünüməşğulluğa yönəldilib. Bununla yanaşı, bir neçə onillik ərzində özünüməşğulluq fəaliyyətini uğurla tənzimləyən ölkələrin təcrübəsi göstərir ki, özünüməşğulluğun inkişafı birbaşa vergi daxilolmalarında ciddi artım gətirməsə də, işsizliyin azaldılmasına, əmək bazarının çevikliyinin artırılmasına və sosial-iqtisadi inkişafa köməklik göstərir.

"Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"ndə müəyyən edilmiş strateji yanaşmaya görə 2020-ci ilədək olan müddətdə kiçik və orta sahibkarlığın ÜDM-də payının 15 faizə çatdırılması, onun məşğulluqda payının 20 faizə qədər artırılması, ölkənin qeyri-neft ixracında isə payının 10 faizə çatdırılması proqnozlaşdırılıb.

> **AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ CƏNAB İLHAM ƏLİYEVİN 7 APREL 2016-CI İL TARIXLİ "ƏHALİNİN ÖZÜNÜMƏŞĞULLUĞUNUN TƏMİN OLUNMASI SAHƏSİNDƏ ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA" SƏRƏNCAMINA ƏSASƏN ÖZÜNÜMƏŞĞULLUQ PROQRAMI HƏYATA KEÇİRİLİR.**





**FAKT** Ünvanlı sosial yardım alan ailələrin təxminən 40 faizi əmək qabiliyyətli insanlardır.

Özünüməşğulluq proqramı bu proqnozun reallaşmasına, yəni ölkədə kiçik biznesin inkişafı hədəfinə çatmağa dəstək olacaqdır. Kiçik sahibkarlıqda inkişaf gənclərin peşə təhsili almaqlarına həvəs yarada bilər. Qeyd edək ki, Azərbaycan Dövlət Statistika Komitəsinin saytından əldə olunan məlumata görə, ümümi orta təhsili bitirib attestat alanların sayı 2018-2019-cu tədris ili üçün 102455 nəfər təşkil edir. Həmin ildə peşə təhsili almaq arzusunu gerçəkləşdirənlərin sayı cəmi 17393, orta ixtisas təhsili üzrə isə sayı 17963 nəfər təşkil edir. Onların içərisində tək ümumi orta təhsili bitirən yox, həm də tam orta təhsili bitirənlər də vardır. Belə qənaətə gəlmək olar ki, orta təhsili səviyyəsini bitirmiş məzunların 65%-dən çoxu gələcəyin potensial sosial yardım alanları və yaxud da ixtisassız işçilərdir. Bu proqram orta ümumi təhsili bitirənlərə stimul və tələb yaradacaq, çünki artıq onlar təhsillərini bitirdikdən sonra peşəsindən faydala-na və sərbəstlik qazana biləcəklər. Belə ki, özünüməşğulluq proqramı insan kapitalının inkişafına əsas investisiya mənbəyinə çevrilə bilər.

Bundan başqa, özünüməşğulluq sisteminin tətbiqi işsizliyin aradan qaldırılmasında böyük rola malikdir. Xüsusilə də bu proqram vasitəsilə əhalinin həssas qruplarının, yəni övladlarını tək böyüdən valideynlər, pensiya yaşına az qalmış insanlar, əlillər, şəhid ailələri, sağlamlıq imkanları məhdud şəxslər və s. sosial inteqrasiyasının inkişafına gətirib çıxaran proses baş tuta bilər. Belə ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyin məlumatlarına görə, 2018-ci ildə öz biznes planını müdafiə edən 7200 nəfərdən 1000-i əlilliyi olan şəxslər, 1000-dən çoxu isə məcburi köçkünlərdir: eyni zamanda 100-dən çox şəhid ailəsi aktivlərini alıb, 59 nəfər şəhid ailəsi isə növbədədir. Proqram çərçivəsində iştirak edən gənclərin sayı 1200-1300 nəfərdir, xanımlar isə 1000 nəfərə yaxındır. Gənc sahibkarlara verilən aktivlərdən başqa, onlara təlimlərin keçirilməsi başlanğıc dövr üçün maliyyələşdirmə və hesabat, hüquqi və inzibati məsələlərin həlli və s. kimi çətinlikləri aradan qaldırımağa kömək edə, bu isə öz növbəsində dayanıqlı fəaliyyətə şərait yarada bilər.



Bu proqram kənd təsərrüfatı və heyvandarlıqla (2018-ci ildə özünüməşğulluq proqramına müraciət edənlərin 85%-i heyvandarlıqla məşğul olmaq üçün müraciət edib) məşğul olmaq arzusunda olan, lakin lazımi vəsaitləri əldə edə bilməyən vətəndaşları regionlardan iş dalınca paytaxta və ya qonşu ölkələrə üz tutmaq fikrindən yayındıracaq və kənd təsərrüfatını inkişaf etdirəcək. Bu isə demoqrafik göstəriciləri yaxşılaşdıracaqdır.

Bu gün ölkəmizdə ünvanlı sosial yardım alan bir çox ailələrin təxminən 40 faizi əmək qabiliyyətli insanlardır. Bu insanların özünüməşğulluq proqramına tam şəkildə cəlb olunması sosial inkişafda əsaslı dönüş yarada bilər. Özünüməşğulluq proqramının ən əsas tərkib hissələrindən biri hesab edilən ünvanlı sosial yardımın xüsusən mərhələli şəkildə dəyişdirilməsi məhz birbaşa iş yerlərinin açılmasına və yaradılmasına hesablanıb. Təbii ki, bu heç də nəzərdə tutulan ünvanlı sosial yardımın tamamilə dayandırılması anlamına gəlmir. Burada sadəcə olaraq prosesin düzgün şəkildə



qurulmasına böyük ehtiyac var və ünvanlı sosial yardım alan vətəndaşımız bu proqramdan birbaşa faydalana bilsinlər. Özünüməşğulluq proqramı imkan verir ki, əsasən büdcədən asılılıq aradan qaldırılsın, hər bir vətəndaş ayrılan büdcə vəsaiti hesabına ailəsinə və özünə bir iş qura bilsin. Sonunda nəticə etibarilə həm sahibkarların ümumi sayı artır, həm də birbaşa ünvanlı sosial yardım alan vətəndaşın sahibkara, iş adamına çevrilməsinə şərait yaranır. Bu zaman vətəndaş sahibkar olaraq özünü təmin etməklə yanaşı, eyni zamanda yeni iş yerlərinin açılmasına və yaradılmasına səbəb olur. Məhz buna görə də özünüməşğulluq proqramı çərçivəsində yoxsulluq həddində yaşayan və birbaşa ünvanlı sosial yardım alan bütün vətəndaşların sahibkarlıq təsərrüfatlarının dəstəklənməsi olduqca vacib hesab edilir.



# SOSİAL TƏDQİQATLAR

## ANALİZ VƏ PROQNOZLAŞDIRMADA YENİ METODLAR

i.e.n., dos. Murad Bağırzadə

Müasir sosial tədqiqatların siması xeyli dəyişmişdir və sürətlə dəyişməkdə davam edir. Ümumiyyətlə, sosial tədqiqat anlayışı özündə bir çox ictimai-humanitar elmlərin akademik və empirik araşdırma komplekslərini birləşdirir və hazırda belə tədqiqatların dünya mənzərəsi olduqca rənga rəng və daima inkişafda olan bir mürəkkəb və ziddiyyətli proses kimi təsəvvür edilir.

Rəqəmsal texnoloji inqilab nəticəsində yeni sosial tədqiqat sahələri və yeni tədqiqat metodları meydana gəlmişdir Bizim araşdırmada yeni sosial tədqiqat metodları dedikdə hər üç hal: ənənəvi metodların rəqəmsallaşması, yeni tədqiqat obyektləri və mühitlə bağlı innovativ metodlar, və nəhayət, tamamilə yeni fenomen kimi qarşılanan kreativ (yaradıcı) sosial tədqiqat metodlarından bəhs edilir.

### SOSİAL TƏDQİQAT METODLARI: QISA TARİXÇƏ

Mövzu olduqca geniş və çoxsaylı əlaqəli məsələləri əhatə etdiyindən yazıda yalnız əsas məqamların işıqlandırılmasına yer verilmişdir. Bəzi yeni tədqiqat anlayışların qısa tərifi ilə məhdudlaşmaq, digər hallarda xüsusi tədqiqat predmeti kimi əsaslı ekspert qiymətləndirməsini təxirə salmaq məcburiyyəti yaranmışdır.

Qeyd edək ki, bu sahədə əsas proses kimi (mainstream) sosial elmlərin tədqiqat obyektlərinin və predmetinin yeniləşməsinə səbəb olan ötən əsrin sonu və bu əsrin ilk onilliyində baş verən sosial-iqtisadi, siyasi-ictimai, elmi-texnoloji və mədəni münasibətlərdəki dəyişikliklər olmuşdur: qloballaşma, "NBİK" texnoloji inqilab, dünya media məkanının yaranması, inkişafın sürətlənməsi və insanların, birlik və təşkilatların fəaliyyətinin əhəmiyyətli hissəsinin virtual məkana daşınması olmuşdur. 2010-cu ildə dünya əhalisinin 68% – 4 mlrd. insan mobil telefona abunəçi olmuşdur. Həmin ildə İnternet istifadəçilərin sayı 1,8 mlrd. (26,6%) olduğu halda, artıq 2016-cı ildə bu rəqəm 3,9 mlrda. (dünya əhalisiniin 49,5%) çatmışdır. Maraqlı budur ki, onların

**CƏDVƏL 1.** SOSİAL TƏDQİQAT METODLARININ NÖVLƏRİ

| KƏMİYYƏT METODLARI | KEYFİYYƏT METODLARI | QARIŞIQ (MİKS) METODLAR |
|---|---|---|
| Müsahibə metodu | Arxiv araşdırması | Delfi metodu (ekspert sorğusu) |
| Anket sorğusu | Struktursuz (dərin) müsahibə | Ladder müsahibəsi |
| Marketinq kəmiyyət araşdırması | Nümunə halın təhlili (Case study) | Q metodologiyası |
| Lonqitüd (təkrar ölçmə) metodu | Content (mətn/məzmun) analizi | Repertuar şəbəkə metodu |
| Struktur tənlik modelləşdirməsi | Etnoqrafik metod | Trianqulyasiya üsulu |
| Asılılıqların təhlili | Fokus qrup | |
| Çoxölçülü statistika və klaster analizi | Tarixi (bioqrafik) metod | |
| Sosial şəbəkə analizi | İştirak zamanı müşahidə | |

Mənbə: Alan Bryman, Social Research Methods, Fourth edition 2012, 809 pp.

İnternetdə əvvəlki qısa zaman ərzində sadə axtarış və mesaj mübadiləsi ilə məhdudlaşması əvəzində hal-hazırda davamlı olaraq müxtəlif sosial fəallıq xarakterli davranışları kütləvi hala çevrilmişdir (e-ticarət və xidmətlər, reklam və asudə vaxtın keçirilməsi, çoxtərəfli kiber-oyunlar, şəbəkə birliklərin yaradılması və fəaliyyət göstərməsi, freelance yönlü peşəkar fəaliyyət və digər məşğulluq növləri və s.).

İnsanların ənənəvi həyat tərzində baş verən ciddi dəyişikliklər (stress-həyat, mobillik, miqrasiya, sosial institut kimi ailə, təhsil, ekologiya, media və s. problemləri) sosial tədqiqatların predmeti və bunun ardınca metodlarında dəyişikliklərə səbəb olmuşdular.

Beləliklə, sosial tədqiqat metodlarının yeniləşməsinə məhz bu kontekstdə baxılır. Bundan başqa, rəqəmsallaşma prosesi humanitar və dəqiq elmlərin inteqrasiyası, habelə çoxsaylı fənlərarası tədqiqiat sahələrin yaranmasını da nəzərə alsaq, yeni tədqiqat metodlarının mənbələri və təyinatını anlamaq daha asan olar.

### SOSİAL TƏDQİQAT METODLARININ TƏYİNATI.

Daha sistematik halda bu metodları məhz sosiologiyada tədqiq etməyə başlamışdılar ki, bu elm ictimai həyatın ayrı-ayrı faktlar və proseslərin əlaqəsiz müşahidələr və fərziyyəli izahatlardan cəmiyyət və insanların sosial fəaliyyəti haqqında ciddi əsaslı elmə çevrilmişdir. Bu səbəbdən sosioloji tədqiqatları sosial tədqiqatlardan fərqləndirirlər. Sonuncularda sosioloji yanaşma digər sosial elmlərdə (tarix və arxeologiya, etnoqrafiya və antropologiya, psixologiya və pedaqogika, iqtisadiyyat və politologiya, kulturologiya və linqvistika, jurnalistika və KİV nəzəriyyəsi və s.) həmin elmlərin nəzəri-

konseptual və metodoloji bazasında tətbiq edilir. XIX əsrin ortalarından başlayaraq kəmiyyət metodlarına əsaslanan pozitivist sosiologiyanın baniləri O.Kont (1798–1857) və V.Dürkheym (1858–1917) cəmiyyəti və onun problemlərini müşahidə və ölçülə bilən faktlar əsasında öyrənməyi təklif etmişdilər. M.Veber bu meyilləri daha da geniş tərzdə ("anlayan sosiologiya") əsaslandırmış və sonrakı 100 il kəmiyyət metodlarının təntənəsi dövrü kimi tanınmışdır. Klassik sosial tədqiqat metodları kimi (müşahidə, seçmə üsulu, ilkin məlumatların sistematik toplanması və emalı, modelləşdirmə və sosial eksperiment), kibernetika və informasiya texnologiyalarının inkişafı nəticəsində daha etibarlı və effektiv müasir tədqiqat metodlarına çevrilmişdilər. Müasir anlamda sosial elmlərdə tədqiqat metodu deyəndə, onu bütöv tədqiqat kompleksi (infrastrukturu) kimi qəbul edirlər: yanaşma – metod – tətbiqi metodika – metodik alətlər. Yeni (rəqəmsal, innovativ, kreativ) metodlar, demək olar ki, bu və digər dərəcədə metodoloji kompleksin bütün elementlərinə aid olunur.

### CƏDVƏL 2. ISSRM (INNOVATIONS IN SOCIAL SCIENCE RESEARCH METHODS) – SOSİAL TƏDQİATLARDA İNNOVASİYA VƏ YARADICILIQ NÜMUNƏLƏRİ

| Metodologiya elementi | Vasitənin orijinal adı | Elmi sahə | Tədqiqat növü | Ölkə | Status | İnnovasiya |
|---|---|---|---|---|---|---|
| Yanaşma | Genetically Transmitted Political & Value Orientations | Politologiya | QN | USA | Ac | CB |
| | Netnography | Menecment | MX | Kanada | Ac | CB/TI |
| | Research-based Drama | Psixologiya | QL | Kanada | Ac/Pr | INTRA |
| | Journalism as Research & Reporting | Jurnalistika | MX | Avstraliya | Ac/Pr | CB |
| Metodologiya | Folkbiology | | MX | ABŞ | Ac | CB |
| | Kinship Algebra Expert System (KAES) | Antropologiya | QN | | Ac | CB/TI |
| | Intuitive Inquiry | Psixologiya | | ABŞ | Ac/Pr | |
| | Situational Analysis | Sosiologiya | QL | | Ac | |
| | Water Cooler Logic | | | | Pr | CB |
| | Ethnography as a Non-linear Dyn System | Ethnography | MX | ABŞ | Ac/Pr | |
| | Institutional Ethnography | | QN/QL | Kanada | Ac/Pr | |
| Metodlar | Appreciative Inquiry as a Research Method | Menecment | MX | Kanada | | INTRA |
| | Research Poem | Sosial İş | QL | ABŞ | Ac/Pr | CB |
| | Reflecting Interview | Psychology | QL | İsveç, ABŞ | | INTRA |
| | Semiotic Analysis and Mapping for Agent-Based Modelling | Multidis-siplinar | MX | Türkiya | Ac | INTRA |
| Fəndlər | Orbital Decomposition | | | ABŞ | Ac | CB |
| | New Item Response Theory Models: Tests without Items | Psixologiya | | ABŞ | Ac | INTRA |
| | Internet Survey Software Tools | | QN | | Rs | CB |
| | Methods for Achieving Equivalence of Samples in cross- National Surveys | Sorğu metodları | | Almaniya | Rs | CB |
| Alətlər | Intermediate Data Structure (IDS) | Tarix | QN | | Ac | |
| | Survey Interview: Animated Agent (Avatar) | Sorğu metodları | MX | ABŞ | Ac | TI |
| | WeSearch | Kommu-nikasiya araşdırmaları | MX | İtaliya | Ac | |
| Proqram təminatı | Statistical Software for Social Rs | Dövlət idarəçiliyi | | ABŞ | Ac | CB/TI |
| | Statistical Software for the Analysis of Social Network Data | Statistika | QN | ABŞ | Ac | TI |
| | Personal Network Analysis | Biznes və İqtisadiyyat | | ABŞ | Ac | |
| | EgoNet Software | | | | | |
| | Intelligence-led Policing Software | Kriminoloiya | QN | ABŞ | Ac | TI |
| | Dialectometrics: Rug/Lo4 Software | Coğrafiya | | Hollandiya | Ac | |
| | HyperRs: Computer-assisted programme for analysing Qualitative Data | Sociology | QL | ABŞ | Ac | |
| Panel Strukturu | Advanced Multi-disciplinary Facility for Measurement and Sciences (MESS) | Sorğu metodları | MX | Hollandiya | Rs | CB/TI |

Qeyd: Qn- kəmiyyət, Ql – keyfiyyət, Mx qarışıq(miks); Ac – Akademik, Pr - Professional, Rs –Araşdırma; CB sahələrarası yenilik; TI- Texnoloji İnnovasiya; INTRA fən və metodologiya yeniliyi.
Mənbə: Maria Xenitidou & Nigel Gilbert, Innovations in Social Science Research Methods. 2009, - müəlif tərəfindən adaptasiya olunub.

### TƏDQİQAT METODLARININ YENİLƏŞMƏSİ KONTEKSTİ

Cəmiyyətin sosial sferasının bütün sahələrindəki dəyişkənlik və qeyri-müəyyənlik, ictimai riskliyin artması, ümumən inkişafın qeyristabilliyi, kəmiyyət yanaşmalarını ciddi sınağa çəkməyə başlayır, çünki kəmiyyət tədqiqatlarının səmərə verməsi daha məsrəfli olur (məsələn, araşdırma layihəsinin həddən uzanması, seçmə toplusuna və sorğu prosesinə nəzarət xərcləri, yeni alınmış elmi faktların sürətlə köhnəlməsi, əvvəlki nəticələrə ziddiyyət təşkil etməsi və s.).

Beləliklə, tədqiqat praktikası alternativ yanaşma və metodlara üz tutmağa başlayır, bir çox pozitivist tələbləri zəiflətmək məcburiyyəti ortaya çıxır. Fenomenologiya, interaksiya və etnometodologiya adlı nəzəri paradiqmalar əsasında, hadisənin statistik təmsilçiliyi deyil, onun özünün unikal dəyər daşıması, respondentlərin passiv məlumat mənbəyi deyil – elmi sosial biliyin yaradılmasının iştirakçısına çevrilməsi keyfiyyət yanaşması və keyfiyyət metodlarının geniş tətbiqinə səbəb olmuşdur. Burada struktur müsahibənin yerinə dərinləşmiş müsahibə, fokuslanmış qrup müzakirəsi,

sosial xəritələnmə, tarixi-bioqrafik metod, sosial ekspertiza metodları gəlmişdir. Çox az müddətdə bu iki yanaşmanı qarşı-qarşıya qoyulmasından sonra keyfiyyət metodlarının əvvəl kəmiyyət tədqiqatlarına dəstək kimi (kəşfiyyat sınağı, problemin miqyası və daşıyıcılarının dəqiqləşdirilməsi, maraq tərəfləri - steykholderlərin dairəsinin təyin edilməsi və s.), sonra isə birgə tətbiqinin geniş yayılması müşahidə olunur. Hər iki metodun verdiyi nəticələr bir-birini dəstəkləyəndə tədqiqatın səmərəsini artırmış olur. Nəhayət, sosial tədqiqatın nəticələrini inzibati məlumatlarla və ya digər müstəqil qiymətləndirmə ilə yoxlama, miks-araşdırma adlanan metodun məhsuldar olmasına xidmət edir. Müxtəlif metodların verdiyi nəticələrinin qarşılıqlı nəzarət və dəstək üsuluna "trianqulyasiya (üçləşdirmə) metodu" deyilir. Aşağıdakı cədvəldə əsas metodların təsnifatı verilmişdir.

Müxtəlif tədqiqat növləri özünəməxsus tədqiqat metodlar məcmusu ilə səciyyələnirlər.

Sosial tədqiqatların növləri onların təyinatı, obyektin və predmetin öyrənmə səviyyəsi, ilkin məlumatları əldə etmək imkanları və tədqiqatçıların peşəkarlığından asılıdır. Yeni yaranmış ciddi sosial problemi öyrənmək üçün ilk öncə kəşfiyyat tipli tədqiqat (bəzən onlara zondaj və pilotaj tədqiqatlar deyirlər) növünə müraciət edirlər.

Oksford tədqiqat layihəsi OeSS (Oksford rəqəmsal sosial elmlər) rəqəmsal tədqiqatlar adı ilə yeni yanaşmaların tətbiqi və təsirlərini öyrənən layihədir. Həmçinin media məkanda aparılan tədqiqatların etik, hüquqi və institusional nəticələrinin proqnozlaşdırılmasına hərtərəfli diqqət yetirilmişdir. Layihə üzrə 2009-cu ildə dərc edilən hesabatda qabaqcıl ölkələrdə aparılmış rəqəmsal sosial tədqiqatlar üzrə yeniliklərin növü üzrə metodoloji təsnifləşdirmə aparılmışdır. Aşağıdakı cədvəldə təsnifat ixtisarla təqdim olunur.

Sosiologiyada onlayn tədqiqat üsulları və verillənlərin yeni təhlil metodları işlənib tətbiq edillir. Onlayn sosial tədqiqatların sürətlə yayılmasının əsas səbəbi İnternet məkanında nəhəng informasiya toplularının yığılmasıdır, özü də yalnız ədədlər və mətn deyil, bütün növ informasiyalar (qrafika, video daxil olmaqlaq) sosial məzmun daşıyır. Düzgün tədqiqat strategiyası elə alətlərin tətbiqini nəzərdə tutmalıdır ki, böyük informasiya axınlarının öhdəsindən gəlmək mümkün olsun. Əsas vəzifə validliyin və düzgün seçmənin təmin edilməsidir. Bu səbəbdən Hyu Makeyin "İnformasiya və sosiologiyanın transformasiyası" əsərində ön plana yeni avtomatlaşdırılmış informasiyaların toplanması üsullarını çıxarır və o, hesab edir ki, ənənəvi sorğu və müsahibə üsulları arxa plana keçir. Böyük Britaniyanın BBC şirkətinin sosial medialarla iki iş metodunu "Sysomos MAP" sisteminin tətbiqi üzərində nümayiş etdirir:



1) konkret mövzu üzrə istifadəçilərin yazdıqları mesajların bazaya yığımı və onun analitikasının təmin edilməsi;

2) toplanmış kontentin keyfiyyət analizinin aparılması.

Bu alət vasitəsilə real zaman rejimində hansı mövzuların müzakirə obyekti olması, lider rəylərin hansı internet-meydançalarında səslənməsini avtomatik müəyyən etmək mümkün olur.

## YENİ SOSİAL PROQNOZLAŞDIRMA METODLARINA QISA BAXIŞ.

Hər bir elm sahəsinin tədqiq etdiyi obyektlə bağlı iki əsas funksiyası vardır: 1) hadisə və prosesləri izah etmək və 2) onların gələcək gedişatının proqnozunu əsaslandırmaq. Sosial tədqiqat metodlarının proqnostik təyinatı həm kəmiyyət, həm də keyfiyyət yanaşmalarında mövcuddur. Modelləşdirmə, səbəb-nəticə əlaqələrinin keçmişdən indiki zamana və buradan gələcəyə davam etdirilməsi inkişaf etmişdir. Lakin yeni mühit, yeni davranışlar proqnozlaşdırmanın yeni üsullarla zənginləşdirilməsini tələb edir. Bu imkan müasir tədqiqatların e-infrastruktur təminatında öz yerini tapır. Nümunə kimi, öyrənən alqoritmlər və süni intellekt AI (Artificial Intelligence) metodlarını göstərmək olar. Bu və digər yanaşmalar sürətlə inkişaf edir. Hələlik isə təsbitini tapmış müasir proqnostika metod və yanaşmalarını xatırlamaqla kifayətlənək:

1. Ekspert rəyi (Delphy üsulu kimi - situasiyanı bilən ekspertlərin sorğusu)
2. Ekstrapolyasiya (analoji situasiyaların statistik təhlili)
3. Rəqabətli mühitə stimullar üsulu (rəqibdən öyrənmə)
4. Eksperiment keçirmə (kiçik miqyasda strategiyanı sınamaq)
5. Oyun nəzəriyyəsi (formal modelləşdirmə)
6. Rol oyunu (qoşulmuş interaksiyada formal hərəkət)

## YEKUN

Müasir dövrdə sosial tədqiqat metodologiyasında böyük dəyişikliklərin baş verməsi ilk öncə rəqəmsal texnologiyaların cəmiyyətin bütün sahələrinə daxil olması ilə əlaqələndirilir. Bunun dövlət, özəl və ictimai qurumların fəaliyyəti üçün də ciddi təsirləri gözlənilir və artıq özünü göstərməkdədir. Təqdim edilən qısa xülasə yeni metodların rəqəmsal, innovasiya və kreativ növlərinin bəzi nümunələrinin özündə kəsb etmişdir.



### ÖZÜNÜMƏŞĞULLUQ VƏ

# SOSİAL BİZNES

*i.ü.f.d., dos. FARİZ ƏHMƏDOV, SONA ƏLİMƏMMƏDOVA*

## // SOSİAL DÖVLƏT ANLAYIŞINDA TƏMƏL FAKTORLARDAN BİRİ DƏ MƏŞĞULLUĞUN TƏMİN OLUNMASIDIR.

Sosial dövlət anlayışı, insanın iqtisadi azadlığına; sahibkarlar və onların birliklərinin, muzdlu əmək işçilərinin və onların həmkarlar ittifaqlarının hüquqlarının tanınmasına; dövlətin iqtisadi və sosial həyatın axarının nizamlanması üçün şəraitin yaratmasına və vətəndaşların rifahının təmin olunmasına; cəmiyyətdə sosial ədalət və həmrəyliyin bərqərar olmasına, iş qabiliyyəti olanların işlə təminatına; işçilərin istehsalın idarə olunmasında və bölüşdürülməsində iştirakı, eyni vaxtda iqtisadi demokratiyanın müxtəlif formalarının inkişaf etdirilməsinə və digər bu kimi prinsiplərə əsaslanır.

Məşğulluq isə ölkədə mövcud işçi qüvvəsinin iqtisadi fəaliyyətlərdə fasiləsiz məşğulluğundan ibarətdir. Məşğulluq anlayışı, mövcud texnoloji səviyyəyə görə bir istehsalda mövcud istehsal elementinin hansı dərəcədə istifadə edildiyini göstərir. Sosial siyasətin əsas sahələrindən olan məşğulluğu geniş və dar mənada müəyyənləşdirmək mümkündür. Geniş mənada, məşğulluq istehsal amillərinin (əmək, kapital, təbii sərvətlər, sahibkar) istehsalata, yəni işləməyə yönəldilməsi kimi müəyyən edilir. Bu anda bir ölkənin sahib olduğu bütün istehsal amilləri bu ölkənin istehsal imkanlarını təşkil edir. Bu çərçivədə məşğulluq müəyyən bir müddətdə (adətən, bir il) istehsal amillərinin istifadə dərəcəsi kimi geniş mənada ifadə edilə bilər. Məşğulluq anlayışı, geniş mənada, bütün istehsal amillərini əhatə etsə də, məşğulluq və istehsal amillərinin dar mənasında yalnız əmək elementi nəzərə alınır. Buna görə tələbat dar mənada gəlir əldə etmək üçün istehsalda və ya işdə / məşğulluqda əməyin istifadəsi olaraq təyin etmək mümkündür.

Beynəlxalq Əmək Təşkilatının (ILO - İnternational Labour Organization) "Dünyada Məşğulluq və Sosial Görüşü: Trendlər 20193" hesabatına görə, qlobal işsizliyin azaldılması və iş keyfiyyətinin yaxşılaşdırılması istiqamətində irəliləyişlər paralel deyil. Beynəlxalq Əmək Təşkilatının (BƏT) son hesabatına görə, aşağı keyfiyyətli məşğulluq qlobal əmək bazarlarında əsas problem olaraq qalır; milyonlarla insan qeyri-kafi iş şəraiti qəbul etmək məcburiyyətində qalır. Üstəlik, qlobal işsizliyin azaldılması istiqamətində irəliləyiş iş keyfiyyətinin yaxşılaşdırılmasında əks olunmur. Diqqəti çəkən problemlər arasında işçi qüvvəsinin iştirakında gender



fərqinin aradan qaldırılması istiqamətində irəliləyişin olmaması da vurğulanmışdır. Kişilərin 75%-i işçi qüvvəsinin iştirak nisbətindən fərqli olaraq, qadınların yalnız 48%-i işçi qüvvəsində iştirak edir. Qadınlar da kifayət qədər istismar edilməyən işçi qüvvəsinin daha böyük hissəsini təşkil edir. Digər bir problem, qeydiyyata alınmamış məşğulluğun mövcud olmasıdır. Dünyadakı işçi qüvvəsinin 61%-ni əhatə edən 2 milyard insan bu kateqoriyaya aiddir. Bütün bu problemlərin mövcudluğuna baxmayaraq, illik hesabatda bəzi uğurlar da vurğulanır. Dünya iqtisadiyyatı ciddi bir geriləmənin qarşısını ala bilsə, bir çox ölkədə işsizliyin daha da azalacağı gözlənilir. Son 30 ildə, xüsusən də orta gəlirli ölkələrdə işləyən yoxsulların əhəmiyyətli dərəcədə azaldığı və təhsildə iştirak edənlərin sayının artdığı vurğulanır.



Məşğulluq siyasəti yoxsulluqla mübarizədə mühüm rol oynayır. Bu çərçivədə aktiv və passiv məşğulluq siyasəti yoxsulluğun azaldılmasında təsirli olacaqdır. Aktiv məşğulluq siyasəti işsizliyin azaldılması və məşğulluğun artırılması üçün həyata keçirilən tədbirlər məcmusudur. Aktiv əmək bazarı siyasətləri yeni investisiyaların qoyulması, yeni iş yerlərinin açılması, yeni peşələrin yaradılması, sahibkarlığın dəstəklənməsi, peşə təhsili, çevik iş metodları, iş vaxtının qısaldılması və erkən pensiya təcrübəsi ilə işçi qüvvəsinin ixtisas səviyyəsinin artırılması şəklində həyata keçirilən siyasətdir. Digər tərəfdən, passiv məşğulluq siyasəti işsizliyin azaldılmasına və məşğulluğun artırılmasına kömək etmir, yalnız fərdləri işsizliyin mənfi iqtisadi və psixo-sosial nəticələrindən qorumaq üçün tətbiq olunur. Passiv məşğulluq siyasəti işsizlikdən sığorta müraciətləri və işsizlik müavinəti ərizələri şəklindədir.

Özünüməşğulluq isə Azərbaycan Respublikasının “Məşğulluq haqqında” Qanununun 1.1.15 maddəsində qeyd olunduğu kimi, şəxsin müstəqil surətdə və yaxud dövlətin dəstəyi ilə özünü işlə təmin etməsi deməkdir.

Aztəminatlı ailələrin sosial rifahını yüksəltmək məqsədilə sosial siyasət sahəsində özünüməşğulluq tədbirlərinə xüsusi yer ayrılır. Azərbaycan Respublikası Prezidentinin 7 aprel 2016-cı il tarixli 1941 nömrəli “Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında” Sərəncamına əsasən özünüməşğulluq proqramı həyata keçirilir. Bu proqram çərçivəsində aztəminatlı ailələrə fərdi təsərrüfatlarının təməlini qoymaq və ya inkişaf etdirmək üçün dövlət vəsaiti hesabına ailəyə birbaşa natura şəklində mal, material və digər əmlakın verilməsi ilə (nağd vəsait olmamaq şərtilə) dəstək göstərilir. Ailə təqdim etdiyi biznes plana uyğun olaraq istehsal və ya xidmət avadanlıqları ilə təmin edilir. Bu dövlət özünüməşğulluq proqramını digər ölkələrdəki təcrübədən fərqləndirən cəhətdir.

Özünüməşğulluq proqramı həmçinin alternativ sosial müdafiə tədbirləri ilə müqayisədə əhəmiyyətli üstünlükləri ilə fərqlənir. Belə ki, proqram eyni vaxta bir neçə makro məqsədlər istiqamətində paralel nəticələrin əldə edilməsinə imkan yaradır. Ümumilikdə isə özünüməşğulluq proqramının üstün tərəflərini ailə büdcəsinin dayanıqlı gəlir mənbələri hesabına formalaşması, mikro və kiçik sahibkarlığın inkişafı, yeni iş yerlərinin yaradılması və işsizlik səviyyəsinin azaldılması, ictimai vəsaitlərin (dövlət vəsaitləri) xərclənməsində səmərəliliyin artırılması, yoxsulluq səviyyəsinin azaldılması, iqtisadiyyatda inklüzivliyin gücləndirilməsi kimi qruplaşdırmaq olar. Dünyada özünüməşğulluq siyasəti və yoxsulluğun aradan qaldırılmasının bir növü də sosial biznesdir. Sosial biznes zərər etməyən, dividendlər paylanmayan və tam bir sosial məqsədə nail olmaq üçün həsr olunan yeni bir biznes növüdür. Sosial biznes mənfəət güdən dünyadan kənarda yerləşir. Onun məqsədi biznes metodlarından,









# QLOBAL İŞSİZLİYİN

*AZALDILMASI İSTİQAMƏTİNDƏ İRƏLİLƏYİŞ İŞ KEYFİYYƏTİNİN YAXŞILAŞDIRILMASINDA ƏKS OLUNMUR.*

DİQQƏTİ ÇƏKƏN PROBLEMLƏR ARASINDA İŞÇİ QÜVVƏSİNİN İŞTİRAKINDA GENDER FƏRQİNİN ARADAN QALDIRILMASI İSTİQAMƏTİNDƏ İRƏLİLƏYİŞİN OLMAMASIDIR. KİŞİLƏRİN 75%-i İŞÇİ QÜVVƏSİNİN İŞTİRAK NİSBƏTİNDƏN FƏRQLİ OLARAQ, QADINLARIN YALNIZ 48%-i İŞÇİ QÜVVƏSİNDƏ İŞTİRAK EDİR. QEYDİYYATA ALINMAMIŞ MƏŞĞULLUQ DÜNYADAKI İŞÇİ QÜVVƏSİNİN 61%-ni - 2 MİLYARD İNSANI ƏHATƏ EDİR.



Kişilərin

75%-i,

qadınların

48%-i

işçi qüvvəsində iştirak edir.

o cümlədən malların və xidmətlərin satışını həyata keçirərək sosial problemləri həll etməkdir.

Sosial biznes, bəşəriyyətin məcburi tələbatını qarşılayan bir iş modelidir. Sosial biznes, kommersiya biznesləri kimi bir çox istiqamətdə fəaliyyət göstərir, amma sosial təsir bu işin əsas məqsədi olduğundan bütün mənfəətlər yenidən biznesə inteqrasiya etməlidir və ya yeni ictimai işin təşkili üçün istifadə olunmalıdır. Yəni enerji mənfəətə yox, insan ehtiyaclarına sərf edilir və qazanılan mənfəətlə sosial biznes inkişaf etdirilir. İnvestor ancaq başlanğıc kapitalını götürə bilər. Sosial biznesdə idarəetmə ənənəvidir və əməkhaqları bazara görə ödənilir. Uğur mənfəətlə yox, yaradılan fayda ilə ölçülür.

Sosial biznes konsepsiyasının kökü Banqladeşdədir. 1983-cü ildə prof. Yunus Mikro-maliyyə inqilabından başlayaraq, Nobel Sülh Mükafatını qazandıran Grameen bankını qurması ilə başladı. Grameen Banqladeşdəki yoxsul kəndlilərə  xidmət etmək üçün həsr olunmuş bir bankdır, hansı ki müxtəlif şirkətlər halına gəldi və hər bir şirkət bütün mənfəətlərini yoxsullara fayda yaradacaq şəkildə yenidən investisiyaetmə niyyəti ilə yarandı. Sosial biznes kasıblar üçün gəlir yaradan və ya sağlamlıq, təmiz su və ya təmiz enerji kimi əsas məhsul və xidmətlərlə təmin edən bir şirkətdir.

İki növ sosial biznes müəssisəsi mövcuddur. Bunlardan birincisi, zərər çəkməyən, dividendlər paylamayan, sosial problemin həllinə həsr olunmuş və bütün mənfəətlərini işi genişləndirilməsi və təkmilləşdirilməsi üçün sərmayə qoyan investorların mülkiyyətində olan biznes növüdür. Bunlara I tip Sosial Şirkətlər deyilir. Bu müəssisələr sosial məqsədlərə aid işlərlə məşğuldur. Məsələn, yoxsullar üçün istehsal olunan məhsullar.

İkinci növ, yoxsul insanların birbaşa və ya Fond vasitəsilə əvvəlcədən müəyyən edilmiş bir sosial məqsəd üçün yaradılan bir şirkətdir. Bunlar II tip sosial müəssisələr adlanır. Bu müəssisələr kasıblara və ya əlverişsiz şəraitdə olanlara aiddir və əldə olunan mənfəətlər birbaşa və ya dolayı faydalar təmin edir. Məsələn, məhsul yoxsullar tərəfindən istehsal olunur və beynəlxalq bazarlara ixrac edilir, işçilər qazandıqları mənfəətdən faydalanırlar. Grameen Bank bu tip sosial biznesə aiddir, çünki bankın həm indiki sahiblərinin, həm də müştəriləri yoxsullardır ki, bu da eyni zamanda əhalinin özünüməşğulluq fəaliyyətinin dəstəklənməsi xidmətini göstərir.

Ümumi dünyada Sosial Biznes konsepsiyası yeni olduğundan Azərbaycanda da hələ inkişaf etməməkdədir. Sosial biznesin inkişaf etməsi kiçik və orta sahibkarlığın artması ilə bərabər cəmiyyətdəki problemlərin həllində və rifahın yüksəldilməsində ən əsası özünü məşğulluqda böyük rol oynayar. Çünki sosial biznes işsizliyin və yoxsulluğun aradan qalxmasına, özünüməşğulluğun artmasına da öz töhfəsini verir.



# ƏLİLLİYİ OLAN ŞƏXSLƏRİN MƏŞĞULLUĞUN

*təmin edilməsində əsas istiqamətlər*

**müəllim Sevinc Məhsimova**



Müasir dövrdə sürətlə inkişaf edən cəmiyyət həm müsbət, həm də mənfi keyfiyyətlər ehtiva edir. Xüsusilə bu, inklüziv cəmiyyətə transformasiyası prosesini təhlil edərkən aydın olur.

Əlilliyi olan insanların sayının artım tempi bu insanlar üçün əlverişli yaşayış şəraitinin inkişaf sürətinə uyğun gəlmir. Bu, dövlət iqtisadiyyatının aşağı və ya yüksək səviyyədə inkişafının nəticəsi kimi qəbul etmək doğru deyildir. Əlilliyin səviyyəsi obyektiv və subyektiv olaraq bölünə bilən bir çox amillərdən asılıdır. Obyektiv olanlar arasında insan orqanizminin pozulmuş funksiyalarının ehtimalına təsir edənlər (yaşayış mühitinin ekologiyası, əməyin mühafizəsi vəziyyəti, tibbi yardımın səviyyəsi və vəziyyəti, o cümlədən hamilə qadınların sağlamlığının qorunması və doğuş qayğısı, reabilitasiya sisteminin səviyyəsi, hərbi münaqişə və müharibələrdə iştirak və s.) Fikrimcə, subyektiv amillərə bütövlükdə əlilliyə bir kompleks yanaşma zəruridir.

Burada qeyd etmək istərdim ki, son bir neçə ildə dövlət tərəfindən əlillliyi olan insanların həyatı və fəaliyyəti üçün şəraitin yaradılması və yaxşılaşdırılmasına xüsusi diqqət yetirilir. Çoxsaylı qanunların, sərəncamların və s. qəbul edilməsi əhəmiyyətli dəyişikliklərə nail olmağa imkan verdi. Ancaq, cəmiyyətdə şərtlərin uyğunsuzluğu və elan edilmiş hüquqların praktikada həyata keçirilməsində çətinliklər mövcuddur və əlilliyi olan gənclər arasında yüksək işsizlik səviyyəsi ölkədə mövcud peşə reabilitasiya sisteminin daha da səmərəli qurulmasını tələb edir.

Səmərəli məşğulluq sistemi və peşə reabilitasiyası əlilliyi olan şəxslərin məqbul yaşayış səviyyəsinə çatması üçün vacib şərtdir.

Məşğulluq sahəsində dövlət sosial-iqtisadi siyasətinin səmərəliliyinin artırılması, bazar iqtisadiyyatı

## ŞƏMƏRƏLİ MƏŞĞULLUQ SİSTEMİ VƏ PEŞƏ REABİLİTASİYASI ƏLİLLİYİ OLAN ŞƏXSLƏRİN MƏQBUL YAŞAYIŞ SƏVİYYƏSİNƏ ÇATMASI ÜÇÜN VACİB ŞƏRTDİR.

şəraitində əlilliyi olan şəxslərin məşğulluğu proseslərini təkmilləşdirməsi üçün əlilliyi olan şəxslərin peşə reabilitasiyası prosesinin əsas mərhələlərini müəyyənləşdirmək və təsnif etmək lazımdır. Bu əlaqələri və əhalinin bu sosial həssas qrupu üçün məşğulluğun əldə edilməsində hər mərhələnin töhfəsini müəyyənləşdirmək vacibdir.

Bu məqsədə nail olmaq üçün müasir metodikalar əsasında əlilliyi olan şəxslərin məşğulluq və peşə reabilitasiyasına zəruri investisiyaların iqtisadi qiymətləndirilməsini aparmaq və bu cür investisiyaların maliyyə nəticələrini müəyyənləşdirmək lazımdır. Həm də əlilliyi olan şəxslərin peşə reabilitasiyası və məşğulluğu sahəsində sosial-iqtisadi siyasətin inkişafı üçün prioritet sahələri müəyyənləşdirmək və təkmilləşdirilməsi üçün təkliflər hazırlamaq lazımdır.

Əlilliyi olan şəxslərin işlə təmin olunması məsələsinə düzgün yanaşmaq üçün peşəkar ekspertiza və peşəkar qiymətləndirmə tədbiq olunmalıdır. Peşəkar ekspertiza aşağıdakı addımlardan ibarət olmalıdır:

1) əlilliyi olan bir insanın potensialını təyin etmək üçün təhsil, tibbi, psixoloji və sosial qiymətləndirmə;

2) bacarıqların, istedadların, maraqların qiymətləndirilməsi;

3) iş yerinin uyğunlaşması nəzərə alınmaqla fərdi xüsusiyyətlərin və iş parametrlərinin müqayisəsi. Peşəkar qiymətləndirmə isə fəaliyyət sahələrini, iş növünü və bu işdə əlilliyi olan bir insanın səmərəlilik səviyyəsini müəyyənləşdirməlidir.

Əlilliyi olan insanların məşğulluğu üçün kvota daxilində iş yerləri ayırmağı unutmamalıyıq. Üstəlik, mexanizm bu şəxslərin, ilk növbədə, işə götürülə biləcəyi şəkildə işləməlidir. Bu tədbirlər sayəsində yalnız əlilliyi olan insanların işləyə biləcək bir sıra hazır iş yerləri yaranacaqdır.

Dövlət tərəfindən əlilliyi olan şəxslərin məşğulluğunu təmin edən müəssisələrə verilən güzəştləri də qeyd etmək lazımdır (işləyənlərin ümumi sayının azı 30 faizi əlilliyi olan şəxslərdən ibarət olan müəssisələr, idarələr və təşkilatlar güzəştli maliyyələşdirmə və maddi-texniki təminat hüququna malikdirlər. Belə müəssisələrə, idarələrə və təşkilatlara mənfəət vergisinin 50 faizi məbləğində güzəşt verilir).

Zəmanətli rasional məşğulluğu təmin etmək üçün peşə reabilitasiyası prosesində dördtərəfli qarşılıqlı fəaliyyət mexanizmi hazırlanmalıdır (klaster mexanizmi). Burada əlilliyi olan şəxslərin peşə reabilitasiyası dedikdə, sadəcə, peşə reabilitasiya mərkəzləri deyil, orta və ali təhsil müəssisələri də nəzərdə tutulur.

Əlilliyi olan insanların, təhsil müəssisələri, məşğulluq xidmətləri və gələcək işəgötürənlərin qarşılıqlı əlaqəsi sayəsində bir tərəfdən, təlim prosesində bilik və bacarıqların əldə edilməsini sürətləndirmək, digər tərəfdən əlillərin məşğulluğuna zəmanət vermək və dövlət maliyyələşdirmə mənbələrinə olan yükü qismən azaltmaq mümkün olacaqdır. Bu sistemin tədbiqi aşağıdakı bölmələri əhatə edir: peşəkar diaqnostika; peşəkar məlumatlandırma; peşəkar məsləhət; karyera rəhbərliyi; əlilliyi olan şəxslərin təhsili və məşğulluğu; əlillərin məşğulluğu prosesinin informasiya təminatı; bu tədbirlərin və prosesin monitorinqi.

Əlilliyi olan şəxslərin cəmiyyətdə rolu və fəaliyyəti tam inklüziv cəmiyyətin formalaşmasında əsas müddəalarındandır. Ancaq kompleks tədbirlər və sistemli yanaşma, ailədən başlayaraq, cəmiyyətə ilkin inteqrasiyası, orta, peşə və ali təhsili, əmək fəaliyyəti və cəmiyyətin tam hüquqi fərdi olaraq yaşam haqqını qazanmağa imkan verəcəkdir.






# LAYİQLİ ƏMƏK NƏDİR? **ÖLKƏDƏ NECƏ TƏMİN EDİLİR?**

i.e.n., dos. Əlirza Məmmədov

*"LAYİQLİ ƏMƏK" KONSEPSİYASI BƏT TƏRƏFİNDƏN 1999-cu İLDƏ QƏBUL EDİLMİŞDUR. BU KONSEPSİYAYA GÖRƏ, AZAD, ƏDALƏTLİ, TƏHLÜKƏSİZ, SOSİAL BAXIMDAN QORUNAN, İNSANIN LƏYAQƏTİNİ ALÇALTMAYAN, HAMI ÜÇÜN BƏRABƏR BAŞLANĞIC İMKANLARI AÇAN, İDARƏETMƏ QƏRARLARINDA VƏ ÖZÜNÜ İNKİŞAFDA İŞTİRAKA ZƏMANƏT VERƏN ƏMƏK LAYİQLİ ƏMƏK ADLANDIRILA BİLƏR.*
*LAYİQLİ ƏMƏK İŞÇİYƏ AZADLIQ, ƏDALƏT, TƏHLÜKƏSİZLİK VƏ İNSAN LƏYAQƏTİNƏ HÖRMƏT KONTEKSTİNDƏ SEVDİYİ İŞLƏ MƏŞĞUL OLMAĞA İMKAN VERƏN ƏMƏKDİR. LAYİQLİ ƏMƏK - LAYİQLİ HƏYATDIR.*

Davamlı iqtisadi artıma nail olmaqda strateji məqsəd insan rifahının və ölkənin inkişafının əsası kimi layiqli əmək standartlarının tətbiqi olmalıdır.

Layiqli əmək standartının strukturu aşağıdakı kimidir:

- Standart;

- Müəyyən standartın əldə edildiyi mexanizmlər;

- Müəyyən edilmiş standarta uyğunluğunu qiymətləndirmək üçün istifadə olunan göstəricilər: layiqli əməkhaqqı; layiqli məşğulluq; effektiv sosial tərəfdaşlıq.

Layiqli əməkhaqqı - insan və əmək potensialının geniş təkrar istehsalını, işləyən insana və onun ailəsinə iqtisadi azadlığı təmin edən əmək haqqıdır.

Layiqli məşğulluq - işçinin biliklərindən, bacarıqlarından, layiqli əməkhaqqından səmərəli istifadəni, peşə səviyyəsinin yüksəldilməsini və ixtisasartırma hazırlığını, işçilərin əməyə həvəsləndirilməsini, işçinin əməyinin və istirahətinin düzgün təşkilini, təhlükəsiz əmək şəraitini təmin etməklə iş yerlərində mümkün olan maksimum məşğulluqdur.

Effektiv sosial tərəfdaşlıq işçilər, işəgötürənlər, dövlət hakimiyyəti orqanları, yerli hakimiyyət orqanları arasındakı münasibətlər sistemidir ki, bu da tərəflərin hər birinin mənafelərini bərabər və ədalətli şəkildə nəzərə almağa və əlaqələndirməyə, ölkənin sabit sosial-iqtisadi inkişafını təmin etməyə imkan verir.

Yuxarıda göstərilənlərin hamısını nəzərə alaraq layiqli əməyin aşağıdakı tərifini təklif etmək olar: layiqli əmək, cəmiyyət tərəfindən hörmətlə qəbul edilən, insan sağlamlığı üçün zərər vurmayan və onun qabiliyyətlərinin inkişafına kömək edən, mənəvi, maddi, keyfiyyət, kəmiyyət və əsaslı xüsusiyyətlər baxımından fərdi məmnun edən əməkdir.

Dövlətin, işəgötürənin və işçinin razılaşdırılmış maraqları beynəlxalq və ya dövlət sosial standartlarına, o cümlədən əmək sahəsində (Azərbaycan Respublikası səviyyəsində - Azərbaycan Respublikasının Konstitusiyası və Əmək və Mülki Məcəllələr, digər qanunvericilik və normativ aktlar) əsaslanır. Beynəlxalq hüquq sahəsində sosial və əmək standartları BƏT-in konvensiyaları, Avropa İttifaqı, MDB və digər dövlətlərarası sazişlərlə müəyyən edilir. Bütün bu aktların təhlili göstərir ki, "layiqli əmək" anlayışı layiqli (rahat yaşayış təmin etmək) əməkhaqqı, ədalətli və təhlükəsiz əmək şəraiti, sosial təminatlar, peşə təhsili və peşə rəhbərliyi hüququ, sosial, tibbi və pensiya sığortası hüququ kimi parametrlərdən ayrılmazdır. Layiqli əməyin fərqlənən keyfiyyət xüsusiyyətləri arasında, işləyən şəxsin gəlirlərinin etibarlılığına və işçilərin maraqlarının təmsil olunmasına xüsusi əhəmiyyət verilir. Etibarlı gəlir əldə etmədən insanlar seçim azadlığından məhrum olur və sosial məsuliyyətli olmağı dayandırırlar, kollektiv və fərdi təmsil olmadan həssas qruplar gücsüz qalırlar. Bu parametrlər XXI əsrdə xüsusi əhəmiyyət kəsb edir.

Layiqli əməyin göstəriciləri olaraq, BƏT aşağıdakılardan istifadə etməyi tövsiyə edir:

- işlə təmin olunanların və işsizliyin payı;

- əməkhaqqı xərclərinin ümumi ÜDM-də payı;

- sosial təminat və sosial sığortaya dövlət xərclərinin miqdarı.

İqtisadi baxımdan layiqli əməyin və dövlət iqtisadi siyasətinin sosial yönümünün ən vacib göstəriciləri bunlardır:

- cəmiyyətin əməkhaqqına yüksək xərcləri - ÜDM-in 40-60%-i;

- xərcləri ÜDM-in, ən az, 20-25%-ni təşkil edən inkişaf etmiş sosial təminat sistemi;

- dövlət büdcəsində səhiyyə (ÜDM-in 7-9%-i) və təhsil (ÜDM-in 4-6%-i) üçün sosial xərclərin yüksək payı;

- peşə təhsili, yenidən hazırlıq və məşğul-luğunun inkişaf etmiş sistemi, aşağı işsizlik.

Həyat səviyyəsi və keyfiyyəti həm gəlir (əməkhaqqı, müavinət) - insanın sərvəti, həm də onun üçün sosial nemətlərin (təhsil, səhiyyə, sosial xidmətlər) mövcudluğu, həmçinin cəmiyyətin təbəqələşmə çərçivəsində sosial statusu ilə müəyyən edilir. Azərbaycanda minimum əməkhaqqı, yaşayış minimumu və minimum istehlak səbəti anlayışları qəbul edilmiş və qüvvədədir. Bu anlayışlar insanın həyat səviyyəsini deyil, minimum həyati ehtiyaclarını təmin edir.

Ümumən, 2003-2018-ci illərdə Azərbaycanda maaşlar 7 dəfə, pensiyalar 9 dəfə artıb, işsizlik 5%-ə, yoxsulluğun səviy yəsi isə 5,1%-ə enmiş,





ölkə əhalisinin 1,5 milyon nəfər artımına qarşı 2 milyon yeni iş yeri yaradılmışdır.

Statistik məlumatların təhlili göstərir ki, 2005-ci illə müqayisədə 2018-ci ildə ölkə iqtisadiyyatında işləyənlərin orta aylıq əməkhaqqları 4,4 dəfə artdığı halda, istehlak qiymətləri indeksi 2,45 dəfə artmış və bununla da orta aylıq əməkhaqının artım sürəti istehlak qiymətlərinin artım sürətini 1,8 dəfəyə yaxın üstələmişdir (Cədvəl 1).

Eyni zamanda təhlil edilən dövrdə dövlət müəssisələrində çalışanların orta aylıq əməkhaqqı qeyri-dövlət müəssisələrində çalışanların orta aylıq əməkhaqqından daha üstün sürətlə artsa da, qeyri-dövlət müəssisələrində çalışanların əməkhaqqı (690,7 manat) dövlət müəssisələrində çalışanların əmək haqqından (435,2 manat) 1,6 dəfə çoxdur (Cədvəl 2).





Təhlil göstərir ki, inflyasiyanın cilovlanması nəticəsində onun səviyyəsi 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 10% - bənd azaldılmış, dövlətbüdcəsindənsosialyönümlüxərclər2017-ci ilə nisbətən 2018-ci ildə 7,6% artaraq 31,7%-ə çatdırılmışdır.

2019-cu ilin əvvəlinə kimi ölkəmizdə dövlət tərəfindən reallaşdırılan investisiyanın təşviqi proqramları üzrə 107 layihə reallaşdırılmış, 2019-cu ildə isə 332 layihənin reallaşdırılması nəzərdə tutulmuşdur. Bütün bu layihələrin reallaşdırılması nəticəsində ölkəmizdə 12 min yeni iş yerinin yaradılması nəzərdə tutulur. İnklüziv iqtisadi artımın təmin olunmasında ölkəmizdə uğurla reallaşdırılan özünüməşğulluq proqramının artan rolu da diqqəti cəlb edir. Həmin proqram 2019-cu ildə 7 min nəfər əhalini əhatə edərək onların işlə təminatı səviyyəsini yaxşılaşdıracaqdır. Ölkədə inklüziv iqtisadi artımın təmin olunmasında kiçik və orta sahibkarlığın inkişafı son dərəcə mühüm əhəmiyyətə malikdir. Bu məqsədlə "Ailə biznesinə asan dəstək" ("ABAD") mərkəzlərinin yaradılması ölkədə məşğulluğun səviyyəsinin daha da yüksəldilməsinə öz töhfəsini verməkdədir.

Ölkə prezidentinin 8 fevral 2019-cu il "Minimum əməkhaqqının artırılması haqqında" sərəncamı ilə minimum əməkhaqqı 38,5% artırılaraq 130 manatdan 180 manata, 18 iyun 2019-cu il tarixli sərəncamına əsasən sentyabrın 1-dən daha 38,9% artırılaraq 180 manatdan 250 manata qaldırıldı ki, bununla da minimum əməkhaqqının səviyyəsi yaşayış minimumu səviyyəsinə tam uyğunlaşdırıldı.

Onu da qeyd edək ki, 2019-cu ildə yaşayış minimumu ölkə üzrə 180 manata, əmək qabiliyyətli əhali üzrə 191 manata, pensiyaçılar üzrə 149 manata, uşaqlar üzrə 160 manata bərabər olub.

Strateji Yol Xəritəsində qeyd olunduğu kimi, 2025-ci ilə qədər əlavə olaraq ölkəmizdə 450 mindən çox yeni iş yerinin yaradılması, o cümlədən ticari mal və xidmətlər sektorunda, məhsul, istehsal və turizm sektorlarında 150 min əlavə iş yerləri yaradılması nəzərdə tutulur ki, bunlar da son nəticədə dövlət büdcəsinin Neft fondunun transferlərindən asılılığını xeyli azaldacaqdır.

**CƏDVƏL 1.** AZƏRBAYCAN İQTİSADİYYATINDA İŞLƏYƏNLƏRİN ORTA AYLIQ ƏMƏKHAQQLARI VƏ İSTEHLAK QİYMƏTLƏRİ İNDEKSİNİN DƏYİŞMƏSİ

| İllər | Hesablanmış orta aylıq əməkhaqqı | | İstehlak qiymətləri indeksi | |
|---|---|---|---|---|
| | 2005-ci ilə nisbətən, faizlə | Əvvəlki ilə nisbətən, faizlə | 2005-ci ilə nisbətən, faizlə | Əvvəlki ilə nisbətən, faizlə |
| 2005 | 100,0 | 124,3 | 100,0 | 109,6 |
| 2010 | 268,2 | 111,2 | 163,8 | 105,7 |
| 2015 | 377,8 | 105,0 | 192,9 | 104,0 |
| 2016 | 404,4 | 107,0 | 216,9 | 112,4 |
| 2017 | 427,6 | 105,7 | 245,0 | 112,9 |
| 2018 | 440,6 | 103,0 | 250,5 | 102,3 |

Mənbə: Azərbaycanın Statistik Göstəriciləri, 2019. Bakı, 2019, s.130

**CƏDVƏL 2.** MUZDLA İŞLƏYƏNLƏRİN ORTA AYLIQ ƏMƏKHAQQI

| İllər | Cəmi | O cümlədən | |
|---|---|---|---|
| | | Dövlət | Qeyri-dövlət |
| 2005 | 123,6 | 89,1 | 191,9 |
| 2010 | 331,5 | 276,4 | 423,9 |
| 2015 | 466,9 | 360,4 | 617,4 |
| 2016 | 499,8 | 375,2 | 679,0 |
| 2017 | 528,5 | 395,6 | 711,1 |
| 2018 | 544,6 | 435,2 | 690,7 |
| 2018/2005 | 440,6 | 488,4 | 359,9 |

Mənbə: Azərbaycanın Statistik Göstəriciləri, 2019. Bakı, 2019, s. 131-136

# PEŞƏ TƏHSİLİNDƏ YENİLİKLƏR

**AVROPA İTTİFAQI** PEŞƏ TƏHSİLİNİ HƏLƏ 2000-ci İLLƏRDƏN **YÜKSƏK İŞÇİ TƏMİNATI MEXANİZMİ** KİMİ İSTİFADƏ ETMƏYƏ BAŞLAMIŞDIR.

müəllim, VASİF ƏLİYEV





Son zamanlarda elm və texnologiyanın sürətli inkişafı insan həyatını və cəmiyyətin sosial vəziyyətini dəyişdirir. Bu vəziyyət daha çox cəmiyyətin təhsil sisteminə və bu sistem içərisində önəmli yerə sahib olan peşə məktəblərinin metodikasına təsir etməkdədir.

Avropa İttifaqı peşə təhsilini hələ 2000-ci illərdən yüksək işçi təminatı mexanizmi kimi istifadə etməyə başlamışdır.

Peşə təhsilinin inkişaf etdirilməsi ilə bağlı Avropa İttifaqı tərəfindən mənimsənən bəzi prinsiplər aşağıda qeyd olunmuşdur:

- Peşə məktəblərində hər kəs üçün əlverişli təhsil mühitinin yaradılması
- Bütün sektorların ehtiyacını ödəyəcək qədər işçi ehtiyatının hazırlanması
- Peşə məktəblərində uyğun bacarıqların əldə edilməsi üçün dövlətin tam dəstəyinin təmin edilməsi

Peşə təhsilində kifayət qədər uğurları olan Avropa ölkələrinin özünəməxsus xüsusiyyətləri aşağıda qeyd olunmuşdur:

## 1.1. İSVEÇ

İş həyatı fondu (WLF), peşə təhsilini dəstəkləyəcək investisiyaların effektiv olub-olmamasını qiymətləndirən firmaları araşdırıb tapmaqdadır. Özəl sektor peşə təhsilini dəstəkləyir, həmçinin peşə məktəblərində təhsil alan gənclər özəl sektorun ehtiyacları çərçivəsində hazırlanır.

## 1.2. ALMANİYA

"Dualist Sistem" olaraq adlandırılan alman peşə təhsili əsas olaraq nəzəriyyə və praktikanın birləşdirilməsi üzərində durmuşdur. Sənaye təcrübəsinə söykənən təhsildə həftədə bir və ya iki gün nəzəri biliklər də verilir.

## 1.3. FRANSA

Fransa Təhsil Nazirliyi yaratmış olduğu, Təhsil və Sənaye Əlaqələri Komitəsi sənaye sektorunun təhsil sistemi ilə əlaqədar təkliflər paketi hazırlamağa çalışır. "Professional Consulting" Komitəsi iş dünyası ilə təhsil arasında əlaqə qurur.

Bəzən xırda fərqliliklər olsa da, Aİ ölkələri sistemlərini yeniləməyə yönəlik reformlar etmişdirlər. Bu reformlar aşağıdakı kimi sıralana bilər:

1. Peşə təhsilində fərdin ehtiyacı ilə iş imkanları arasında balans yaradılmasına diqqət edilir.





2. Peşə məktəblərinin təkbaşına sənayenin problemlərini həll edə bilməyəcəyi üçün iş imkanları ilə təhsil eyni zamanda sosial siyasətin bir problemi kimi kimi ələ alınır.

3. Peşə və texniki təhsilin dəyişən texnologiya və struktura uyğunlaşması üçün orta məktəblərdən peşə məktəblərinə keçiddə nizamlamalar aparılır.

a. Tələblərə ixtisas seçimini daha sonra gözdən keçirtmə imkanı tanınır.

4. Bütün Aİ ölkələrində bu təhsil 9 illik məcburi təhsildən sonra davam edir.

5. 9 illik məktəbin sonunda peşə məktəblərinə istiqamətləndirməyə önəm verilir.

6. Maliyyə tərəfi daha çox dövlət olmasına baxmayaraq maraqlı tərəflərin də iştirakına təkan verilir.

Önəmli dərəcədə gənc, iş gücünə sahib Azərbaycan da 2019-cu ildən etibarən bu sahədə addımlar atmağa başlamışdır. Azərbaycanda peşə təhsilinə diqqət artmasını regionlarda fəaliyyət göstərən 20 peşə təhsili müəssisəsinin bazasında 10 Dövlət Peşə Təhsil Mərkəzi yaradılmasında görə bilərik. Bu canlanmanı daha da sürətləndirmək üçün peşə məktəblərində aşağıdakı yenilikləri etmək qaçınılmazdır:

- Peşə məktəblərinə ayrılan resursların artırılması;
- Sənaye və digər qurumların bu resursların təmininə cəlb edilməsi;
- Məktəb və sənaye işbirliyinin yaradılması;
- Peşə məktəblərinin proqramlarının yenidən qurulması mexanizmin tətbiqində hökumət, sahibkar, həmkarlar birliyi tələbə və müəllimlərdən formalaşan heyətin qurulması;
- Peşə standartlarının müəyyən olunması;
- Ehtiyac duyulan ixtisasa önəm verilməli;
- Sənaye tətbiq mexanizmi qurulmalı;
- Almaniya dual sistemi Azərbaycanda tətbiq olunmalı;
- Peşə məktəblərindən ali təhsil məktəblərinə keçid asanlaşmalı;
- Tələbə və müəllimlərin ölkə daxilində və xaricdə təkmilləşməyə göndərilməli;
- Xarici dil biliyinə önəm verilməli;
- Peşə məktəbləri məzunlarına mikro kreditlər verilməlidir.

Ən önəmlisi "Peşə məktəbləri Məmləkət Məsələsi" devizi ilə bu məsələnin önəmini ictimailəşdimək lazımdır.

MİNİMUM ƏMƏKHAQQININ ARTIRILMASI

# ƏHALİNİN RİFAHINA NECƏ TƏSİR GÖSTƏRƏCƏK?

i.e.d., prof. Ümüdvar Əliyev







ƏKSƏR ÖLKƏLƏRDƏ TƏTBİQ OLUNAN **MİNİMUM ƏMƏKHAQQININ HƏDDİ** ÖLKƏLƏRİN İQTİSADİ İNKİŞAF SƏVİYYƏSİNİN GÖSTƏRİCİLƏRİNDƏN HESAB OLUNUR.

Minimum əməkhaqqı sabit bir göstərici olmayıb ölkələrin iqtisadi inkişaf səviyyəsinə uyğun olaraq artırılır və müvafiq olaraq əhalinin aztəminatlı hissəsinin əmtəə və xidmətlərə olan tələbatının yaxşılaşdırılmasının əsas mənbəyi kimi çıxış edir.

Ölkəmizin müstəqillik qazandıqdan sonra qarşısında duran ən mühüm vəzifələrdən biri də dünyanın qabaqcıl ölkələrinin təcrübəsindən faydalanmaqla milli iqtisadi inkişafın səviyyəsinə uyğun əhalinin həyat və güzəranın yaxşılaşdırılmasıdır. Ölkəmizdə müstəqil-lik illərindən başlayaraq, xüsusilə son 16 ildə əhalinin sosial rifahının yaxşılaşdırılması cənab Prezident İlham Əliyevin diqqət mərkəzində olmuşdur. Bu illər ərzində əməkhaqları 7 dəfə, minimum əmək haqqı isə 6,5 dəfə artırılmışdır. Əhalinin aztəminatlı kateqoriyasının həyat səviyyəsi ölkədə son dövrlərdə həyata keçirilən uğurlu sosial siyasət nəticəsində nəzərəçarpacaq dərəcədə yaxşılaşdırılmışdır. Belə ki, 2019-cu ildə az təminatlı əhalinin sosial vəziyyətinə birbaşa təsir edən minimum əməkhaqqı iki dəfə artırılmışdır. 2019-cu il martından minimum əməkhaqqı 38,5% artırılaraq 130 manatdan 180 manata, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin növbəti sərəncamı ilə isə 2019-cu ilin sentyabrın 1-dən minimum əməkhaqqının səviyyəsi 40%-ə qədər artırılaraq 250 manata çatdırılmışdır.

Həmin ilin oktyabrın 1-dən isə əmək pensiyalarının minimum məbləğinin 160 manatdan 200 manata çatdırılması aztəminatlı əhalinin həyat səviyyəsinin yüksəldilməsinə ciddi təsir göstərən amillərdən hesab olunur.

Minimum əməkhaqqının ölkənin iqtisadi inkişaf səviyyəsinə uyğun olaraq artırılması ölkədə fasiləsiz həyata keçirilən sosial siyasətin prioritetlərindəndir. Minimum əmək-haqqının artımı 950 min vətəndaşı əhatə edəcək. Onların 600 min nəfəri dövlət sektorunda çalışanlar, 350 min nəfəri isə özəl sektorda çalışanlardır. Bu artımın təmin edilməsi üçün dövlət büdcəsindən illik 780 milyon manat, 2019-cu ilin sentyabr-dekabr aylarında isə 245 milyon manat əlavə vəsait ayrılması təmin olunacaq. Minimum əməkhaqqının 2019-cu ildə iki dəfəyə yaxın artırılaraq 130 manatdan 250 manat səviyyəsinə çatdırılması nəticəsində onun işləyən əhali kateqoriyası üçün müəyyənləşdirilmiş 180 manat yaşayış minimumunu 40% üstələməsinə nail olunmuşdur. Minimum əməkhaqqının yaşayış minimumunu üstələməsi əhalinin aztəminatlı kateqoriyasının əmtəə və xidmətlərlə təminatında nəzərəçarpacaq kəmiyyət və keyfiyyət artımına səbəb olacaq. Pensiyaçıların minimum təqaüdünün 2019-cu il oktyabrından 160 manatdan 200 manata çatdırılması təqaüdçülər üçün cari ildə müəyyənləşdirilmiş 149 manat yaşayış minimumunu 51 manat, yaxud təxminən 30% üstələyir.

# 4,2 MİLYONDAN ÇOX İNSANIN **SOSİAL VƏZİYYƏTİ** YAXŞILAŞDIRMIŞDIR

*MİNİMUM ƏMƏKHAQQININ ARTIMI 950 MİN VƏTƏNDAŞI ƏHATƏ EDƏCƏK. ONLARIN 600 MİN NƏFƏRİ DÖVLƏT SEKTORUNDA ÇALIŞANLAR, 350 MİN NƏFƏRİ İSƏ ÖZƏL SEKTORDA ÇALIŞANLARDIR. MİNİMUM ƏMƏKHAQQININ ÖLKƏDƏ ORTA AYLIQ ƏMƏKHAQQININ 50%-i NİSBƏTİNDƏ OLMASINI TÖVSİYƏ EDİLİR.*







Minimum əməkhaqqının və pensiyanın minimum həddinin artırılması və onların yaşayış minimumunu əhəmiyyətli dərəcə də üstələməsi nəticəsində gəlirlərin artımı əhalinin aztəminatlı hissəsinin həyat səviyyəsinin yüksəldilməsinin əsas mənbələrindən hesab oluna bilər. Gəlirlərin artması nəticəsində aşağı keyfiyyətli məhsulların əhalinin istehlakının strukturundan tədricən çıxması onların sağlamlığının da yaxşılaşdırılmasına təsirsiz ötüşməyəcək. 2019-cu ildə minimum əməkhaqqının iki dəfə, bütövlükdə gəlirlərin artırılması ölkəmizdə dayanıqlı inkişafın təmin olunması nəticəsində mümkün olmuşdur. Son dövrlər həyata keçirilən uğurlu struktur islahatlarına uyğun mövcud iqtisadi potensialdan səmərəli istifadə mexanizminin yaradılması ölkə əhalisinin həyat səviyyəsinin yaxşılaşdırılması sahəsində çox ciddi problemlərin həllinə şərait yaradacaq. Minimum əməkhaqqı ilə orta aylıq əməkhaqqı arasında bir optimal nisbətin formalaşdırılması və tədricən ona yaxınlaşdırılması qarşıda duran sosial siyasətin strateji istiqamətlərindəndir. Beynəlxalq Əmək Təşkilatı minimum əmək haqqının ölkədə orta aylıq əməkhaqqının 50%-i, Avropa İttifaqı isə 60%-i nisbətində olmasını tövsiyə edir.

Ölkəmizdə yaxın gələcəyə, xüsusilə 2023-cü ilə qədər olan dövr üçün orta aylıq əməkhaqqının proqnozlaşdırılan artımını təmin etməklə minimum əmək haqqının da uyğun artımını təmin etmək proqnozlaşdırılır. "APA-Ekonomiks"-in Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin zərfinə istinadən verdiyi məlumata görə, ölkə hökumətinin proqnozlarına əsasən, 2019-cu ildə Azərbaycanda orta aylıq əmək haqqı 620.4 manat, 2020-ci ildə 716.7 manat, 2021-ci ildə 768.6 manat, 2022-ci ildə 809.2 manat, 2023-cü ildə isə 849.9 manat təşkil edəcək. Minimum əməkhaqqının, pensiyaların minimum həddinin, bütövlükdə gəlirlərin artımının səmərəliliyi əhalinin həyat səviyyəsinin yüksəldilməsi ilə ölçülür. Gəlirlərin artımı təkcə minimum əməkhaqqının və pensiyaların minimum həddinin artırılması ilə məhdudlaşmır. Dövlət və özəl sektorda çalışanların 2019-cu ilin 4-cü rübündə gəlirlərinin 25-40% artımı reallaşdırılır. Göründüyü kimi, tədavül dairəsində pul kütləsinin nəzərəçarpacaq artımı gözlənilədir. Pul kütləsinin artımına səbəb olan gəlirlərin artımı bütövlükdə iqtisadi inkişafla, iqtisadi artımla müşayiət olunmazsa, bu artımlar inflyasiya törədən amillərə çevrilə bilər. Gəlirlərin iqtisadiyyatın dövlət və qeyri-dövlət sektorunda büdcə ili ərzində pul bazarında bir neçə milyard manat artımı problem yaratmasının qarşısı milli iqtisadiyyat sektorlarının dayanıqlı inkişafının təmin olunması vasitəsi ilə alınması mümkündür. Gözlənilən 4%-lik inflyasiya ölkə əhalisinin, xüsusilə də aztəminatlı əhalinin zəruri yaşayış vasitələrilə təminatına ciddi təsir imkanına malik deyildir. Digər tərəfdən də 2019-cu ilin sonuna ÜDM-in 3%-lik artımı, xüsusilə zəruri yaşayış vasitələrinin əsas istehsalçıları olan qeyri-neft sektorunun 3%-lik artımı, 2019-cu ilin 9 ayı ərzində qeyri-neft sənayesinin 15%-dən, kənd təsərrüfatı istehsalının 7%-dən yüksək artım tempi dövriyyəyə daxil olacaq pulun əmtəə və xidmət örtüyünü təmin edə biləcəyindən inflyasiyanın yüksək səviyyəsi gözlənilən deyil. 2019-cu ildə çox ciddi sosial paket reallaşdırılmışdır. Minimum əməkhaqqının, pensiyaların, müavinətlərin və bütövlükdə əməkhaqlarının artımı 4,2 milyondan çox insanın sosial vəziyyətini yaxşılaşdırmışdır. Bütün bunlar bir daha göstərir ki, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən sosial siyasətin prioritet hədəfi əhalinin həyat səviyyəsinin yüksəldilməsidir.

# SOSİAL MÜAVİNƏTLƏR HAQQINDA

## QANUNVERİCİLİYƏ **ƏSASƏN...**

*SOSİAL MÜAVİNƏTLƏR, MÜƏYYƏN EDİLMİŞ QAYDADA AYRI-AYRI KATEQORİYA ŞƏXSLƏRƏ SOSİAL YARDIM GÖSTƏRİLMƏSİ MƏQSƏDİLƏ AYLIQ VƏ YA BİRDƏFƏLİK ÖDƏNİLƏN PUL VƏSAİTLƏRİDİR.*

i.e.n., baş müəllim Rəşad Hüseynov

Müasir dövrdə iqtisadiyyatın inkişaf etdirilməsi və əhalinin rifah halının yüksəldilməsi sosial siyasətin prinsip və isiqamətlərindən asılı olaraq təkmil sosial müdafiə və sosial təminat sisteminin formalaşdırılmasını zəruri edir. Belə sistemin yaradılması iqtisadi və sosial sferalarda siyasətin uğurlu vəhdətinin təmin edilməsi ilə yanaşı, sosialyönümlü bazar iqtisadiyyatının formalaşmasının vacib şərtlərindən biri kimi çıxış edir.

Sosial təminatın əsas növlərindən biri sosial müavinətlərdir. Qanunvericiliyə əsasən, sosial müavinətlər, müəyyən edilmiş qaydada ayrı-ayrı kateqoriya şəxslərə sosial yardım göstərilməsi məqsədilə aylıq və ya birdəfəlik ödənilən pul vəsaitləridir. Eyni zamanda bir sıra sosial müavinətlərin ödənişi sosial sığorta ilə əlaqəli olduğu üçün onları qanunla nəzərdə tutulmuş hallarda tam və ya qismən itirilmiş əməkhaqqını və ya gəlirləri kompensasiya etmək, həm də müəyyən kateqoriya şəxslərə əlavə maddi yardım göstərmək məqsədilə aylıq, dövri və birdəfəlik təyin olunan pul ödənişləri kimi qiymətləndirirlər.

Ölkədə həyata keçirilən sosial siyasətin effektivliyinin artırılması, sosial müdafiə və sosial təminat sisteminin fəaliyyətinin əhalinin tələbatlarının təmin edilməsi istiqamətində səmərəli təşkilinin mühüm şərtlərindən biri əhalinin bu sistemin resursları ilə təminatı səviyyəsi və əhatə dairəsinin genişləndirilməsidir. Bu baxımdan sosial müavinətlərin əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasında müsbət təsirlərini şərtləndirən amillər kimi onların yetərli olması, yəni adekvatlığı vacibdir. Burada sosial müavinətlərin ayrı-ayrı şəxslərin, ailələrin və bütövlükdə cəmiyyətin tələbatlarının təmin edilməsi səviyyəsinə nə qədər uyğun olması, onların məbləğinin insanların ehtiyaclarının qarşılanmasında nə dərəcədə yetərli olması, eləcə də bu müavinətlərin təyin edilməsi və verilməsi qaydalarının uyğunluğu məsələləri nəzərdə tutulur. Müavinətlərin yetərliliyi daha çox məbləğ baxımından onların həcmi ilə müəyyən olunsa da, bu anlayışa sistem kontekstində iqtisadi və sosial aspektlərdən daha geniş şəkildə yanaşılır.

Sosial müavinət sisteminin iqtisadi yetərliyini şərtləndirən amillər ondan ibarətdir ki, bu sistem dövlətin iqtisadi siyasətinin çox mühüm prioritetləri kimi məşğulluğun təmin edilməsi,



### SOSİAL TƏMİNATIN ƏSAS NÖVLƏRİNDƏN BİRİ **SOSİAL MÜAVİNƏTLƏRDİR.**

işsizlik probleminin həlli, ölkədə insan kapitalının inkişafının təmin edilməsi istiqamətlərində ciddi təsir imkanlarına malikdir. Eyni zamanda sosial kontekstdə vergi-büdcə məsələlərinin optimallaşdırılması, sosial müavinətlərin səviyyəsi ilə insanların aktiv əmək fəaliyyəti dövründə ödədikləri ödənişlər, sosial vergilər arasında uyğunluğun təmin edilməsi də önəmlidir.

Bir çox müavinət növlərinin yetərliliyi ənənəvi olaraq onların pul ifadəsində həcmi, məbləği ilə qiymətləndirilir. Beynəlxalq təcrübədə fərdin əmək fəaliyyəti və sosial sığorta ödənişləri ilə bağlı olan müavinət növlərinin müəyyən edilməsində "minimum əvəzetmə əmsalı" əsas götürülür. Bu əmsal müavinətin vətəndaşın aldığı son əməkhaqqına olan müəyyən nisbət həddini ifadə edir və onun itirilmiş gəlirlərini hansı həcmdə əvəz edə bilməsini göstərir.

2006-cı ildə "Əmək pensiyaları haqqında" və "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikası Qanunlarının qəbul edilməsi respublikamızda sığorta-pensiya və sosial yardım, müavinət sisteminin bir-birindən ayrılması, sosial müdafiə və sosial təminat sisteminin fəaliyyətinin beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilməsi istiqamətində ciddi baza formalaşdırmışdır. Bunun nəticəsində respublikamızda sosial təminat sistemində bir sıra yardım və müavinət formaları ləğv edilərək vahid müavinət sisteminin əsası yaradıldı. Hazırda ölkəmizdə sosial müavinətlərin 2 növü müəyyən edilmişdir: aylıq və birdəfəlik müavinətlər. Təqdim edilmə əsaslarına

# SOSİAL MÜAVİNƏTLƏRİN **ADEKVATLIĞI...** //

Sosial müavinətlərin əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasında müsbət təsirlərini şərtləndirən amillər kimi onların yetərli olması, yəni adekvatlığı vacibdir.

## AZƏRBAYCAN RESPUBLİKASININ SOSİAL MÜAVİNƏT SİSTEMİ

### SOSİAL MÜAVİNƏTLƏR

### AYLIQ MÜAVİNƏTLƏR:

1. Yaşa görə müavinət
2. Dövlət qulluqçularına ömürlük müavinət
3. Əlilliyə görə müavinət
4. Sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara müavinət
5. Ailə başçısını itirməyə görə müavinət
6. Bəzi kateqoriya şəxslərə kommunal, nəqliyyat və digər xidmətlərə görə müavinət
7. 3 yaşınadək uşağa qulluğa görə müavinət
8. Bəzi kateqoriya şəxslərin 16 yaşadək (ümumtəhsil müəssisələrində əyani təhsil alanlar üçün 18 yaşadək) uşaqlarına müavinət
9. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına (himayəçilərinə) müavinət
10. Bir yaşınadək uşağı olan aztəminatlı ailələrə müavinət
11. Beşdən çox uşağı olan qadınlara verilən müavinət

### BİRDƏFƏLİK MÜAVİNƏTLƏR:

1. Radiasiya qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş şəxslərə hər il müalicə üçün müavinət
2. Uşağın anadan olmasına görə müavinət
3. Dəfn üçün müavinət
4. Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş tibbi və sosial yardıma ehtiyacı olan şəxslərə birdəfəlik pul müavinəti

### DÖVRÜ MÜAVİNƏTLƏR:

1. Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət
2. İşsizlik müavinəti

görə aylıq müavinətlərin bəzi növləri vardır ki, onlar ömürlük olaraq təyin edilir. Bunlar yaşa görə və dövlət qulluqçularına verilən ömürlük müavinətlərdir. Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət və işsizlik müavinəti isə dövri olaraq təyin edilir.

Müavinətlər o zaman yetərli hesab olunur ki, onların məbləği bu müavinətləri alan insanlara, heç olmasa, yaşayış üçün zəruri olan bütün əmtəə və xidmət növlərini, o cümlədən tibbi xidmətləri əldə etmək və istifadə etmək imkanları yaradaraq onların cəmiyyətdə sosial statuslarının qorunub saxlanılmasını və layiqli həyat səviyyəsini təmin etsin. Beynəlxalq Əmək Təşkilatının sosial təminat məsələləri üzrə 102 saylı Konvensiyasında sosial müavinətlərin yetərlilik səviyyəsini xarakterizə edən normalar kimi, sosial müavinətlərin minimum səviyyəsi, onların müəyyən edilməsi şərtləri və dövrləri əsas götürülür. Bu baxımdan müavinətlərin məbləği, ən azı, yoxsulluq həddindən və ya gəlirlərin minimum səviyyəsindən aşağı olmamalı və onları alan şəxslərin yaşayışı üçün zəruri olan əmtəə və xidmətlərə əlçatanlıq imkanlarını təmin etməli, onların rifahının, həyat səviyyəsinin pisləşməsinin qarşısını almaq, çətin maddi vəziyyətdən çıxa bilmələri üçün şərait yaratmalıdır. Bu baxımdan sosial müavinətlər təyin edilərkən onların məbləği ölkənin sosial-



### "MİNİMUM ƏVƏZETMƏ ƏMSALI"

**Beynəlxalq təcrübədə** fərdin əmək fəaliyyəti və sosial sığorta ödənişləri ilə bağlı olan müavinət növlərinin müəyyən edilməsində "minimum əvəzetmə əmsalı" əsas götürülür.

iqtisadi inkişaf səviyyəsi və potensialından asılı olaraq yaşayış minimumu, yoxsulluq həddi, minimum əməkhaqqı, ölkə üzrə orta aylıq əməkhaqqı, minimum pensiya səviyyəsi göstəricilərindən hər hansı birinə uyğun nisbətdə nəzərə alınmalıdır.

Ümumiyyətlə, cəmiyyətdə gedən transformasiya proseslərinin onun həyatına mənfi təsirlərinin aradan qaldırılmasında ehtiyacı olan əhali təbəqələrinə müxtəlif formada pul yardımlarının göstərilməsi müstəsna rol oynayır. Burada sosial təminat sisteminin vacib elementlərindən biri olan sosial müavinət və yardım sisteminin təsir imkanları genişdir. Son illər respublikamızda sosial müavinət və yardım sisteminin formalaşdırılması və inkişafı, onun fəaliyyətinin beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi istiqamətində xeyli işlər görülmüşdür. Bəzi müavinətlərin məbləğinin daha da artırılmasına və respublikamızın müavinət sisteminin təqaüd təminatı sistemi ilə əlaqəli şəkildə daha da təkmilləşdirilməsinə ehtiyac vardır.

# PENSİYA TƏMİNATI SİSTEMİNİN İSLAHATI

Azərbaycanda mövcud pensiya təminatı modelinin dünya ölkələrinin qabaqcıl təcrübələrinin nəzərə alınması ilə təkmilləşdirilməsi, ilk növbədə, ölkəmizdə bazar iqtisadiyyatına keçidin uğurla başa çatması və yeni reallıqlar müstəvisində vətəndaşların pensiya təminatının daha yetkin mexanizmlər vasitəsilə həyata keçirilməsinə imkan verən sistemin yaradılması ilə bağlıdır. Bu məqsədlə "2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası"ında qarşıya qoyulmuş hədəflər bütövlükdə sosial sahədə, o cümlədən vətəndaşların pensiya təminatı sahəsində beynəlxalq təcrübəyə uyğun dəyişikliklər strategiyasının həyata keçirilməsinə əlverişli zəmin yaratmışdır. Bu konsepsiyanın əhatə etdiyi dövrdə pensiya təminatı sahəsində dövlət siyasətinin əsaslarını müəyyənləşdirir. Belə ki, konsepsiyanın təhlili göstərir ki, hökumət real pensiya məbləği ilə iqtisadi mühit arasında asılılığı artırmağı, qeyri-formal məşğulluğun azaldılmasını, eyni zamanda vətəndaşların əməkhaqlarından ödədikləri sosial sığorta haqlarında ünvanlılığın təmin edilməsini hədəfləyir.

Bu məqsədlə Konsepsiyada, əsasən, aşağıdakı istiqamətlərdə fəaliyyətlərin göstərilməsi öhdəliyi müəyyənləşdirmişdi:

- Pensiya təminatının büdcə vəsaitlərindən asılılığın azaldılması;
- Sosial sığorta yığımının həcmi və təyin edilən pensiya məbləğinin həcmi arasında funksional asılılığın artırılması;
- Pensiya təminatı sisteminin maliyyələşdirilməsində dövlət öhdəliklərinin konkretləşdirilməsi;
- Pensiya hüququ yaradan faktor kimi "minimum yaş həddi" və "minimum əmək stajı" anlayışlarına paralel olaraq "minimum pensiya kapitalı" anlayışına keçilməsi;
- Sığorta olunmada könüllü yığım komponentinin tətbiqi imkanlarının yaradılması;
- Qeyri-dövlət pensiya fondlarının (institutlarının) təşkili imkanlarının yaradılması;

Göründüyü kimi, konsepsiyada pensiya təminatı sisteminin maliyyələşmə mexanizmlərinin təkmilləşdirilməsi yolu ilə büdcə asılılığının azaldılması, sığorta yığımı ilə pensiya ödənişi arasında mütənasibliyin təmin edilməsi və dayanıqlılığın artırılması qanuna dəyişikliklərin əsas mahiyyətini təşkil edir. Bütün bu kimi amillər nəzərə alınmaqla 2017-ci ilin ikinci yarısından etibarən Azərbaycanda əmək pensiyaları üzrə 3 pilləli sistemdən 2 pilləli sistemə keçirilməyə başlanılmış və bu mexanizmlərinin tələbinə uyğun olaraq pensiya məbləği aşağıdakı kimi hesablanması müəyyənləşdirilmişdir:

Yeni islahatlardan sonra da Azərbaycan Respublikasında əmək pensiyaları yaşa görə, əlilliyə görə və ailə başçısını itirməyə görə olmaqla 3 növə ayrılmışdır. Əmək pensiyasının minimum pensiya kapitalının isə aşağıda verilmiş düstur əsasında hesablanması təklif edilmişdir:

$$MPK = ƏPMM * T$$

| | Pensiyanın növü | Pensiyanın məbləğini müəyyənləşdirən amillər |
|---|---|---|
| 1 | Yaşa görə əmək pensiyası | Yaşa görə əmək pensiyasının sığorta hissəsi (SH)<br>Yaşa görə əmək pensiyasının yığım hissəsi (YH) |
| 2 | Əlilliyə görə əmək pensiyası | Əlilliyə görə əmək pensiyasının sığorta hissəsi (HS)<br>Əlilliyə görə əmək pensiyasının yığım hissəsi (YH) |
| 3 | Ailə başçısını itirməyə görə əmək pensiyası | Yaşa görə əmək pensiyasının sığorta hissəsi (SH) |

Şəkil 1. Azərbaycanda yoxsulluq həddi ilə minimal pensiya həddinin müqayisəli dinamikası, manatla




## ÖTƏN İLLƏR ƏRZİNDƏ HƏYATA KEÇİRİLƏN İSLAHATLAR //

Azərbaycanda müasir və sosial baxımdan yüksək səmərəyə malik pensiya təminatı sisteminin yaradılmasına və bu sahədə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində 2006-2018-ci illərdə əmək pensiyalarının orta aylıq məbləğinin 7,7 dəfə yüksəldilməsinə nail olunmuşdur. Belə ki, əgər 2006-cı ildə minimum pensiya 30 manat təşkil edirdisə, 2019-cu ildə bu rəqəm 200 manata çatdırılmışdır. Qeyd edək ki, minimal pensiya həddi müstəqqillik tarixində ilk dəfə yoxsulluq həddini üstələmişdir.

Şəkil 2. Pensiya növlərinə görə pensiya alanların sayının dinamikası, min nəfər




Burada:

- MPK – müraciət anına tələb olunan minimum pensiya kapitalı
- T - gözlənilən pensiya ödənişi müddəti (hazırda 144 aydır)
- ƏPMM – müraciət ilində qüvvədə olan əmək pensiyasının minimum məbləği

Hər bir qrup üzrə ölkəmizdə olan əmək pensiyaçılarının sayında baş vermiş dəyişikliklərin illər üzrə dinamikası aşağıdakı kimi olmuşdur.

Şəkil 2-dən də göründüyü kimi, 2019-cu ilin əvvəlinə ölkəmizdə pensiyaçıların sayı 1295.5 min nəfər olmuşdur ki, bunun da 58,4 faizini yaşa görə pensiyaçılar, 30,1 faizini əlliliyə görə və 11,5 faizini isə ailə başçısını itirdiyinə görə təyin edilmiş pensiyaçılar təşkil etmişdir. Onu da qeyd edək ki, 2007-ci illə müqayisədə 2019-cu ilin əvvəlində cəmi pensiyaçıların sayı 5,6 faiz, əliliyə görə pensiyaçıların sayı 39,0 faiz və ailə başçısının itirilməsinə görə pensiyaçıların sayı 7,4 faiz artmış, yaşa görə pensiyaçıların sayında isə 6,3 faiz azalma olmuşdur. Onu da qeyd edək ki, baxılan dövrdə əhalinin ümumi sayında 15 faizlik artım baş vermişdir.

# PENSİYA TƏMİNATI
## SİSTEMİNDƏ YENİLİKLƏR

*Pensiya təminatı sistemi dövlətin həyata keçirdiyi sosial müdafiə siyasətinin ən mühüm istiqamətlərindən biridir.*

i.ü.f.d., dos. Fərhad Mikayılov

### MÜSTƏQİLLİYİN ƏLDƏ EDİLDİYİ İLK İLLƏRDƏ

**Ölkə iqtisadiyyatının zəif inkişafı, maliyyə vəsaitlərinin çatışmazlığı səbəbindən pensiya təminatı sistemində çətinliklər meydana çıxmış, eyni zamanda sovet dönəmindən qalmış sosial sığortaya əsaslanmayan pensiya təminatı sisteminin bazar iqtisadiyyatı ilə ciddi uyğunsuzluğu Azərbaycan Respublikası üçün çoxsaylı problemlərdən biri olmuşdur.**

1993-cü ildən başlayaraq Azərbaycan Respublikasında siyasi sabitlik bərqərar edilməklə əldə olunan dayanıqlı iqtisadi inkişaf əhalinin sosial müdafiəsinin gücləndirilməsinin əsas amilinə çevrilmiş, digər sahələrdə olduğu kimi, pensiya təminatı sistemində də davamlı olaraq islahatlar aparılmışdır.

Qeyd edək ki, yeni dəyişikliklərdən sonra vətəndaşın pensiya məbləği ilə onun əmək fəaliyyəti sığorta ödənişlərindən bilavasitə asılı olacaqdır. Mahiyyətinə və miqyasına görə, əhalinin sosial müdafiəsinin mərkəzi həlqəsi olan və mühüm makroiqtisadi təsir gücünə malik pensiya təminatı sistemi ölkə əhalisinin 13,3 faizini əhatə edərək əmək pensiyaçıları üzrə sosial öhdəliklərin icrasında vacib rol oynamaqla yanaşı, bu yeni dəyişikliklər formal məşğulluğun əhatə dairəsinin genişləndirilməsinə və kölgə iqtisadiyyatının da azalmasına xitmət etmiş olacaqdır. Bu da hazırkı şəraitdə məşğul əhali arasında pensiyaçılarla bağlı demoqrafik yükün azalmasına öz töhfəsini vermiş olacaqdır. Belə ki, beynəlxalq təcrübədə olduğu kimi, Azərbaycanda da pensiyaların maliyyələşdirilməsi həmrəylik, yığım, habelə bu modellərin birləşməsindən ibarət pensiya sistemləri əsasında həyata keçirilir. Həmrəylik sistemi hazırda işləyənlərin əsas etibarilə ödədikləri sosial sığorta haqqı hesabına yaşlı nəslin pensiyalarının maliyyələşdirilməsini nəzərdə tutur. Hazırda dünyada qlobal iqtisadi və demoqrafik amillərin təsiri ilə pensiya təminatı sahəsinin inkişafı tendensiyaları bütövlükdə bu sahənin maliyyə dayanıqlığının etibarlı şəkildə təmin olunması istiqamətində görülən tədbirlərlə müəyyənləşir. Azərbaycandakı demoqrafik yükün təsirlərini isə aşağıdakı qrafikdən daha aydın görmək olar.

Şəkil 3-dən göründüyü kimi, pensiyaçıların sayı 2010-cu ildə muzdlu işçilərin sayına daha yaxın olmuş və muzdlu işçilərin 94,6 faizinə bərabər olmuşdur. Lakin son illərdə pensiya təminatında sığota sisteminin tətbiqinin əhalinin qeyri-formal məşğulluqdan formal məşğulluğa olan meyilliyinin artasına səbəb olmuşdur ki, son nəticədə muzdlu işçilərin sayının artımına da öz təsirini göstərmişdir. Nəticədə 2018-ci ilin sonuna olan məlumata görə, pensiyaçıların məşğulluqda və muzdla işləyənlərin sayında xüsusi çəkisi aşağı düşmüşdür. Sosial sığorta sistemində aktiv iştiraka marağın getdikcə artması fərdi uçot sistemində fərdi şəxsi hesabı olanların sayının da artmasına öz töhfəsini vermişdir. Belə ki, 2019-cu il 1 yanvar tarixinə Dövlət Sosial Müdafiə Fondunun fərdi uçot sistemində qeydiyyata alınan sığortaolunanların sayı ötən ilin müvafiq dövrü (3566745 nəfər) ilə müqayisədə 169806 nəfər və ya 4,8 faiz artaraq 3736551 nəfərə çatmışdır.

Şəkil 3. Pensiya növlərinə görə pensiya alanların sayının dinamikası, min nəfər




Əmək pensiyasında sığorta sistemindən fərqli olaraq, yığım sistemində hazırda işləyənlərin icbari, yaxud könüllü qaydada ödədikləri sosial sığorta haqqı cari pensiya xərclərinə sərf olunmur və əlavə gəlir əldə etmək məqsədilə müxtəlif investisiya proqramlarına yönəldilərək idarə olunur.

Digər bir dəyişiklik isə fərdi hesabda cəmlənən məcburi dövlət sosial sığorta haqqının (MDSSH) proporsiyası üzrə aparılmışdır. Belə ki, yeni qaydalara əsasən, sığortaolunanlar tərəfindən ödənilmiş MDSSH-nin 90%-i fərdi hesabın sığorta hissəsində cəmlənir. Müqayisə üçün qeyd edə bilərik ki, 1 iyul 2017-ci il tarixinə qədər bu göstəricinin 50% fərdi hesabda və sosial sığorta ödənişinin digər 50 faizlik hissəsi isə DSMF-nin saxlanması, müavinətlərin ödənilməsi və s. istiqamətlərə sərf edilirdi.

Əmək pensiyasının baza hissəsinin ləğv edilməsinə bax-mayaraq, dövlət büdcəsi sistemin maliyyələşməsində bundan sonra da iştirak edəcəkdir. Beləki, qanunvericiliyə edilən dəyişikliklərə uyğun olaraq aşağıdakı kateqoriya pensiyaların tərkibi üzrə maliyyələşmənin əsas mənbəyi dövlət büdcəsi olacaqdır. Bunlar aşağıdakılardır:

- Əmək pensiyasının sığorta hissəsinin 1992-ci il yanvarın 1-dək qazanılmış pensiya kapitalına əsasən formalaşan hissəsi;
- Əmək pensiyasının sığorta hissəsinə əlavələr (bu əlavələr, əsasən, əhalinin aztəminatlı, fiziki məhdudiyyətli və xüsusi statuslu (milli qəhrəmanların və şəhidlərin ailə üzvləri kimi) şəxslərin pensiyasının sığorta hissəsini gücləndirmək məqsədilə edilir);
- Qulluq stajına görə əmək pensiyasına əlavələr;
- 01 iyul 2017-ci il tarixinədək pensiya təyinatı edilmiş vətəndaşların pensiyasının baza hissəsinin maliyyələşdirilməsi kimi xərcləri əhatə edir.

# ŞƏHİD AİLƏLƏRİNİN

## SOSİAL MÜDAFİƏSİ NECƏ TƏMİN EDİLİR?

i.f.d., dos. Elşən Məmmədov

**MİLLİ İQTİSADİ İNKİŞAF** MODELİ

Azərbaycanın milli iqtisadi inkişaf modelinin sosialyönümlü bazar iqtisadiyyatına əsaslanır.

**2019-CU İLİ "SOSİAL İSLAHATLAR İLİ" ADLANDIRMAQ OLAR**

Ölkə prezidenti tərəfindən 2019-cu ilin əvvəlindən bu günə kimi imzaladığı sərəncamlarla 2 vacib sosial paket əhaliyə təqdim olunub.

Azərbaycanda həyata keçirilən dövlətin sosial siyasətinin mərkəz nöqtəsində ölkə vətəndaşlarının sosial rifahının təminatı prinsipi durur. Bu prinsip ölkədə iqtisadi artımın, ilk növbədə, əhalinin rifah halının yüksəldilməsi və sosial müdafiəsinin daha da gücləndirilməsinə yönəldilməsi ilə bağlı davamlı işlərin aparılmasında öz təsdiqini tapır. Bütün bunlar isə Azərbaycanın milli iqtisadi inkişaf modelinin sosialyönümlü bazar iqtisadiyyatına əsaslandığını göstərir.

Bu modelin əsas mahiyyətini, sosial ədalətin və sosial müdafiənin təmin edilməsi, iqtisadi və sosial həyatın humanistləşməsini əks etdirən minimum sosial şəraitin yaradılması təşkil edir. Eyni zamanda modelin əsas xüsusiyyəti onun dayanıqlı sosial siyasət sisteminə əsaslanmasıdır. Bu siyasət əhalinin müxtəlif təbəqələrinin gəlirləri arasında yaranan fərqləri minimum səviyyəyə endirmək üçün dövlətin reallaşdırdığı yenidən bölgü mexanizmini, sosial müdafiə və məcburi sosial sığorta sisteminin inkişafını, minimum yaşayış səviyyəsinə təminatın yaradılmasını, mənzil təsərrüfatı sferasına subsidiyaların verilməsini və digər tədbirləri özündə ehtiva edir.

Bütövlükdə keçən 2019-cu ili "Sosial islahatlar ili" adlandırmaq olar. Belə ki, ölkə prezidenti tərəfindən cari ilin əvvəlindən bu günə kimi imzaladığı sərəncamlarla 2 vacib sosial paket əhaliyə təqdim olunub.

Dövlət tərəfindən bu ilin əvvəlində həyata keçirilən və müvafiq artımların təmin edilməsinə il ərzində 1 milyard 900 milyon manat həcmində əlavə maliyyə yükünü özündə ehtiva edən 1-ci sosial paket bütövlükdə 3 milyona qədər vətəndaşın rifahına təsir etdi.

Respublika Prezidenti İlham Əliyevin 2019-cu il iyunun 18-də verdiyi sərəncamda öz əksini tapan 2-ci sosial paket minimum pensiya məbləğinin yenidən artırılması üçün əhəmiyyətli qanunvericilik dəyişikliyi isə insanların rifahının yüksəldilməsi istiqamətində atılan mühüm addımların davamlı olmasını göstərir. Prezidentin "Aylıq minimum əməkhaqqının yüksəldilməsi haqqında" sərəncamına əsasən, 1 sentyabr 2019-cu il tarixindən ölkədə minimum əməkhaqqı 40%-ə yaxın artaraq 250 manat oldu. Buna qədər isə fevral ayının 8-də ölkə prezidenti əməkhaqqının minimum məbləğini 130 manatdan 38,5% qaldırmaqla 180 manata çatdırılmasını təmin etmişdir. Həmçinin bu sərəncama əsasən 1 oktyabr tarixindən minimum pensiyaların həcmi də 160 manatdan 200 manat səviyyəsinə qədər, yəni 25% artmışdır.

Bu istiqamətdə həyata keçirilən dövlət sosial siyasətinin nəticəsi olaraq əhalinin həssas sosial qruplarının sosial müdafiəsi daha çox yüksəlmiş oldu.

Belə ki, son iki ildə Qarabağ müharibəsində əlil olmuş insanların və həmçinin şəhid ailələrinin sosial təminatının yaxşılaşdırılması, bu qrupdan olan vətəndaşların sağlamlığının

28 YANVAR 2019-cu İL TARİXLİ FƏRMANDA **BİRDƏFƏLİK TƏZMİNAT ALMAQ HÜQUQU OLAN ŞƏHİD AİLƏLƏRİN** ƏHATƏ





və yaşayış şəraitinin yüksəldilməsi ilə bağlı bir sıra vacib tədbirlər həyata keçirilmişdir.

Respublika Prezidenti tərəfindən 2018-ci il 19 aprel tarixli Fərmanın imzalanması şəhid ailələrinin yüksək səviyyədə sosial müdafiəsinin təminatının ölkə başçısının sosial siyasətində başlıca istiqamətlərdən biri olduğunun praktiki nümunəsidir. Belə ki, bu sənəd 1997-ci il avqustun 2-dək ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə bu Fərmanla müəyyənləşdirilmiş qaydada 11 min manat həcmində birdəfəlik ödənişin verilməsini nəzərdə tutur.

Prezident İlham Əliyevin 28 yanvar 2019-cu il tarixində imzaladığı yeni Fərmanla isə birdəfəlik təzminat almaq hüququ olan şəhid ailələrin əhatə dairəsi daha da genişləndirilmiş oldu. Həmin fərman nəticəsində əlavə olaraq şəhid olmuş 2264 hərbi qulluqçunun, 461 şəhid olmuş polisin vərəsələrinə də 11 min manat birdəfəlik təzminat ödəniləcək. Bununla da birdəfəlik ödəmələr alan şəhid vərəsələrinin sayı 12 min 268 nəfər və onlara ödəniləcək məbləğ isə 135 milyon manat oldu.

Ölkə prezidenti həmin gün ölkəmizin müstəqilliyinin, ərazi bütövlüyünün və konstitusiya quruluşunun müdafiəsi nəticəsində əlil olmuş insanların və həmçinin şəhid ailələrinin yaşayış şəraitinin yaxşılaşdırılması üçün əlavə sosial tədbirlərin görülməsi haqqında müvafiq sərəncam da imzalamışdır. Bu sərəncama əsasən, şəhid ailələri və Qarabağ müharibəsi əlillərinin mənzil təminatının yaxşılaşdırılması üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 35 milyon manat həcmində vəsait ayrılıb.

Ötən dövr ərzində şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə ümumilikdə 6654 mənzil təqdim edilib, o cümlədən həmin kateqoriyalardan olan şəxslərə ötən il planlaşdırıldığından 3 dəfə çox olmaqla 626 mənzil verilib. Cari il ərzində isə ən az 800 mənzilin bu kateqoriyadan olan şəxslərə təqdim olunması planlaşdırılıb.

Bütün bunlarla yanaşı Prezidentin 2019-cu il 30 yanvar tarixində imzaladığı Fərmanda şəhid ailəsi üçün verilən Prezident təqaüdünün aylıq miqdarı artırılaraq 1 fevral 2019-cu il tarixindən 300 manata çatdırılmışdır. Bu isə şəhid ailələrinə dövlətin diqqət və qayğısının növbəti nümunəsidir.

2020-ci ilin dövlət büdcəsində də ənənəvi olaraq sosial yönümlülük təmin ediləcəkdir. Belə ki, büdcə xərclərinin tərkibində sosial istiqamətli xərclərin xüsusi çəkisinin 40,7% olması planlaşdırılır. Bu isə 2019-cu ilə nisbətən 9,9% daha çoxdur.

Qeyd olunanlar əhalinin sosial müdafiəyə daha çox ehtiyacı olan sosial qrupların, o cümlədən şəhid ailələrinin sosial rifahının yüksəldilməsi istiqamətində dövlət tərəfindən həyata keçirilən tədbirlərin 2020-ci ildə də davam etdirilməsini şərtləndirir.

DAİRƏSİ DAHA DA GENİŞLƏNDİRİLMİŞDİR. ■ BİRDƏFƏLİK ÖDƏMƏLƏR ALAN ŞƏHİD VƏRƏSƏLƏRİNİN SAYI - 12268 NƏFƏR



# ƏMƏKHAQQI SİSTEMİNDƏ SON İSLAHATLAR



Son beş ildə dünya iqtisadiyyatı müəyyən problemlərlə üzləşib. Bu sırada ilk öncə dünya bazarlarında xammala olan qiymətlərin kəskin düşməsini qeyd etmək istərdim. Bunun nəticəsində bir çox ölkələr ciddi çətinliklərlə üzləşmişdi: büdcə gəlirləri azalmış, yerli pul vahidləri dəyərdən düşmüş, istehlak mallarına qiymətlər qalxmış və əhalinin real gəlirləri azalmışdı.

Qeyd olunan neqativ proseslərin qarşısının alınması üçün Respublikada cənab Prezidentin rəhbərliyi ilə ciddi tədbirlər görməyə başlamışdı. 2019-cu il bu islahatların dönüş nöqtəsinə çevrilmişdir. İslahatlar bu ilin əvvəlindən başlayaraq iki istiqamətdə aparılmışdır: dövlət və qeyri-dövlət məşğulluğu sahəsində. Bu yöndə əsas diqqət əməkhaqqının hesablanması sistemində şəffaflığın təmin edilməsi və onun yüksəldilməsinə yönəldilib.

2019-cu il yanvar ayının birindən başlayaraq aşağıdakı yeni qaydalar tətbiq edilib: qeyri-dövlət sektorunda işləyən fiziki şəxslərin muzdlu işdən aylıq gəlirlərindən, 2019-cu ilin yanvar ayından etibarən 7 il müddətinə əməkhaqqı məbləği 8000 AZN-dək olan şəxslər gəlir vergisindən azad edilir. Nəzərə alsaq ki, artıq 2019-cu ilin yanvar-iyul aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 587,7 manat təşkil etmişdi, bu qeyri-dövlət sektorunda çalışanlar üçün real əmək haqqının, ən azı, 14%, yəni 83 manat artması deməkdir.

Növbəti böyük bir islahat minimum əməkhaqqının artırılması ilə bağlıdır. Prezident İlham Əliyevin bu il iyunun 18-də imzaladığı sərəncamla büdcədən maliyyələşən bir sıra təşkilatlarda aylıq maaşın aşağı həddi 250 manat səviyyəsinə çatdırılıb. Bu sərəncama əsasən Azərbaycanda sentyabrın 1-dən 950 minədək işçinin minimum maaşı təxminən 40% artırılmışdır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatına əsasən, əməkhaqları artırılan işçilərin 600000 (altı yüz min) dövlət sektorunda, 350000 (üç yüz əlli min) isə özəl sektorda işləyənlərdir.



## ÖLKƏ İQTİSADİYYATINDA MUZDLA ÇALIŞAN AYRI-AYRI İŞÇİLƏRİN QRUPLARINDA ORTA AYLIQ NOMİNAL ƏMƏKHAQQI 20-40% ARASINDA ARTMIŞDI.

Bildiyimiz kimi, 2019-cu ilin əvvəlində prezidentin sərəncamı ilə minimum əməkhaqqı 130 manatdan 180 manata artırılmışdı. Beləliklə, bir il ərzində respublikada minimum aylıq əməkhaqqı 130 manatdan 250 manata çatdırılmışdır. Bununla, əmək sahəsində, bütövlükdə bütün iqtisadiyyatda aparılan ciddi islahatların nəticəsində bir il ərzində minimum əməkhaqqı 93% artmışdı. Bütün bu addımların nəticəsində ölkə iqtisadiyyatında muzdla çalışan ayrı-ayrı işçilərin qruplarında orta aylıq nominal əmək haqqı 20-40% arasında artmışdı. Respublika Prezidentinin 2019-cu ilin əvvəlindən apardığı köklü islahatların reallaşdırılması üçün büdcədən 3 milyard manata yaxın əlavə vəsait ayrılması gözlənilir.

Əməkhaqqı sahəsində aparılan son islahatların nəticəsində kölgə iqtisadiyyatının xeyli daralmasına, əhalinin maddi və sosial rifahının ciddi şəkildə yaxşılaşdırılmasına gətirib çıxaracaq. Bu islahatlar bir daha onu göstərdi ki, Azərbaycan hökumətinin və Prezidentin iqtisadi siyasəti sosialyönümlü xarakter daşıyır və əhalinin həyat səviyyəsinin artırılması onun daima diqqət mərkəzindədir. Bununla əlaqədar qeyd etmək istərdim ki, Adam Smitin məşhur tezisi - dövlətin varlığı onun xalqının varlığı ilə ölçülməsi, respublikamızın apardığı iqtisadi siyasətdə öz əksini tapır. Xalqın rifahının durmadan artırılması iqtisadiyyatda, D.Keynsin sözləri ilə desək, səmərəli tələbatın formalaşmasını təmin edir və bumeranq effekti yaradır - bir tərəfdən, əməyə olan motivasiyanı, məhsuldarlığı qaldırır, digər tərəfdən isə iqtisadiyyata qoyulan investisiyaların və istehsal olunan məhsulların həcmini artırır.

Dünya iqtisadiyyatının, bizim yaxın və uzaq qonşularımızın sosial-iqtisadi çətinliklərlə üzləşdiyi bir vaxtda, bu kimi sosialyönümlü islahatların aparılması ölkəmizin iqtisadi strategiyasının insan, cəmiyyət yönümlü olmasını bir daha təsdiqləyir və əminliklə demək olar ki, onun inkişafının daha sürətli olmasını təmin edir.





**i.e.f.d., dos.**
Əliağa İsmayılzadə



# MƏNZİL SİYASƏTİ HAQQINDA

**i.f.d., baş müəllim Xətai Alıyev**

## MƏNZİL SAHİBİ OLMAQ

### FƏRDİ VƏ AİLƏVİ RİFAH GÖSTƏRİCİSİ

***gələcəyə investisiya qoyuluşu kontekstində dəyərləndirilərkən olduqca əhəmiyyətli məsələlərdən biri hesab olunmalıdır.***

Eyni zamanda şəxsi mənzilə sahib olmağın insanlara müsbət psixoloji təsiri olduğu da diqqətdən kənarda qalmamalıdır. Xüsusilə müəyyən qədər ənənəvi düşüncə tərzini qoruyub saxlayan və ailə institutlarının güclü olduğu Azərbaycan cəmiyyətində bu məsələ daha ciddi bir problem olaraq insanların davranışında öz əksini tapır. Mənzil sahibi olmaq üçün insanlar uzun müddət ciddi psixoloji gərginlik yaşayır və hətta bəzən zəruri hesab olunan xərcləri (təhsil və səhiyyə xərcləri kimi) ikinci plana ataraq yığımlarını artırmağa çalışır. Aparılan müşahidələr qeyd olunan məsələnin həm insanların gec ailə qurmasında, həm də boşanmaların sayının artmasında əhəmiyyətli faktorlardan biri olduğunu göstərir. Bu isə mənzil təminatında zəif gəlirə sahib ailələrin dəstəklənməsini, insanların daha rahat mənzil sahibi olmasına xidmət edəcək siyasətin yerinə yetirilməsini zəruri edir.

Mənzil siyasətinin doğru hazırlanılması və həyata keçirilməsi həm mikro, həm də makro səviyyədə ciddi əhəmiyyət kəsb edir. Məsələyə makro çərçivədən baxıldıqda, ilk növbədə, mənzil siyasəti təhlükəsizliyin təmin olunması və yaşayış yerlərinin möhkəmliyinə nəzarət edəcək xüsusiyyətə sahib olmalıdır. Təbii fəlakətlər (xüsusilə zəlzələ) zamanı bu istiqamətdə boşluqların ağır nəticələr yaradacağı heç kimdə şübhə yaratmamalıdır. Bundan əlavə, makro səviyyədə mənzil siyasəti hazırlanarkən istehsal faktorlarının paylanılması və hərəkətinin diqqətə alınması, resursların effektiv bölüşdürülməsinin nəzarətdə saxlanılması, yaşayışın davamlılığı üçün zəruri hesab olunan infrastrukturların (nəqliyyat, enerji təminatı, su, kanalizasiya və s.) mövcudluğu və potensial tələbi qarşılayacaq gücdə olub-olmamasının qiymətləndirilməsi zəruridir. Makro çərçivədə nəzərə alınmalı olan daha bir amil isə mənzil siyasətinin ətraf mühitə dəyən zərəri minimallaşdıracaq şəkildə qurulmasıdır.

Makro amillər nə qədər əhəmiyyətli olsa da, mənzil siyasətinin nüvəsində dayanan əsas məqsəd mənzil sahibi olmağın hər kəs üçün əlçatan hala gətirilməsi, xüsusilə də insanlar arasında dəstəyə ən çox ehtiyacı olan qrupların müəyyən olunması və dəstəklənməsidir. Yuxarıda da qeyd olunduğu kimi, mənzil sahibi ola bilməməyin (və gələcəkdə sahib olmaq imkanına inanmamağın) mikro çərçivədə təsirləri çox qısa zamanda hiss olunur və öz mənfi nəticələrini büruzə verir. Buna görə də həssas qrupların müəyyən olunması və dəstəklənilməsi sosial siyasət çərçivəsində mənzil siyasətinin əsas prioriteti olaraq qalmaqda davam edir.

Azərbaycan Respublikası müstəqilliyini yenidən qazandıqdan sonra mənzil siyasətində ən əhəmiyyətli hadisə 16 sentyabr 2005-ci ildə ölkə Prezidenti Cənab İlham Əliyevin 299 nömrəli Fərmanına uyğun olaraq Azərbaycan İpoteka Fondunun yaradılması oldu. Fonda 25 dekabr 2017-ci il tarixli Fərmanla Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu adı altında qeyri-kommersiya hüquqi şəxs statusu verilib. Fondun ən əsas vəzifəsi ölkə əhalisinin mənzilə olan tələbatını ödəmək və yaşayış şəraitini yaxşılaşdırmaq məqsədilə ipoteka (o cümlədən güzəştli şərtlərlə) krediti verməkdir. Kreditin verilməsi üçün ilkin şərtlər aşağıdakı cədvəldə əks olunmuşdur.





**1. MÖVCUD MƏNZİL SİYASƏTİNİN ƏSAS MƏQSƏDİ OLAN "ƏN ÇOX EHTİYACI OLANI DƏSTƏKLƏMƏK" PRİNSİPİNİN HƏYATA KEÇİRİLMƏSİDİR.**

**2. MƏNZİL SİYASƏTİNDƏ EFFEKTİVLİYİN ARTIRILMASI ÜÇÜN "ƏN ÇOX EHTİYACI OLAN" İNSANLAR ƏSAS PRİORİTETDƏ OLMALIDIR VƏ İLKİN ÖDƏNİŞ MƏSƏLƏSİNƏ YENİDƏN BAXILMASI VACİBDİR.**

Minimal ilkin ödənişin 10-15% (müvəkkil banklarda, adətən, ilkin ödəniş faizi daha yüksəkdir) olaraq müəyyən olunması kifayət qədər yığıma sahib olmayan əksər ehtiyac sahibi insanları bu imkandan faydalanmaqdan məhrum edir. Bundan əlavə, şərtlərdən ortaya çıxan digər əsas məhdudiyyətlər kredit üzrə müəyyən olunan ödənişin borcalanın (borcalanların) aylıq məcmu gəlirinin 70%-dən çox olmaması, hər bir ailə üzvü üçün yaşayış minimumunun, ən azı, 50%-i miqdarında əlavə xərcin kreditin maksimum məbləği müəyyən olunarkən nəzərə alınması və son ödəniş tarixinin borcalanın (borcalanların) pensiya həddini keçməməsidir.

Qeyd olunan məhdudiyyətlər mənzil siyasətinin effektivliyini azaltdığı üçün alternativ yanaşmanın tətbiqi zəruri idi. Bu məqsədlə ölkə prezidentinin 11 aprel 2016-cı il Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyi yaradılmışdır. Qaydalara əsasən, Agentlik mənzilləri inşa edərək bazar qiymətindən aşağı qiymətə müəyyən xüsusi kateqoriyalı insanlara təklif edir. Ödəniş nağd və ya İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına güzəştli şərtlərlə (azı 10% minimal ödəniş) həyata keçirilə bilər. Agentliyin yaradılmasında əsas məqsəd vətəndaşlara kiçik həcmli (80-100 manatdan başlayaraq) aylıq ödənişlərlə mənzil sahibi olmaq imkanı yaratmaqdır. Bununla belə, müşahidələr Agentlik tərəfindən təklif olunan mənzillərə tələbin yüksək olduğunu göstərir. Mənzil alışında gəlir səviyyəsindən asılı olmayaraq müəyyən olunmuş kateqoriyaya aid olan hər bir şəxs iştirak edə bilər. Bu isə mövcud mənzil siyasətinin əsas məqsədi olan "ən çox ehtiyacı olanı dəstəkləmək" prinsipinin həyata keçirilməsidir. Doğrudur, "ən çox ehtiyacı olan" anlayışı mücərrəddir və bu qrupları müəyyən etmək kifayət qədər çətindir. Lakin istənilən halda gəlir səviyyəsi kifayət qədər yüksək olan insanların güzəştli şərtlərdən istifadəsini məhdudlaşdıran mexanizmin tətbiqinə ehtiyac var.



| Şərtlər | İpoteka kreditləri | Güzəştli ipoteka kreditləri |
|---|---|---|
| Maksimal məbləğ | 150 000 AZN | 100 000 AZN |
| Maksimal müddət | 25 il | 30 il |
| Minimal ilkin ödəniş | 15% | 10% |
| **Maksimal illik faiz dərəcəsi:** | | |
| Zəmanət verilməmiş kreditlər üzrə | 8% | 4% |
| Zəmanət verilmiş kreditlər üzrə | 7% | 3.7% |

*Qaynaq:* https://mcgf.az/menu/46 , 10.11.2019

Hazırda əhalinin bir qismi mənzil siyasəti çərçivəsində yaradılan imkanlardan yararlanmaqda çətinlik çəkir. Əsas səbəb isə ilkin ödənişin tələb olunması və aylıq ödənişlər üçün sabit gəlirə sahib olmaqdır. Bundan əlavə, güzəştli kateqoriyaya aid olmaq da əksər "ən çox ehtiyacı olan" insanlar üçün də əlçatan deyil. Son illərdə tətbiq olunan "kirayə mənzil" mexanizmi üçün də ilkin ödəniş (aylıq məbləğin, ən azı, 12 misli miqdarında) tələb olunur. Mənzil siyasətində effektivliyin artırılması üçün "ən çox ehtiyacı olan" insanlar əsas prioritetdə olmalıdır və ilkin ödəniş məsələsinə yenidən baxılması vacibdir. "Ehtiyaclılıq" və həssaslıq səviyyəsinin müəyyən olunması üçün yeni mexanizmlərin axtarışı zəruridir.

# QİDA TƏHLÜKƏSİZLİYİ

*QİDA TƏHLÜKƏSİZLİYİ ƏRZAQ TƏHLÜKƏSİZLİYİ KİMİ ÖLKƏNİN MİLLİ TƏHLÜKƏSİZLİYİNİN BİR HİSSƏSİDİR...*

**i.e.n., dos.** Asiman Quluzadə

Ərzaq təhlükəsizliyi ölkə əhalisinin qida ilə təminatı deməkdirsə, qida təhlükəsizliyi bu qidanın sağlam olmasıdır. Əhalinin səhhəti və sağlığı qida təhlükəsizliyindən birbaşa asılıdır. Zərərli qida daha təhlükəlidir. Əhalinin sağlamlığı üçün qida təhlükəsizliyi sosialyönümlü əsas vəzifələrdəndir.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) 2018-ci il üçün hesabatına əsasən, dünya əhalisinin hər on nəfərindən biri qida məhsullarından zəhərlənir. Qida məhsullarından zəhərlənib həyatını itirənlərin 30 faizi beş yaşınadək uşaqlardır. Dünyanın hər bir qitəsində qida mənşəli xəstəliklərə yoluxma və qida zəhərlənməsi hallarının artması qeydə alınır. Qida mənşəli xəstəliklər və zəhərlənmə halları həm əhalinin sağlamlığına və rifahına mənfi təsir göstərir, həm də fərdlər, ailələr, təsərrüfat subyektləri və ölkələr üçün ağır iqtisadi nəticələrə gətirib çıxarır.

Beləliklə, qida təhlükəsizliyi cəmiyyətin inkişafında, gələcək nəsillərin sağlamlığında, insan genofondunun qorunmasında, iqtisadi məhsuldarlığın təmin olunmasında xüsusi əhəmiyyət kəsb edir. Qida və kənd təsərrüfatı məhsulları ticarətinin qloballaşması bu məhsulların daha əlçatan və rəqabətədavamlı olması, ölkəyə faydalar verməklə yanaşı, qida mənşəli xəstəliklərin daha geniş miqyasda başvermə və yayılma ehtimalını da artırır.

## ÜQT GÜNÜ - 7 İYUN 2019

**İlk dəfə Ümumdünya Qida Təhlükəsizliyi Günü 7 iyun 2019-cu ildə "Qida təhlükəsizliyi hər kəsin işi" şüarı altında keçiriləcəkdir.**

Qida Təhlükəsizliyi Gününü istehlakçılara, istehsalçılara və hökumətlərə məlumatlılığı artırmaq və təşviqetmə mövzusunda bir fürsəti təmin edəcəkdir. Təhlükəsizlik istehlakçı, hökumətlər və istehsalçılar arasında etimad əlaqəsinə əsaslanaraq qəbul edilir.

Dünyada qida təhlükəsizliyi sahəsində idarəetmə və nəzarət tədbirlərinin həyata keçirilməsində son dövrlərdə konseptual dəyişikliklər baş verir. Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) qida məhsullarının təhlükəsizliyinin və keyfiyyətinin təmin olunmasında kompleks yanaşmanın tətbiqi məqsədilə qida təhlükəsizliyinə nəzarət sistemlərinin əsas hədəflərini hazır məhsulun yoxlanılmasına deyil, qida zəncirinin bütün mərhələlərinə, yəni ilkin istehsal, istehsal, emal, dövriyyə və utilizasiya proseslərinə nəzarətin həyata keçirilməsini tövsiyə edir.

FAO və ÜST qida təhlükəsizliyi ilə bağlı bütün məsələlərdə elmə əsaslanan risklərin təhlilini əsas yanaşma kimi irəli sürürlər. Risklərin qiymətləndirilməsi insan sağlamlığı və həyatı üçün təhlükə ehtimalının və onun ciddiliyinin müəyyən edilməsində

> Ümumdünya Səhiyyə Təşkilatı
> dünya əhalisinin hər on nəfərindən biri qida məhsullarından zəhərlənir.

## AZƏRBAYCAN RESPUBLİKASINDA QİDA TƏHLÜKƏSİZLİYİNİN TƏMİN

AR Prezidentinin "Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2017-ci il 10 fevral tarixli Fərmanının icrası məqsədilə "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019 2025-ci illər üçün Dövlət Proqramı" hazırlanmışdır.

Dövlət Proqramından 2025-ci ilədək aşağıdakı nəticələrin əldə edilməsi gözlənilir:

- qida təhlükəsizliyinə dair norma və qaydaların mövcud beynəlxalq tələblərə uyğunlaşdırılması;
- laboratoriya analizlərinin nəticələri ilə bağlı dəqiqlik göstəricisinin 95%-ə çatdırılması;
- qida mənşəli zəhərlənmə hallarının sayının azaldılması;
- qida və kənd təsərrüfatı məhsullarının (inkişaf etmiş ölkələrin bazarları da daxil

vacib amildir. Risklərin qiymətləndirilməsi qida mənşəli təhlükələrin xarakterinə uyğun olaraq onların qarşısının alınması, aradan qaldırılması və ya ləğv edilməsi üçün təsirli müdaxilə tədbirlərinin və strategiyaların müəyyənləşdirilməsinə imkan yaradır.

## QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

Ölkədə qida təhlükəsizliyinə nəzarət sistemini təkmilləşdirmək, bu sahədə şəffaflığı artırmaq, pərakəndəliyi və təkrarlanmaları aradan qaldırmaq, habelə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə nəzərdə tutulmuş müvafiq tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 fevral tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi yaradılmışdır. AQTA qida məhsullarının təhlükəsizliyinə, baytarlıq və fitosanitar nəzarətinə dair normativ tənzimləməni, qida təhlükəsizliyi sahəsində fəaliyyət göstərən subyektlərin qeydiyyatını, qida təhlükəsizliyi, fitosanitar və baytarlıq sertifikatlarının verilməsini, qida məhsullarının ilkin istehsalı, tədarükü, istehsalı, emalı, qablaşdırılması, saxlanması, daşınması, dövriyyəsi (o cümlədən idxal-ixrac əməliyyatları) daxil olmaqla qida zəncirinin bütün mərhələlərində qida məhsullarının təhlükəsizliyinə, həmçinin qida məhsullarının, dövlət baytarlıq və fitosanitar nəzarətində olan yüklərin istehlakçılarının hüquqlarının müdafiəsinə dövlət nəzarətini, habelə müvafiq sahələrdə dövlət siyasətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi fəaliyyət göstərir.

## AZƏRBAYCAN QİDA TƏHLÜKƏSİZLİYİ İNSTİTUTU

Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə QTA tabeliyində yaradılmış publik hüquqi şəxs statuslu Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu qida məhsullarının təhlükəsizliyi sahəsində elmi-praktiki araşdırmalar aparır, elmi prinsiplərə əsaslanan risk qiymətləndirilməsi həyata keçirir, qida təhlükəsizliyi sahəsində normativ-texniki aktların layihələrini hazırlayır, qida məhsullarına dair beynəlxalq standartların qida məhsullarının istehsalçıları tərəfindən könüllü tətbiqi, qida məhsullarının təhlükəsizliyi göstəriciləri üzrə tədqiqat xidmətləri göstərir. İnkişaf etmiş dünya ölkələrində həm dövlət səviyyəsində, həm də müstəqil olaraq analoji institutlar mövcuddur. Qida sahəsində xüsusilə elmi araşdırmaların aparılmasında bu institutların çox böyük rolu var. Qida təhlükəsizliyi və qida sektoru ilə bağlı ən aktual məlumatları özündə əks etdirən AQTİ mətbu orqanı olan elmi-kütləvi "Süfrə" jurnalı nəşr olunur.

## "QİDA TƏHLÜKƏSİZLİYİ HAQQINDA" QANUN

AQTA tərəfindən "Qida təhlükəsizliyi haqqında" qanun layihəsi hazırlanır, həmçinin bir sıra qanun layihələrinə təkliflər hazırlanaraq Milli Məclisə təqdim olunub. "Yeyinti məhsulları haqqında", "Standartlaşdırma haqqında", "Sanitariya-epidemioloji salamatlıq haqqında", "Fitosanitar nəzarəti haqqında", "Baytarlıq haqqında" Azərbaycan qanunlarına bir sıra təkliflər hazırlanıb. AQTA tərəfindən qida təhlükəsizliyi və sağlam qidalanmanın təşviqi ilə bağlı istehlakçıların maarifləndirilməsi istiqamətində tədbirlər davam etdirilir. Cəmiyyətimizdə gedən inkişaf, yeni tendensiyalar, qida təhlükəsizliyi ilə bağlı ciddi dəyişiklikləri qaçılmaz edir.

### AZƏRBAYCAN QİDA TƏHLÜKƏSİZLİYİ İNSTİTUTUN TABELİYİNDƏ OLAN LABORATORİYALAR

| Bakı şəhərində yerləşən laboratoriyalar | Regional sınaq laboratoriyaları | |
|---|---|---|
| Milli Referens Laboratoriyası | Abşeron Regional Sınaq Laboratoriyası | Bərdə Regional Sınaq Laboratoriyası |
| Mərkəzi Baytarlıq Laboratoriyası | Sumqayıt Regional Sınaq Laboratoriyası | Tovuz Regional Sınaq Laboratoriyası |
| Mərkəzi Fitosanitar Laboratoriyası | Ucar Regional Sınaq Laboratoriyası | Lənkəran Regional Sınaq Laboratoriyası |
| Kompleks Müayinələr Laboratoriyası | Şamaxı Regional Sınaq Laboratoriyası | Salyan Regional Sınaq Laboratoriyası |
| | Quba Regional Sınaq Laboratoriyası | Sabirabad Regional Sınaq Laboratoriyası |
| | Qax Regional Sınaq Laboratoriyası | Beyləqan Regional Sınaq Laboratoriyası |
| | Xaçmaz Regional Sınaq Laboratoriyası | Cəlilabad Regional Sınaq Laboratoriyası |
| | Göygöl Regional Sınaq Laboratoriyası | Gəncə Regional Sınaq Laboratoriyası |

## EDİLMƏSİNƏ DAİR 2019–2025-ci İLLƏR ÜÇÜN DÖVLƏT PROQRAMI

olmaqla) ixracının artırılması;

- ixrac olunan qida və kənd təsərrüfatı məhsullarından idxalçı ölkələrin imtina etməsi hallarının minimuma endirilməsi;

- insanlar arasında zoonoz xəstəliklərə yoluxma hallarının sayının azaldılması;

- bitki mühafizəsi vasitələrindən yanlış istifadə ilə bağlı yaranan zəhərlənmə hallarının azaldılması;

- qida təhlükəsizliyi ilə bağlı aparılan fundamental və tətbiqi tədqiqatların sayının iki dəfə artırılması;

- qida və kənd təsərrüfatı sahələrində fəaliyyət göstərən sahibkarların nəzarət və tənzimləmə fəaliyyətindən məmnunluq dərəcəsinin yüksəldilməsi;

- qida təhlükəsizliyi üzrə qabaqcıl idarəetmə sistemlərinin tətbiqinin iri müəssisələrdə 90 faiz, orta müəssisələrdə 50 faiz səviyyəsinə çatdırılması.



**SOSİAL ƏDALƏT VƏ ƏDALƏTLİ GƏLİR BÖLGÜSÜ, SOSİAL MÜDAFİƏ, SOSİAL SIĞORTA, SOSİAL RİFAH, SOSİAL İŞTİRAK, SOSİAL BARIŞ, SOSİAL HƏMRƏYLİK VƏ SOSİAL DEMOKRATİYA**

**Sosialyönümlü bazar iqtisadiyyatı rəqabəti əsas alan azad təşəbbüslə fərdlərin sosial müdafiəsini təminat altına almağı hədəfləyən bir sistemdir.** Burada məqsəd bazar sərbəstliyi yanaşması ilə sosial bərabərlik prinsiplərinin uyğunlaşdırılmasından ibarətdir. Yəni sistem bir tərəfdən iqtisadi olaraq sərbəst bazar və rəqabəti əsas alarkən, digər yandan sosial baxımdan bərabərliyi nəzərdən qaçırmır. Çünki sosial yönümlülük bu bazar tipinin əsas prinsiplərindən biridir. Bu yanaşma cəmiyyətdə aşağı gəlir qrupunun yaşayış səviyyəsinin yaxşılaşdırılması və fərdlərin iqtisadi və sosial problemlərə qarşı institusional müdafiəsinin təmin edilməsini özünün əsas vəzifələrindən biri kimi görür. Sosial ədalət və ədalətli gəlir bölgüsü, sosial müdafiə, sosial sığorta, sosial rifah, sosial iştirak, sosial barış, sosial həmrəylik və sosial demokratiya sistemin üzərində durduğu əsas anlayışlardır.

Sıralanan anlayışlar içində ən mühümlərindən biri də sosial müdafiədir.

i.f.d., dos. Altay İsmayılov

# SOSİAL MÜDAFİƏ VƏ İŞSİZLİKDƏN SIĞORTA FONDU: CARİ VƏZİYYƏT

## SOSİAL MÜDAFİƏ

ən fundamental insan haqlarından biridir. Bu qavram cəmiyyətdə fərdlərin üzləşmə ehtimalı olan işsizlik, xəstəlik, peşə qəzası, yaşlılıq, əlillik və s. kimi çətinliklərin, risklərin iqtisadi nəticələrinə qarşı bir təminatın formalaşdırılması şəklində tərif edilə bilər. Dar mənada sosial müdafiə bilinən risklərin zərərlərinə qarşı olan təminatı, geniş mənada isə səbəbindən asılı olmayaraq ehtiyac halını yaradan bütün risklərə müqabil təminatı ifadə edir. Qeyd olunan bölgüyə uyğun olaraq dar mənada sosial müdafiə sosial sığortalarla, geniş mənada olan isə buna əlavətən dövlətin birbaşa maddi gəlir transferi ilə təmin etdiyi dəstəyi əhatə edir. Bu tətbiq yığım, gəlir bölgüsü kimi iqtisadi göstəricilərlə birlikdə, cəmiyyətdə risklərə qarşı zəmanət rolunu oynayaraq fərdlərin həyat məmnuniyyəti və gələcəyə olan ümidlərini artırmaqla toplumda sosial həmrəyliyə də müsbət təsir edir.

Sosial müdafiə sistemi, çətinliklərə qarşı insanlara təminat zəmanəti verən, ölkə səviyyəsində təşkilatlanmış bir sistemdir. Sistemin fəaliyyət mexanizmi əsasən sosial müdafiə qurumları tərəfindən sistemdən faydalanacaq olanlardan yığılan vəsaitlər ilə onların təminatının maliyyələşməsinin həyata keçirilməsidir. Təcrübədə bu qurumların istifadə edəcəyi maliyyələşmə metodu ölkələrə görə dəyişməklə birlikdə, bu metodlardan hansı birinin seçilməsi hər zaman müzakirə mövzusudur. Bundan əlavə, qurumların təminat altına aldığı müxtəlif risk qrupları mövcuddur. Bu gün qəbul edilən Beynəlxalq Əmək Təşkilatının (ILO) 1952 tarixli və 102 saylı sənədində müəyyənləşdirilən 9 əsas sosial sığorta risk (yaşlılıq, əlillik, ölüm, iş qəzaları, peşə xəstəlikləri, xəstəlik, analıq, işsizlik və ünvanlı sosial yardım) üçün sosial sığorta qurumları tərəfindən yığılan vəsaitlərin istifadə yöntəmi, xidmətin davamlılığının təmini baxımından çox əhəmiyyətlidir.



Azərbaycanda da formalaşdırılan sosial müdafiə sistemi iki hissədən ibarətdir: Sosial sığorta və sosial təminat. Sistem fəaliyyətlərini sosial sığorta qurumları vasitəsilə həyata keçirir. Funksional olaraq Dövlət Sosial Müdafiə Fondu, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında sosial təminatla məşğul olur. Qurumlar Beynəlxalq Əmək Təşkilatının (ILO) müəyyənləşdirdiyi yuxarıda qeyd olunan risk qrupları istiqamətində fəaliyyət göstərir.

Dövlət Sosial Müdafiə Fondunun 2019-cu il büdcəsinin həm gəlirləri, həm də xərcləri ilin ortasında müzakirəyə çıxarılaraq artırılmaqla 4 milyard 128 milyon 104 min manat məbləğində təsdiq edilmişdir. 2020-ci il büdcə haqqında qanun layihəsində isə DSMF-nin gəlir və xərcləri 4 825 508 800 manat səviyyəsində nəzərdə tutulmuşdur. Qanun layihəsinə əsasən, 2020-ci ildə DSMF-nin məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaları 3 392 594 770 manat, büdcədən maliyyələşən təşkilatlar üzrə 1 238 683 400 manat, büdcədən maliyyələşən təşkilatlarda işləyənlər üzrə 168 911 370, qeyri-büdcə sektoru üzrə 1 985 000 000 manat, o cümlədən sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üzrə 80 000 000, sair gəlirlər 6 000 000 manat nəzərdə tutulub. Sənəddə gələn il üçün dövlət büdcəsindən ayırmalar, yəni transfertlərin proqnozu 1 426 914 030 manat götürülüb.

Fondun 2020-ci il büdcəsinin xərcləri əhaliyə ödənişlər üzrə 4 684 678 800 manat, o cümlədən əmək pensiyalarının ödənilməsi üzrə 4 570 078 800 manat, məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərə 114 600 000 manat, əmək qabiliyyətinin

müvəqqəti itirilməsinə görə 28 000 000, hamiləliyə və doğuşa görə 34 000 000, uşağın anadan olmasına görə 14 900 000 manat, 3 yaşına çatanadək uşaqlara qulluqla əlaqədar 14 500 000 manat, dəfn üçün 23 200 000 manat, pensiya və müavinətlərin əhaliyə çatdırılması, bank əməliyyatlarının aparılması üzrə xidmət haqqı xərcləri 33 900 000 manat proqnozlaşdırılıb.

1 yanvar 2018-ci il tarixdən qüvvəyə minmiş "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, dövlət orqanının və ya hüquqi şəxsin ləğv edilməsi və ya işçilərin sayı və ya ştatların ixtisar edilməsi nəticəsində əmək münasibətlərinə xitam verilmiş və məşğulluq mərkəzlərində işsiz kimi qeydiyyata alınmış sığortaolunanlar işsizlikdən sığorta ödənişini almaq hüququna malikdirlər.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatlarına əsasən, dövlət qulluğunda çalışanlar "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununun 33.1.2-ci və 33.1.3-cü maddələrinə uyğun olaraq, digər hüquqi şəxslərdə çalışanlar isə Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 70-ci maddəsinin a) və b) bəndlərinə uyğun olaraq işdən azad edildikdə və ən azı 3 il sığorta stajına malik olduqda məşğulluq mərkəzlərində işsiz kimi qeydiyyata alındıqdan sonra işsizlikdən sığorta ödənişi almaq hüququna malikdirlər. Sığorta stajı dedikdə, 1 yanvar 2018-ci ilə qədər sığortaolunanın xeyrinə məcburi dövlət sosial sığorta haqqı ödənilmiş müddət və 1 yanvar 2018-ci ildən sonra sığorta haqqı ödənilən müddət nəzərdə tutulur. İşsiz kimi qeydiyyata alındığı gündən əvvəlki 24 təqvim ayı ərzində sığorta stajı 12 təqvim ayından çox olduqda sığorta ödənişi itirilmiş orta aylıq əməkhaqqına nisbətdə, 12 təqvim ayından az olduqda isə minimum məbləğdə ödənilir. Qanuna əsasən, sığorta ödənişi sığorta stajından asılı olaraq vətəndaşın itirilmiş orta aylıq əməkhaqqının məbləğinə aşağıdakı faiz dərəcələri tətbiq olunmaqla hesablanır:

- sığorta stajı 3 ildən 5 ilə qədər olduqda – 50 faiz;
- sığorta stajı 5 ildən 10 ilə qədər olduqda – 55 faiz;
- sığorta stajı 10 ildən yuxarı olduqda – 60 faiz.

İlk dəfə təyin olunan sığorta ödənişi işsizlik müddətinin davamlılığına uyğun olaraq aşağıdakı faiz dərəcələrinə mütənasib şəkildə, lakin Dövlət Statistika Komitəsi tərəfindən əvvəlki il üzrə müəyyən edilmiş ölkə üzrə orta aylıq əmək haqqından çox və minimum sığorta ödənişinin məbləğindən az olmayaraq ödənilir:

- 1 və 2-ci aylar üçün – 100%;
- 3 və 4-cü aylar üçün – 80%;
- 5 və 6-cı aylar üçün – 70%.

İşsizlikdən sığorta fondunun 2019-cu il büdcəsi haqqında Azərbaycan Respublikasının Qanununa əsasən, Fondunun 2019-cu il büdcəsinin gəlirləri 98 451 400,0 manat, xərcləri 98 451 400,0 manat məbləğində təsdiq edilmişdir. Gəlirlər aşağıdakı daxilolmalar hesabına formalaşır:

İşsizlikdən sığorta fondunun 2020-ci il büdcəsi haqqında qanun layihəsində 2020-ci il büdcəsinin gəlirləri və xərcləri 128 235 400 manat məbləğində proqnozlaşdırılıb. Sənəddə bildirilib ki, gələn il fondun gəlirləri işsizlikdən sığorta üzrə sığorta haqları 111 869 600 manat, büdcədən maliyyələşən təşkilatlar üzrə 17 834 800 manat, büdcədən maliyyələşən təşkilatlarda işləyənlər üzrə 17 834 800 manat, qeyri-büdcə sektoru üzrə 76 200 000 min manat və sair gəlirlərdən 30 000 manatlıq daxilolmalar hesabına təmin ediləcək.

## Fondun gəlirlərini formalaşdıran daxilolmalar:

| | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| 1. | İşsizlikdən sığorta üzrə sığorta haqları, cəmi o cümlədən: | 83 421 400,0 |
| 1.1. | büdcədən maliyyələşən təşkilatlar üzrə | 13 060 700,0 |
| 1.2. | büdcədən maliyyələşən təşkilatlarda işləyənlər üzrə | 13 060 700,0 |
| 1.3. | qeyri-büdcə sektoru üzrə | 57 300 000,0 |
| 2. | Sair gəlirlər | 30 000,0 |
| 3. | İşsizlikdən sığorta fondunun 2018-ci il büdcəsinin icrası nəticəsində yaranmış qalıq vəsait | 15 000 000,0 |

## Fondun 2019-cu il büdcəsinin xərcləri isə aşağıdakı istiqamətlərdə həyata keçirilir:

| | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| 1. | İşsizliyə görə sığorta ödənişləri | 11 000 000,0 |
| 2. | Peşə hazırlığı və əlavə təhsilin təşkili | 2 800 000,0 |
| 3. | Peşə yönümünə dair məsləhət xidmətlərinin göstərilməsi | 1 300 000,0 |
| 4. | Əmək yarmarkalarının, əmək birjalarının təşkili | 150 000,0 |
| 5. | Haqqı ödənilən ictimai işlərin təşkili | 1 900 000,0 |
| 6. | Özünüməşğulluq tədbirlərinin təşkili | 56 041 400,0 |
| 7. | Sığortaolunanların əməkhaqqının müəyyən hissəsinin müəyyən müddətə (3 ay, 6 ay, 9 ay, 1 il) sığortaedənlərlə birlikdə maliyyələşdirilməsi | 5 000 000,0 |
| 8. | Peşə standartlarının hazırlanması | 1 000 000,0 |
| 9. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aparatının və onun yerli orqanlarının, habelə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) saxlanılması xərcləri | 19 260 000,0 |

Qanun layihəsində fondun xərclərinin istiqamətləri də açıqlanıb. Belə ki, 2020-ci ildə fond tərəfindən işsizliyə görə sığorta ödənişləri 5 000 000 manat, peşə hazırlığı və əlavə təhsilin təşkilinə 5 000 000 min manat, peşə yönümünə dair məsləhət xidmətlərinin göstərilməsinə 2 000 000 min manat, əmək yarmarkaları və əmək birjalarının təşkilinə 500 000 manat, haqqı ödənilən ictimai işlərin təşkilinə 2 000 000 manat, özünüməşğulluq tədbirlərinin təşkilinə 63 735 400 manat, sığortaolunanların əməkhaqqının müəyyən hissəsinin müəyyən müddətə (3 ay, 6 ay, 9 ay, 1 il) sığortaedənlərlə birlikdə maliyyələşdirilməsinə 3 000 000 manat, peşə standartlarının hazırlanması 2 000 000 manat, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aparatının və onun yerli orqanlarının saxlanılması xərclərinə 43 000 000 min manatın yönəldilməsi nəzərdə tutulur.



*i.ü.f.d., dos. KƏMALƏ NƏCƏFOVA*

# SOSİAL XİDMƏT SİSTEMİNDƏ YENİLİKLƏR HANSI TÖHFƏLƏRİ VERƏCƏK

Tədqiqatda aztəminatli ailələrə tibbi və maddi yardım göstərmək tədbirləri daxil olmaqla, sosial təminat və əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsi, dəstək formaları və metodlarının yaxşılaşdırılması üçün məqsədyönlü kompleks tədbirlər həyata kecirilməsi və əhalinin ehtiyaclarını ödəmək baxımından onların mükəmməlliyini, tamlığını və səmərəliliyinin qiymətləndirməsi araşdırılmışdır.

İstənilən ölkədə sosial sahədə islahatlar aparmaq üçün ilk növbədə iqtisadi imkanlar geniş olmalıdır. Hər bir dövlətin əsas siyasəti əhalinin dahada yaxşı yaşaması və sabitliyin təmin edilməsidir. Belə ki kecən 2019-cu ilin yekununa görə ölkədə iqtisadi və sosial vəziyyət bunu bir daha sübut edir. Iqtisadiyyatımız 2,2% artım, ÜDM-nin 2,2%, sənaye istehsalı 1.5% artımışdır. Ən əsası ölkədə əsas prioritetimiz qeyri neft sektorunun 14 faiz artıması yeni iş yerlərinin yaradılmasına səbəb olmuşdur. Həmçinin sosial infrastrukturun yaradılması ilə də bağlı önəmli addımlar atılmışdır belə ki, ölkədə 84 məktəb, 60 tibb müəssisələrin tikilib və təmir edilməsini misal göstərə biləirik. 2003-cü ildən bu günə qədər iqtisadiyyatımız 3,4 dəfə artmışdır. 16 il ərzində sənaye istehsalı 2,7dəfə, kənd təsərrüfatı 2 dəfə, xarici ticarət dövriyyəsi 6,4 dəfə, ixrac 7,6 dəfə, qeyri neft ixracı 5,2 dəfə artmışdır. 2003-cü ildə valyuta ehtiyatlarımız 1,8 milyard dollar olduğu halda, kecen ilin yekunlarına görə 51 milyard, haal hazırda isə 52 milyard dollardır. Son 16 il ərzində orta əmək haqqı 11 dəfə, orta pensiya 8 dəfə artmış, 300 mindən cox məcburi köçkünə və 6700 şəhid ailəsi ev və mənzillərlə təmin edilmişdir. Ölkədə iqtisadi islahatların aparılması uğurlu sosial nəticələrə səbəb olur. Bu da öz sözünü əhalinin sosial müdafiə sistemi qismində əks etirir.

Sosial mudafiə sisteminin əsas qollarından biri də sosial təminat sistemidir. Belə ki, bu proqram cərcivəsində əhalinin az təminatlı təbəqsinə sosial işcilər tərəfindən sosial xidmətlər göstərilir. Sosial xidmətlər sosial dəyişikliklərə və inkişafa, sosial inteqrasiyaya, insanların hüquq və imkanlarının genişləndirilməsinə və azad edilməsinə kömək edən sahədir ki, sosial ədalət, insan hüquqları, kollektiv məsuliyyət sosial işin əsasını təşkil edir.

Sosial xidmətlərin ümumi mənasının fərdin cəmiyyətdə və ətraf mühitdə öz vəzifələrini yerinə yetirə biləcəyi mühitdə layiqli yaşaması olduğunu nəzərə alaraq dəyişən şərtlər daxilində bütün bu işləri yeniləmədən davam etdirmək mümkün deyil.

A.R. Prezidenti Cənab İlham Əliyevin 2019-ci il 1 iyun tarixli sərəncami əsasında sosial xidmətlər sistemində 5 rayonda ahıllar üçün günərzi xidmət mərkəzlərinin yaradılması nəzərdə tutulmuşdub.

Hazırda pensiya yaşına çatmış şəxslər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sosial xidmət müəssisəsində stasionar şəkildə xidmətlərlə təmin edilirlər. Həmçinin əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri ilə eyni yaşayış məntəqəsində yaşamayan,

özünəqulluq qabiliyyəti olmayan tənha ahıllara evlərində sosial-məişət xidməti göstərilir.

Ölkədə sosial sahədə çox böyük təşəbbüslər irəli sürülməkdə davam edir.4,2 milyon insanın sosial və maddi vəziyyəti yaxşılaşdırılmışdır. Minimum əmək haqqın 2.2 faiz artımı, minimum pensiyala 70%dən cox artmışdır. Ölkəmizdə minimum pensiyalar alıcılıq qabiliyyətinə görə MDB məkanında 1-ci yerdədir. Məsələn bəzi müavinətlər 50% bəziləri isə 2 dəfə artmışdır. Tələbələrin təqaüdləri, şəhid ailələrinə birdəfəlik sosial yardımların göstərilməsi, əlavə olaraq şəhid ailələrinə və məcburi köçkünlərə verilən aylıq müavinətlər artmışdır.

Sosial müavinətlərlə yanaşı respublikada xüsusi xidmətləri olan insanların müdafiəsini təmin etməyə yönəldilmiş təqaüd sistenminin bir sıra növləri vardır. Məsələn xidmət dövründə xəstələnmə, əmək zədəsi, peşə xəstəliyi, Cernobl qəzasının ləğvi ilə bağlı I qrup əlilliyi olan şəxslərə aylıq təqaüd məbləqi 100 manat müqabilində, Əfqanıstan Sovet Qoşunları tərkibində beynəlmiləl borcunu verərək həlak olmuş, itkin düşmüş, məhkəmə qaydasında ölmüş elan edilmiş hərbi qulluqcuların ailələrinə ayliq 300 manat müqabilində, I qrup əlillərə və sağlamlıιq imkanı məhdud 18 yaşadək şəxslərə qulluq üçün əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə I qrup əlilliyi olan şəxslərə qulluq edənlərə və saqlamlıq imkanı məhdud 18 yaşnadək uşaqlara qulluq edənlərə prezident təaüdü 50 manat məbləqində, həmçinin müharibə veteranlarına kommunal, nəqliyyat və digər xidmətlərə görə sosial müavinətlər, habelə döyümən ordu tərkibində xidmət etmiş müharibə iştirakcılarının əmək pensiyasının yaradılması üçün işlər aparılır.

Ötən il Azərbaycanda özünüməşğulluq proqramına cəlb olunanların sayı 10 min 354-ə, ünvanlı dövlət sosial yardımı alan ailələrin sayı 70 faiz artmaqla 72 minə çatıb. Bu proqramların 2020-ci ildə də genişləndirilməsi üzrə işlər aparılır. Məşğulluq orqanları tərəfindən 103 min 28 şəxs münasib işlə təmin edilib, 3 min 168 şəxs peşə hazırlığına, 135 minə yaxın vətəndaş peşəyönümü məsləhət xidmətlərinə cəlb edilib. 2018-ci il 38 min ödənişli ictimai iş yerinin açılmasına imkan verən "İşsizin DOSTu" proqramı, həmcinin bu proqramın icrası sahəsində şəffaflığın təminatına yönələn işlər son illər də davam etdirilməkdədir.

Əmək müqavilələrinin sayında 2019-cu ildə 153 min artımı və 2020-ci ildə də davam etdirilməsini əsas hədəflərdən biri kimi qeyd etmək olar. Sosial sahədə geniş miqyas alan







hamiləlik və doğumdan sonrakı dövrə görə işləyən qadınlara 126 təqvim günü ödənişli məzuniyyət verilir. Doğum cətin olduqda, iki və daha cox uçaq doğulduqda, doğumdan sonrakı məzuniyyət 70 təqvim günü müddətinə verilir. Ailədə 5dən cox uşaq dünyaya gətirib tərbiyə edən qadınlara uşaq saq olma şərtilə hər uşaqa görə 55 manat məbləğində müavimət müəyyən edilmişdir.

Müharibə və 1990-ci ilin 20 yanvar hadisəsi ilə əlaqədar əlilliyi olan şəxslərə təqaüdün aylıq məbləği I qrup əlillərdə 250, II qrup əlillərdə-230, III qrup əlillərə isə 210 manat müqabilində, 20 yanvar şəhidinin ailə üzvləri üçün Azərbaycan Respublikası prezident təqaüdünün məbləği 300 manat məbləq müqabilində, Milli Qəhrəman adı verilmiş şəxslərə Azərbaycan Respublikasının prezident təqaüdünün aylıq məbləqi 2018-ci ilin mart ayından 1500 manat məbləində, Fəxri ada görə aylıq təqaüdün məbləği xalq fəxri adı üçün 150 manat, fəxri ad üçün 100 manat müqabilində, ümumilikdə xəstəlik, hərbi sığorta hissəsinə əlavə əvəzinə 80 manat məbləqində təqaüd təsis edilmişdir.

2019-cu il sosial sahədə uğurlu islahatlar ili olmaqla genişmiqyaslı islahatların və sosial inkişaf proseslərinin 2020-ci ildə də inamla davam etdirilməsinə təminat verir.

Sosial təminat sahəsi üzrə mütəmadi irimiqyaslı tədbirlər paketinin, struktur islahatlarının reallaşması, əhalinin sosial problemlərini həll etməyə, şəffaflığı artırmağa, müxtəlif sahələrdə inzibati prosedurların sayını və məsrəfləri azaltmağa, habelə dövlət xidmətlərinin keyfiyyətini yaxşılaşdırmağa imkan verib.

Azərbaycanda 1 və 2 saylı Bakı DOST mərkəzlərinin yaradılması sosial sahədə ən uğurlu innovativ yeniliklər olub və 1 saylı DOST mərkəzi ölkədə 65 minədək vətəndaşa xidmət edib.

2019-cu il məlumatlarına görə Bakıda daha 2 saylı DOST mərkəzinin, həmçinin Sumqayıt şəhərində, Abşeron, Şəki, Bərdə, Quba, Sabirabad rayonlarında DOST mərkəzlərinin elektronlaşdırma proqramı çərçivəsində ötən il 2-si pensiya, 19-u müavinət-təqaüd növü olmaqla 21 sosial təminat növünün e-təyinat sistemi işə salınmışdır. 2019-cu ildə nazirliyin daha 13 e-arayış xidmətinin yaradılmışdır və bu xidmətlərin sayının 15-ə çatdırılması, 2020-ci ildə isə daha 15 e-arayış xidmətinin istifadəyə verilməsi proqnozlaşdırılmışdır.

Ölkədə 10 min 457 nəfər əlilliyi olan şəxsə və sağlamlıq imkanları məhdud 18 yaşadək uşağa reabilitasiya xidmətləri göstərilmiş və əlilliyi olan şəxslərin 38 min 41-i reabilitasiya vasitəsi ilə təmin olunmuşdur. Yevlax, Naftalan şəhərlərində Əlilliyi olan şəxslər üçün Regional Bərpa Mərkəzlərinin, Mərdəkan Müalicə Pansionatının, Protez-Ortopedik Bərpa Mərkəzinin, Gəncə Pensiyaçılara Ərazi Sosial Xidmət Mərkəzinin əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilmiş, Gəncədə Peşə Hazırlığı Mərkəzinin açılmış, 2020-ci ildə də 10 reabilitasiya və sosial xidmət müəssisəsinin istifadəyə verilməsinin planlaşdırılmışdır.

## **ƏHALİYƏ** ELEKTRON **XİDMƏTLƏRİNİN** GENİŞLƏNDİRİLMƏSİ:

# *İSTİQAMƏTLƏR VƏ YENİLİKLƏR*

Rəqəmsal inqilab – informasiya-kommunikasiya texnologiyalarının cəmiyyətin bütün sahələrinə təsir etməsidir. Cəmiyyət böyük məlumatlar bazasının, süni intellektin, məlumatlar haqqında elmin, blokçeyn, robototexnika və digər sürətlə inkişaf edən texnologiyaların eyni vaxtda inkişaf etdiyinin şahididir. Bunlar həyatımızın bütün sahələrinə - qida sistemlərindən tutmuş su təchizatı və kanalizasiya, enerji təchizatı, təhsil, səhiyyə və sosial təminat sahələrinə qədər - təsir edərək bir-birini təkmilləşdirir və gücləndirir. Bu da öz növbəsində iqtisadi inkişafın istiqamətini müəyyənləşdirir: elektron hökumətin, elektron biznesin və elektron ticarətin formalaşmasına yönəldilir. Bu, yalnız texnologiyaları deyil, ilk növbədə insanları və bütövlükdə planeti əhatə edir.

Xüsusilə elektron hökumət insanların yaşam tərzinə və bir-biri ilə, ətraf mühit və dövlət xidmətləri ilə qarşılıqlı münasibətlərinə əhəmiyyətli və davamlı dəyişikliklər edir.

*i.e.d., prof. Arzu Hüseynova*

Elektron hökumətin istifadəsi yalnız dövlət xidmətlərinin səmərəliliyini artırmaq üçün təşkilati və iş proseslərinin təkmilləşməsi və şəffaflığı baxımından deyil, həm də insanların bu proseslərə cəlb edilməsi və cavabdehliyin təmin edilməsi baxımından da böyük potensiala malikdir.

İqtisadi proseslərin İKT vasitəsilə real zaman rejimində həyata keçirilməsi və onların avtomatlaşdırılması elektron xidmətlərin yaranması və inkişafı üçün bir şərt oldu, bu da əməliyyat xərclərini və istehsal xidmətlərinin maya dəyərini azaltdı.

Bu gün İKT-nin tətbiqi ilə "elektron xidmətlər" anlayışı (operativliyi artıran, cəmiyyət və dövlət arasındakı əlaqəni daha da sadələşdirən) geniş tətbiq olunur. Eyni zamanda elektron xidmətlər şəffaflığın təmin edilməsi və korrupsiya hallarının qarşısının alınmasında ən təsirli vasitələrdən biri kimi qəbul edilir.

Azərbaycan Respublikasının qanunvericiliyinə görə, "Elektron Hökumət" müasir informasiya texnologiyalarından istifadə etməklə dövlət qurumları tərəfindən Azərbaycan Respublikasının ərazisində yaşayan bütün vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə informasiya və e-xidmətlərin göstərilməsininə şərait yaradır.

Elektron hökumətin xidmətindən hökumət (G2G - government to governmet), vətəndaşlar (G2C - government to citizen) və biznes (G2B - government to business) istifadə edə bilər.

Elektron hökumətə keçid yalnız biznes proseslərinin yenidən qurulması deyil, dövlətin bütün səviyyələri arasında kommunikasiya torunun qurulması lazımdır. E-hökumətin formalaşma prosesi 4 mərhələdən ibarətdir: mövcudluq mərhələsi, interaktiv mərhələ (qarşılıqlı fəaliyyət), transaktiv mərhələ və transformasiya mərhələsi. Lakin bu o demək deyil ki, e-hökumətin tətbiqi zamanı bütün

| Dövlət qurumları | Xidmət sayı |
|---|---|
| Vergilər Nazirliyi | 65 |
| Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 39 |
| Əmlak Məsələləri Dövlət Komitəsi | 35 |
| Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 27 |
| Səhiyyə Nazirliyi | 31 |
| Ədliyyə Nazirliyi | 26 |
| Kənd Təsərrüfatı Nazirliyi | 22 |

### *ƏN ÇOX ELEKTRON XİDMƏT GÖSTƏRƏN QURUMLAR*

bu mərhələlərdən ardıcıl keçilməlidir.

Təhlil göstərir ki, elektron hökumətə keçid hökumətin fəaliyyətinin effektivliyinin artırılmasına gətirir.

Elektron hökumətə keçidin əsas səbəbləri dövlət xidmətlərinin keyfiyyətinin artırılması, hesabatlaşmanın artırılması, xidmətlərin şəffaflıq və xidmət prosesinin asanlaşdırılmasıdır. Elektron hökumət informasiyaya daha geniş keçidə malikdir. Bu da dövlətin cəmiyyət qarşısında cavabdehlik dərəcəsini artırır.

Dövlət idarəçilik islahatları zamanı elektron hökumət hesabına həll edilən bəzi istiqamətləri nəzərdən keçirək:

- Elektron hökumət ölkə hakimiyyətinin işinin səmərəliliyinin artırılmasına dəstək verir;

- Elektron hökumət texnologiya, informasiya və biliyi birləşdirmək məqsədilə dövlət və sosial-iqtisadi həyat arasında çoxtərəfli daxili kommunikasiya şəbəkələri formalaşdırır;

- Elektron hökumətə keçid xərclərin azalmasına və səmərəliliyin artmasına gətirir;

- Dövlət xidmətlərinin keyfiyyətinin artırılması dövlət islahatlarının əsas amillərindəndir;

- Elektron hökumət vasitəsilə idarəetmə nexanizminin təkmilləşdirilməsi iqtisadi və siyasi məqsədlərə çatmağa kömək edir;

- Elektron hökumət qərar qəbuletmə prosesinin və cəmiyyətə dövlət strukturlarının hesabat verməsinin şəffaflıq səviyyəsini artırır, eyni zamanda korrupsiya səviyyəsini azalmağa kömək edir;

- Elektron hökumət islahat proqramlarını daha səmərəli həyata keçirməyə kömək edir;

- Elektron hökumət vətəndaşların ölkə hakimiyyətinə inam səviyyəsini artırır;

- Elektron hökumətin istifadəsi əsas sahələrdə - səhiyyə, təhlükəsizlik, sosial təminat, təhsil yüksək nəticələr əldə etməyə kömək edir;

- Elektron hökumət İKT-nin cəmiyyətin bütün sahələrinə tətbiqini stimullaşdırır.

Beləliklə, elektron hökumət konsepsiyasının həyata keçməsi hesabına aşağıdakı məsələlər həll edilir:

- Vətəndaş və müəssisələr üçün dövlət xidmətlərinə keçid sadələşdirilir;

- Əhalinin dövlət idarəetmə məsələlərinə cəlb edilməsi artır;

- Hökumət və vətəndaşlar arasında kommunikasiya (ünsiyyət) yaxşılaşır;

- Əhalinin dövlət xidmətlərindən razılıq səviyyəsi artır;

- Hökumətin işinin səmərəsi artır.

CƏDVƏL 1
AZƏRBAYCANIN ELEKTRON HÖKUMƏTİN İNKİŞAF İNDEKSİ

| | 2018 | 2016 | 2014 | 2012 | 2010 | 2008 |
|---|---|---|---|---|---|---|
| **EHİİ (elektron hökumətin inkişaf indeksi)** | 70 | 56 | 68 | 96 | 83 | 89 |
| **Elektron iştirak indeksi** | 79 | 47 | 77 | 89 | 68 | 49 |

Azərbaycan Respublikasının davamlı inkişaf konsepsiyası mütərəqqi beynəlxalq təcrübənin bütün sahələrdə tətbiqini və müasir texnologiyaların geniş tətbiqini müəyyənləşdirir. Bu səbəbdən Azərbaycanda, digər sahələrdə olduğu kimi, dövlət idarəetmə sistemində də informasiya-kommunikasiya texnologiyaları uğurla tətbiq olunur. Beləliklə, son illərdə dövlət idarəçiliyinin müasir prinsiplər əsasında təşkili məqsədilə təkmilləşdirilmiş və çevik idarəetmə formasının tətbiqi üçün mühüm tədbirlər həyata keçirilmişdir.

Ölkəmizdə "Elektron Xidmətlər" və "Elektron Hökumət"in formalaşdırılması və inkişafı üzrə qısa müddətdə müvafiq hüquqi baza formalaşdırılmışdır: Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramının (Elektron Azərbaycan)" təsdiq edilməsi haqqında Sərəncamı (10 avqust 2010-cu il), Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2010-2011-ci illərdə "Elektron hökumət"in formalaşdırılması üzrə Fəaliyyət Proqramı" (14 may 2010-cu il), Azərbaycan Respublikası Prezidentinin "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında"

## DÖVLƏT E-XİDMƏT **KEYFİYYƏT STANDARTININ** STRUKTURU

- **Dövlət e-xidmətləri göstərilməsi məqsədi;**
- **Dövlət e-xidmətin istehlakçılarının məqsədi qruplarının xüsusiyyətləri;**
- **Dövlət e-xidmətlərin istifadəsinə olan tələblər;**
- **Dövlət e-xidmətin göstərilməsi prosesində informasiya-texniki təminata tələb;**
- **Dövlət e-xidmətin göstərilməsi prosesinin dəqiq təsviri;**
- **Dövlət e-xidmətin göstərilməsinin hüquqi əsası;**
- **Dövlət e-xidmətin göstərilməsinin təhlükəsizliyi;**
- **Dövlət e-xidmət göstərilməsinin keyfiyyət qiymətləndirilməsinin kəmiyyət göstəriciləri;**
- **Dövlət e-xidmət göstərilməsinin keyfiyyət qiymətləndirilməsinin keyfiyyət göstəriciləri;**
- **Dövlət e-xidmət keyfiyyəti üzrə istehlakçıların fikrinin monitorinqi.**

# ELEKTRON HÖKUMƏT

(23 may 2011-ci il), "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçidlə bağlı tədbirlər haqqında" (14 mart 2018-ci il) və "Əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində elektron xidmətlərin tətbiqinin genişləndirilməsi haqqında" (05 sentyabr 2018-ci il) Fərmanları və digər normativ hüquqi aktlar. Bunlar təkcə ölkədə elektron hökumətin və xidmətlərin inkişafı deyil, həm də korrupsiyaya qarşı mübarizənin genişləndirilməsi baxımından böyük əhəmiyyət daşıyırlar.

Elektron hökumətin inkişafındakı tərəqqi BMT-nin iqtisadi və sosial inkişaf departamenti tərəfindən verilən EHİİ (elektron hökumətin inkişaf indeksi) vasitəsilə izlənilir. Azərbaycan 2018-ci ilin reytinqində 193 ölkə arasında 70-ci yerdədir.

Ölkədə "elektron hökumət"in formalaşdırılmasına ciddi diqqət yetirilir və İT vasitələrindən istifadə etməklə məmur-vətəndaş olan "məsafənin" azaldılmasına, G2C münasibətlərinin sadələşdirilməsi və şəffaflaşdırılması bürokratik əngəllərin qarşısının alınmasına xidmət edir. Ölkədə "elektron hökumət"in zəruri infrastrukturları yaradılmışdır. "Elektron hökumət" portalı (https://www.e-gov.az/) artıq fəaliyyət göstərir. "E-hökumət" portalında dövlət qurumlarının informasiya sistemləri arasında İKT vasitəsilə məlumatların mübadiləsi aparılır. Portala giriş elektron imza və asan imza vasitəsilə aparılır, dövlət orqanları tərəfindən müxtəlif elektron xidmətlər göstərilir. Hazırda "Elektron hökumət" portalına qoşulmuş dövlət qurumlarının elektron xidmətləri "bir pəncərə" prinsipi əsasında əhaliyə təqdim edilir. Qeyd edilənlərlə yanaşı, vətəndaşlara xidmətlərin innovasiyaları tətbiq etməklə rahat, vahid məkandan həyata keçirilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli 685 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində "ASAN xidmət" mərkəzləri yaradılmışdır. "ASAN xidmət" mərkəzləri dövlətin məlumat bazalarının qarşılıqlı inteqrasiyasını təmin edir, e-xidmətlərin təşkilini sürətləndirir. "ASAN xidmət" idarəetmə sisteminin təkmilləşdirilməsinin ən yaxşı nümunəsidir və müsbət təcrübə kimi xarici dövlətləri maraqlandırmışdır.

2018-ci ildən Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində fəaliyyət göstərən "Elektron Hökumətin İnkişafı Mərkəzi" e-xidmət sahəsində digər qurumlarla sıx əməkdaşlıq edir və müasir informasiya texnologiyaları vasitəsi ilə əhaliyə və xarici vətəndaşlara elektronlaşdırılmış xidmətlər göstərir: e-viza, dövlət xidmətləri, rəqəmsal ödəniş sistemləri üzrə xidmətlər və s. Bu xidmətlər "e-gov" portalı üzərindən aparılır.

Digər bir vahid platforma "myGov" portalıdır (www.my.gov.az). Bu platformanın üstünlüyü ondadır ki, burda vətəndaş öz kabinetinə malikdir. Kabinet real rejimdə əhalinin məlumatlandırılmasına, sosial-iqtisadi məlumatların saxlanılmasına, ötürülməsinə, digər e-xidmətlərindən istifadəsinə şərait yaradır.

Bundan əlavə, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar, Əmək və Əhalinin Sosial Müdafiəsi, Səhiyyə, Ədliyyə, Daxili İşlər nazirlikləri, Dövlət Gömrük Komitəsi və s. kimi mərkəzi icra hakimiyyəti orqanları öz portalları vasitəsilə istehlakçılara elektron xidmətlərə daha rahat və sadə keçidi təmin edirlər.

2012-ci ildə 60 xidmətlə işə başlayan e-hökümət portalında bu gün 451 adda elektron xidmət göstərilir. Dövlət, Azərbaycan hökuməti, regional və yerli idarəetmə qurum və təşkilatları tərəfindən müxtəlif sahələr üzrə e-xidmətlər (sosial müdafiə, sosial təminat, təhsil, səhiyyə, rabitə, gömrük, vergi, hüquq xidmətləri, online ödənişlər, xüsusi razılıq (lisenziyaların) verilməsi) göstərilir.

Ən çox elektron xidmət göstərən qurumların siyahısı və ən çox istifadə edilən xidmətlər cədvəl 2-də göstərilib.

## ƏN ÇOX ELEKTRON XİDMƏT GÖSTƏRƏN QURUMLAR



# UNEC EKSPERT

## redaksiya HEYƏTİ

BAŞ REDAKTOR
prof. Ədalət Muradov
MƏSUL KATİB
dos. Anar Rzayev
TƏRTİBATÇI
Zaur Əziz
KORREKTOR
Sadiq Qarayev
REDAKSİYANIN ÜNVANI
AZ 1000, Bakı, Azərbaycan,
İstiqlaliyyət küçəsi 6.
Tel.: 012 437 10 86
www.unec.edu.az
expert@unec.edu.az
MƏTBƏƏ: ŞƏRQ-QƏRB
TİRAJ: 1000
JURNAL İLDƏ İKİ DƏFƏ NƏŞR OLUNUR.
ƏDLİYYƏ NAZİRLİYİ QEYDİYYAT NÖMRƏSİ #4026

#01 (08) 2020

AZƏRBAYCAN
DÖVLƏT
İQTİSAD
UNİVERSİTETİ

UNEC

# UNEC KARYERA MƏRKƏZİ

## XİDMƏTLƏRİMİZ

*UNEC Karyera Mərkəzi olaraq əsas vəzifəmiz tələbələrimizi peşəkar iş həyatına hazırlamaq, şəxsi inkişaflarına dəstək olmaq, işəgötürənlərlə sıx əməkdaşlıqlar qurmaq və məzunlarımızla sağlam əlaqələri daim qorumaqdır.*

01 İş həyatına hazırlıq

02 Bacarıqların təkmilləşdirilməsi

03 İş dünyası ilə əlaqələrin gücləndirilməsi

+994 12 497-71-35

www.unec.edu.az